**XƏZƏR UNİVERSİTETİ**

Fakültə: Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil

Departament: Təhsil

İxtisas: Pedaqogika nəzəriyyəsi və tarixi

**MAGİSTR DİSSERTASİYA İŞİ**

# II SİNİF HƏYAT BİLGİSİ DƏRSLİYİNİN DƏYƏRLƏR SİSTEMİ BAXIMINDAN TƏHLİLİ

İddiaçı: __________________ Şəbnəm Qasım qızı Əliyeva

Elmi rəhbər: __________________ filologiya üzrə fəlsəfə doktoru, dosent

Elza Nizami qızı Səmədli

**Bakı – 2025**

MÜNDƏRİCAT

**GİRİŞ** ... 3

**I FƏSİL. ƏDƏBİYYAT XÜLASƏSİ** ... 9

1.1. Tərbiyə işinin təşkili ... 9

1.2. Dəyər anlayışı haqqında ümumi məlumat ... 14

1.3. Azərbaycanın qanunvericilik sənədlərində dəyərlərin əksi ... 19

1.4. UNESCO-nun təklif etdiyi dəyərlər ... 26

1.5. Dəyərlərin tədrisində istifadə olunan üsullar ... 29

1.6. Dəyərlərin mənimsənilməsində emosional taksonomiyanın rolu ... 34

**II FƏSİL. METODOLOGİYA VƏ TƏHLİL** ... 44

2.1. Tədqiqat modeli ... 44

2.2. Məlumatların toplanması ... 44

2.3. Məlumatların analizi ... 45

2.4. II sinif Həyat bilgisi fənn kurikulumunda tədrisi nəzərdə tutulan dəyərlər ... 45

2.5. II sinif Həyat bilgisi dərsliyində mənimsənilməsi nəzərdə tutulan dəyərlərin reallaşdırılma səviyyəsi ... 58

2.6. Məzmun xətləri üzrə formalaşmış dəyərlərin bölgüsü ... 75

**NƏTİCƏ** ... 82

**TƏKLİFLƏR** ... 85

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR** ... 87

**ƏLAVƏLƏR** ... 94

# GİRİŞ

Müasir dövrdə təhsil sistemində şəxsiyyətin hərtərəfli inkişafına xidmət edən dəyərlər sisteminin formalaşdırılması əsas prioritetlərdən biridir. Bu prioritetin önə çəkilməsi təkcə təhsilin məzmununa deyil, onun metodologiyasına da ciddi şəkildə təsir edir. Yəni tərbiyəvi məqsəd artıq bütün fənlərin təməl yanaşmasına çevrilməlidir. Dəyərlər sistemi fərdlərin və cəmiyyətin davranışını tənzimləyən, onların əxlaqi, sosial və mədəni inkişafını təmin edən ən mühüm elementlərdən biridir. Təhsil isə bu dəyərlərin ötürülməsi və gələcək nəslə mənimsədilməsi üçün ən vacib vasitədir.

Təhsil həyatın vacib hissəsidir. Ailədə başlayan təhsil məktəbdə davam edir və bu prosesdə təhsil insana bilik verməklə yanaşı, onun fərdi inkişafına da öz töhfəsini verir. Təhsilin əsas məqsədi fərdin dəyişən şəraitə uyğunlaşmasını və hərtərəfli inkişafını təmin etməkdir. Bu səbəbdən təhsilin ümumi funksiyaları fərdin cəmiyyətə və onun dəyərlərinə inteqrasiyasına dəstək vermək, həmçinin onun potensial imkanlarını mümkün qədər inkişaf etdirməkdir (Şenel, 2018, s. 5).

Dünya ölkələrinin təhsil sistemləri göstərir ki, şagirdlərin yalnız adi ünsiyyət bacarıqları ilə deyil, eyni zamanda kiçik miqyaslı iqtisadi təşəbbüsləri planlaşdırıb həyata keçirmək kimi kompleks həyati bacarıqlarla təchiz olunması müasir təhsilin əsas məqsədlərindən biridir. Belə bacarıqların formalaşması isə yalnız şagirdin təlim prosesində passiv obyekt deyil, aktiv subyekt kimi iştirak etdiyi, şagirdyönümlü yanaşmaların tətbiq olunduğu və fənlərarası inteqrasiyanın təmin edildiyi təlim mühitində mümkün olur. Məhz bu səbəbdən də milli və beynəlxalq təcrübələr nəzərə alınaraq "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" çərçivəsində bu funksiyaları yerinə yetirə biləcək yeni bir fənn-Həyat bilgisi fənni tədrisə daxil edilmişdir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, 2013, s. 7).

Həyat bilgisi fənni fərdi bioloji, psixoloji, sosial və mənəvi cəhətdən bütöv bir varlıq kimi dərk etməyə və onun şəxsiyyət kimi formalaşmasına dəstək göstərən bilik, bacarıq və dəyərlərin inkişafına xidmət edən inteqrativ xarakterli fəndir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, 2013, s. 7). Bu yanaşma Həyat bilgisi fənnini sadəcə informasiya verən deyil, şagirdin şəxsiyyətini formalaşdıran mühüm bir vasitəyə çevirir.

Küçükahmetə görə dərsliklər proqramın məqsədləri ilə şagird arasında əlaqə quraraq təlim prosesində əsas vəsait rolunu oynayır. Keyfiyyətli dərsliklər proqramı istifadə edənlərə

onun məzmunu və hədəfləri barədə aydın təsəvvür yaradır. Şagirdlər bu kitablardan istifadə etməklə proqramın məqsədlərini və öyrənəcəkləri mövzuları mənimsəyirlər. Kitabda yer alan qiymətləndirmə sualları isə həm şagirdlərə öz biliklərini yoxlamağa, həm də müəllimlərə tədrisin nə dərəcədə səmərəli olduğunu müəyyənləşdirməyə kömək edir (sitat gətirilib: Kale, 2015, s. 3). Müəllifin fikrindən bu nəticəyə gəlmək olar ki, dərslik sadəcə məlumat mənbəyi olmaqdan daha artıq funksiyaya malikdir. O, bir növ tədris proqramının praktik bələdçisi kimi çıxış edir. Yəni proqramda nəzərdə tutulan məzmun və bacarıqların şagird tərəfindən mənimsənilməsi və qavranılması məhz dərslik vasitəsilə reallaşır. Şagird dərsliyi oxuduqca təlimin istiqamətini, əsas mövzularını və özünün nələri öyrənməli olduğunu daha aydın şəkildə anlayır. Bu, xüsusilə də ibtidai siniflərdə, yəni uşaqların təlimlə ilk tanışlıq mərhələsində olduqca vacibdir.

Eyni zamanda dərslikdə yer alan qiymətləndirmə sualları da sadəcə şagirdin nələri yadda saxladığını yoxlamaq üçün deyil, tədris prosesinin effektivliyini ölçmək və müəllimin tədris keyfiyyətini qiymətləndirmək üçün bir vasitə rolunu oynayır. Bu suallar həm şagirdin özünüqiymətləndirmə bacarığını inkişaf etdirir, həm də müəllimə Tədris zamanı məqsədə çatmışıqmı?, Şagirdlər nə dərəcədə fəal öyrənib? kimi suallara cavab tapmaqda yardımçı olur.

Beləliklə, yaxşı tərtib olunmuş dərslik həm müəllim, həm də şagird üçün təlimin istiqamətini müəyyən edən bir yol xəritəsi, həm də qarşıya qoyulan təlim hədəflərinə çatmaq üçün praktik alət funksiyasını yerinə yetirir. Bu baxımdan dərslik təkcə bilik təqdim edən kitab deyil, tədrisin keyfiyyətini artıran pedaqoji vasitə kimi qiymətləndirilməlidir.

İbtidai sinif Həyat bilgisi dərslikləri bu baxımdan şagirdlərin həyatla bağlı ilkin təsəvvürlərini və dəyərlərini formalaşdıran əsas vasitələrdən biridir. Bu dərsliklər, əslində, uşağın dünyanı necə görəcəyini müəyyən edən ilk rəsmi mənbədir. Ona görə də burada təqdim edilən dəyərlər gələcək davranış modelinin əsasını təşkil edə bilər. Müasir dövrdə dəyərlər sisteminin təhsildə inteqrasiyası və dərsliklərdə effektiv təqdimatı böyük əhəmiyyət daşıyır. Bu mövzunun seçilməsi onunla əlaqədardır ki, ibtidai sinif dərslikləri vasitəsilə dəyərlərin öyrədilməsi prosesinin təhlili və təkmilləşdirilməsi zəruridir. Bu zərurət yalnız kurikulum tələblərindən doğmur, həm də cəmiyyətin dəyişən mənəvi tələbləri ilə şərtlənir.

Bu tədqiqat işinin mövzusu ölkəmizin ümumi təhsil müəssisələrində istifadə olunan II sinif Həyat bilgisi dərsliyində yer alan mətn, tapşırıq və şəkilləri məzmun xətlərinə əsasən təhlil etməkdir. Bu dərsliklər vasitəsilə uşaqlara milli-mənəvi dəyərlər, əxlaq normaları, sosial məsuliyyət və vətəndaşlıq bilikləri aşılanır. Mövcud dərsliklərin dəyərlər sistemi baxımından

nə dərəcədə təsirli olduğu və onların şagirdlərin şəxsiyyətinə necə təsir etdiyi məsələsi xüsusi araşdırma tələb edir.

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İbtidai siniflərdə Həyat bilgisi dərsliklərinin dəyərlər sistemi baxımından təhlili təhsilin keyfiyyətinin artırılması və müasir dövrün tələblərinə uyğunlaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Xüsusilə, Elm və Təhsil Nazirliyinin Sinqapurun təhsil sahəsindəki uğurlarını nəzərə alaraq 2020-ci ildən "Alston" Nəşriyyat Evi ilə əməkdaşlığı bu sahədə yeni bir mərhələnin başlanğıcıdır. Layihənin əsas məqsədi təbiət elmləri və Həyat bilgisi fənləri üzrə təhsil proqramlarının və dərsliklərin təkmilləşdirilməsidir. Bu məqsədlə xarici mütəxəssislərdən əldə olunan bilik və təcrübələrdən istifadə edərək ibtidai təhsil səviyyəsində dərsliklərin məzmununun təhlili və yenilənməsi nəzərdə tutulur. Bu layihə ibtidai təhsil səviyyəsində dəyərlər sistemini gücləndirmək, şagirdlərə həyatla bağlı daha dolğun məlumat vermək və onların ümumi inkişafına töhfə vermək məqsədi daşıyır (Azərbaycan Respublikası Təhsil İnstitutu [ARTİ], 2020).

Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nı təsdiq etməsi, I-IV sinif Həyat bilgisi fənni üzrə təhsil proqramındakı təbiət elmlərinə dair məzmun standartlarının yenilənməsi və bu konsepsiya əsasında yeni dərslik komplektinin hazırlanması ilə birlikdə dəyərlər məsələsi də yenidən gündəmə gəlir. Yeni tədris proqramları və dərsliklər şagirdlərə təkcə elmi məlumatlar verməklə kifayətlənməyəcək, həm də onların şəxsi inkişafına və əxlaqi dəyərlərin formalaşmasına töhfə verəcək. Bu baxımdan Həyat bilgisi dərsliyinin dəyərlər sistemi baxımından təhlili təbiət fənləri üzrə təhsil proqramlarının təkmilləşdirilməsi ilə əlaqədar gedən işlərlə sıx bağlı olduğu üçün aktualdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini II sinif Həyat bilgisi dərsliyindəki mətn, şəkil və tapşırıqlar, predmetini isə mətn, şəkil və tapşırıqlarda əks olunmuş dəyərlərin fənn kurikulumuna uyğunluğunu müəyyənləşdirmək təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi II sinif Həyat bilgisi dərsliyindəki mətn və tapşırıqların fənn kurikulumunun tələblərinə uyğunluğunu aşkar etməkdir. Tədqiqat işinin vəzifələrinə aşağıdakılar daxildir:

- Dəyərlər sisteminin pedaqoji və nəzəri əsasları, ibtidai sinifdə tədrisinin əhəmiyyəti barədə məlumat vermək;
- Dərslikdə milli-mənəvi, əxlaqi-etik və sosial dəyərlərin əks olunma səviyyəsini araşdırmaq;

- II sinif Həyat bilgisi fənn kurikulumunda aşılanması nəzərdə tutulan dəyərlərin dərslikdəki mətn, tapşırıq və şəkillər vasitəsilə reallaşdırılma səviyyəsini müəyyənləşdirmək.

**Tədqiqat sualı.** Tədqiqatın məqsədinə uyğun olaraq tədqiqat sualı aşağıdakı kimi formalaşdırılmışdır:

II sinif Həyat bilgisi dərsliyindəki mətn, tapşırıq və şəkillər vasitəsilə aşılanması nəzərdə tutulan dəyərlər fənn kurikulumundakı məzmun xətləri ilə nə dərəcədə uyğunluq təşkil edir?

**Tədqiqatın əhəmiyyəti.** İbtidai sinif şagirdlərinin şəxsiyyətinin formalaşmasında dəyərlərin öyrədilməsi mühüm rol oynayır. Həyat bilgisi dərslikləri bu prosesdə əsas vasitədir. Tədqiqat dərslikdə dəyərlərin necə təqdim olunduğunu və bu dəyərlərin uşaqların dünyagörüşünə necə təsir etdiyini araşdıraraq dəyərlər təliminin effektivliyini qiymətləndirməyə imkan verir.

Dərsliyin dəyərlər sistemi baxımından təhlili təhsil proqramlarının təkmilləşdirilməsi üçün zəruri məlumatlar təqdim edir. Bu tədqiqat vasitəsilə dərslikdəki dəyərlərin müasir cəmiyyətin tələblərinə uyğunluğu müəyyən edilə bilər və lazım olan dəyişikliklər təklif oluna bilər.

Həyat bilgisi dərslikləri vasitəsilə şagirdlərə mədəni, əxlaqi və sosial dəyərlər ötürülür. Bu tədqiqat dərslikdə hansı dəyərlərin daha çox vurğulandığını və bunların şagirdlərin mədəni şüuruna necə təsir etdiyini araşdıraraq milli və bəşəri dəyərlərin balansını qiymətləndirməyə kömək edir.

Dərsliklərin dəyərlər sistemi baxımından təhlili müəllimlər üçün dəyərlərin öyrədilməsi sahəsində daha effektiv pedaqoji strategiyaların işlənib hazırlanmasına zəmin yaradır. Bu, təlim prosesinin keyfiyyətinin yüksəldilməsinə kömək edir.

**Tədqiqatın metodu.** Tədqiqat işi keyfiyyət tədqiqat metodlarına əsaslanmış, sənəd araşdırması və məzmun təhlili metodlarından istifadə olunmuşdur. Tədqiqat çərçivəsində tədqiq olunan mövzu ilə bağlı fakt və hadisələr haqqında məlumatları özündə əks etdirən yazılı sənədləri təhlil edərək məlumat əldə etməyə sənəd araşdırması deyilir (Karataş, 2015, s. 72). Məzmun təhlili obyektiv, ölçülə bilən, təsdiq edilə bilən məlumatlara çatmaq məqsədilə sənəd, mətn və yazılı materiallar kimi bir çox müxtəlif materialları müəyyən qaydalar daxilində (nümunələmə, kodlaşdırma, kateqoriyalaşdırma və s.) təhlil etməyi hədəfləyən keyfiyyət tədqiqat metodunun içində yer alan bir texnikadır (Metin və Ünal, 2022, s. 273).

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda II sinif Həyat bilgisi dərsliyində və fənn kurikulumunda formalaşması nəzərdə tutulan milli, mənəvi və bəşəri dəyərlər araşdırılmış, dərslikdəki mətn, şəkil və tapşırıqların fənn kurikulumuna uyğunluq səviyyəsi öz əksini tapmışdır. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq yenilənmiş II sinif Həyat bilgisi dərsliyi dəyərlər sistemi baxımından məzmun xətləri üzrə əhatəli təhlil olunmuş, dəyərlərin təkrarlanma tezliyi, mətn, şəkillərlə inteqrasiyası, tapşırıqlar vasitəsilə şagirdə ötürülmə forması kəmiyyət və keyfiyyət baxımından ölçülmüşdür. Tədqiqat ibtidai təhsil səviyyəsində dəyərlərin şagirdlərə aşılanma vəziyyətini müəyyənləşdirməklə tədrisdə keyfiyyətə nəzarət və inkişaf üçün yeni yanaşma təklif edir.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri dəyərlərin mənimsənilməsinin nəzəri aspektlərinin zənginləşdirilməsinə və dərsliklərin təkmilləşdirilməsinə töhfə verə bilər. Praktiki baxımdan bu iş müəllimlər, təhsil proqramlarının tərtibçiləri və dərslik müəllifləri üçün faydalı metodik tövsiyələr təqdim edir.

**Tədqiqat işinin informasiya bazası.** Tədqiqat işi zamanı əsas mənbə kimi Azərbaycan, türk, ingilis dillərindəki elmi ədəbiyyatlar, internet resursları və digər araşdırma materiallarından istifadə olunmuşdur. Ümumilikdə, tədqiqatın icra müddətində 50-dən çox məqalə və kitab araşdırılmışdır.

**Tədqiqat işinin əhatə dairəsi.** Tədqiqat işinin əhatə dairəsinə əsasən II sinif Həyat bilgisi dərsliyi təhlil edilmişdir. Tədqiqat işi mündəricat, giriş, 2 fəsil, 12 yarmfəsil, nəticə, ədəbiyyat siyahısından ibarətdir.

Giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işin obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları və elmi yeniliyi əks olunmuşdur.

Tədqiqat işinin birinci fəsli "Ədəbiyyat xülasəsi" adlanır. Bu fəsildə tədqiqat işi ilə bağlı ümumi icmal təqdim olunmuş, tərbiyə işinin təşkili, dəyərlərin öyrədilməsində nəzərdə tutulan üsular, milli və beynəlxalq sənədlərdə formalaşdırılması nəzərdə tutulan dəyərlər izah edilmiş, emosional taksonomiyanın bu işdə rolu haqqında məlumat verilmişdir.

İkinci fəsil isə "Metodologiya və təhlil" başlığı altında yazılmışdır. Bu fəsildə tədqiqat modeli, məlumatların toplanması və analizi qeyd olunmuş, nəzərdə tutulan dərslik və fənn kurikulumu təhlil edilmiş, yer alan dəyərlər qarşılaşdırılmışdır.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqat Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Həyat bilgisi fənni üzrə təhsil proqramı (kurikulum) (I-IV siniflər) (2024) əsasında hazırlanan II sinif Həyat bilgisi dərsliyi ilə məhdudlaşır. Bu məhdudiyyət mövzunun

konkret olmasına imkan verməklə yanaşı, gələcəkdə digər siniflər üzrə də oxşar araşdırmaların aparılmasının vacibliyini ortaya qoyur.

Tədqiqat çərçivəsində təhlil edilən dəyərlər altı əsas kateqoriyaya bölünür (Azərbaycan Respublikası Nazirlər Kabineti, 2020, bənd 8.2.3):

1. Mənəvi-əxlaqi dəyərlər: özünü təqdim etmə, özünəinam, doğruluq, ədalət, vicdan, səmimiyyət, əxlaq, şərəf və ləyaqət, nəzakət, ünsiyyət, sevgi

2. Milli kimliyin dərki və milli iftixar hissi: vətənpərvərlik, tarixi dəyərlərə hörmət, mədəniyyətə bağlılıq, irsə hörmət

3. Fəal vətəndaş mövqeyi: ictimai məsuliyyət, hüquqların qorunması, vətəndaş öhdəlikləri, əməkdaşlıq

4. Şəxsi və sosial məsuliyyət: intizam, yardımsevərlik, fərdi məsuliyyət, ailəyə qarşı məsuliyyət, qənaət, sağlamlıq, gigiyena, təhlükəsizlik, ekoloji məsuliyyət

5. Demokratiya və insan hüquqlarına hörmət: azadlıq, bərabərlik, tolerantlıq, iştirakçılıq

6. Mədəni müxtəlifliyə hörmət: empatiya, qəbul etmə, cəmiyyətə inteqrasiya, multikulturalizm.

Bu təsnifat göstərir ki, təhsil sistemi təkcə biliyin deyil, həm də insanın mənəvi və sosial dəyərlərinin formalaşmasında aktiv rola malikdir.

# I FƏSİL. ƏDƏBİYYAT XÜLASƏSİ

## 1.1. Tərbiyə işinin təşkili

Tərbiyə insan cəmiyyətinin formalaşdığı ilk dövrlərdən bəri mövcuddur və bu proses insanın şəxsiyyətinin inkişafı, davranışlarının tənzimlənməsi ilə bağlıdır. Bu yanaşmadan aydın olur ki, tərbiyə prosesi zamanla dəyişsə də, onun əsas məqsədi-mənəvi və sosial dəyərlərə malik vətəndaş yetişdirmək dəyişməz qalır.

“Tərbiyə” sözü ərəb mənşəli “Əl-tərbiyə” sözündən yaranmışdır və “rəbb” kökünə əsaslanır. Bu kök “yol göstərmək”, “böyütmək”, “inkişaf etdirmək” və “artırmaq” mənalarını ifadə edir. Qurani-Kərimdə “rəbb” kəlməsi “tərbiyə edən” və “mənəvi kamilliyə yönəldən” mənasında işlədilir (Hüseynzadə, 2010, s. 7).

Cəmiyyətin qarşıya qoyduğu şəxsiyyət modelinə uyğun olaraq böyüməkdə olan nəslin formalaşdırılmasına mütəşəkkil, məqsədyönlü rəhbərlik tərbiyə prosesi adlanır. Bu tərbiyəyə verilən ümumi tərifdir. Konkret olaraq isə tərbiyə olunanda həyata düzgün münasibət formalaşdırmaq, cəmiyyətin müəyyən etdiyi əxlaq normaları və davranış qaydalarına yiyələndirmə işi tərbiyə adlanır (Əliyeva, 2004, s. 50). Buradan aydın olur ki, bu gün cəmiyyətin gözləntiləri yalnız akademik uğurla yox, eyni zamanda şəxsiyyətin sosial və mənəvi yetkinliyi ilə ölçülür.

Klassik pedaqoji yanaşmalarda “tərbiyə” anlayışı həm geniş, həm də dar mənada istifadə olunur. Geniş mənada tərbiyə insanın şəxsiyyətinə cəmiyyətin bütün təsir mexanizmlərinin daxil olduğu, nəsildən-nəslə ötürülən bilik, təcrübə, sosial dəyərlər və davranış qaydalarının formalaşması prosesi kimi başa düşülür (Əliyev, 2023, s. 32). Bu yanaşma tərbiyənin formal təlimdən kənarda-ailə, sosial mühit və gündəlik münasibətlər vasitəsilə də həyata keçdiyini göstərir. Bu baxımdan tərbiyə yalnız pedaqoji deyil, eyni zamanda bəşəri və tarixi bir prosesdir.

Dar mənada isə tərbiyə pedaqoqların və müəllimlərin konkret məqsədlə apardığı fəaliyyət kimi anlaşılır. Burada məqsəd şagirdin müəyyən xüsusiyyətlərinin, məsələn, yaradıcılıq qabiliyyətinin, əməksevərlik və məsuliyyət hissinin inkişafına yönəlmiş məqsədyönlü təsir sistemidir (Əliyev, 2023, s. 33, 53).

Tərbiyənin mahiyyəti insanın ətraf mühitlə, yəni Vətən, cəmiyyət, insanlar, təbiət və maddi-mənəvi dəyərlərlə qurduğu münasibətdə özünü göstərir. Bu münasibət tərbiyənin həm fərdi, həm də ictimai xarakter daşıyan bir proses olduğunu göstərir (Rüstəmov, 2006, s. 11).

İctimai-iqtisadi quruluş dəyişdikcə tərbiyənin məqsədi də dəyişir. Müasir dövrdə inkişaf etmiş demokratik ölkələrdə tərbiyənin əsas məqsədi hərtərəfli inkişaf etmiş insanlar

yetişdirməkdir. Hərtərəfli inkişaf etmiş şəxsiyyət yüksək intellektual səviyyəyə malik, əxlaqi keyfiyyətlərə yiyələnmiş, istehsalın əsas sahələri haqqında biliklərə və əmək vərdişlərinə sahib, gözəlliyi qiymətləndirə bilən, ictimai-siyasi hadisələrə obyektiv qiymət verən, dövlət və şəxsi hüquqlar haqqında məlumatlı və onları müdafiə edə bilən şəxsiyyətdir (Əliyeva, 2004, s. 28-29).

Tərbiyə prosesində şagird yalnız təsirə məruz qalan obyekt deyil, eyni zamanda bu təsirə cavab verən fəal subyektdir. Bu baxımdan tərbiyə qarşılıqlı münasibətlərə əsaslanan dialoqlu bir prosesdir. Tərbiyə cəmiyyətdəki sosial münasibətlərin tənzimləyicisi kimi çıxış edir, insanın özünü reallaşdırmasına və ideallarına çatmasına şərait yaradır (Əliyev, 2023, s. 34).

Tərbiyə fasiləsiz, mərhələli və sistemli şəkildə həyata keçirilən, məqsədyönlü və ardıcıl şəkildə insan şəxsiyyətinin formalaşmasına yönəlmiş mürəkkəb bir prosesdir. Onun əsas məqsədi cəmiyyət üçün vətəndaşlıq məsuliyyəti daşıyan, mənəvi baxımdan sağlam və fəal şəxslər yetişdirməkdir.

Tərbiyə yalnız fərdi deyil, ictimai xarakter daşıyır və bu prosesə cəmiyyətin bütün təbəqələri-ailə, məktəb, sosial mühit və ictimai qurumlar cəlb olunur. Bu fikir tərbiyənin təkcə şagirdin deyil, bütövlükdə cəmiyyətin gələcəyini formalaşdıran güclü vasitə olduğunu göstərir. Bu baxımdan tərbiyə geniş sosial hadisə kimi çıxış edir və zamanla dəyişərək inkişaf edir (ARTİ, 2023, s. 6).

Hüseynzadəyə (2010, s. 8-11) görə tərbiyə ikitərəfli, mürəkkəb və uzun zaman tələb edən bir prosesdir. O, eyni zamanda sosial bir hadisədir və milli mənsubiyyətlə sıx bağlıdır. Tərbiyə işi hər bir xalqın tarixi, mədəniyyəti və ənənələri üzərində formalaşaraq milli xarakter daşıyır.

F. Rüstəmovun fikrincə, tərbiyənin əbədiliyi onun dəyişməzliyini deyil, dinamik və tarixi bir proses olduğunu göstərir. O, cəmiyyətin inkişafına uyğun olaraq öz məzmun və formalarını yeniləyir (Rüstəmov, 2001, s. 4).

Tərbiyə işi həm milli, həm də ümumbəşəri maraqları əhatə etməli, eyni zamanda hər bir xalqın milli-mənəvi dəyərlər sisteminə söykənməlidir. Bu isə tərbiyənin həm milli xarakter daşıdığını, həm də ümumbəşəri ideallara xidmət etdiyini göstərir (ARTİ, 2023, s. 8).

Müasir pedaqoji yanaşmaya görə tərbiyə prosesi müəllimlə şagirdin birlikdə fəaliyyəti ilə həyata keçirilir. Burada müəllim və şagird qarşılıqlı əməkdaşlıq edən fəal tərəfdaşlar kimi çıxış edirlər. Bu qarşılıqlı əməkdaşlıq şəraiti şagirdin tərbiyə prosesinə passiv deyil, aktiv iştirakçı kimi qoşulmasını təmin edir. İbrahimov və Hüseynzadəyə (2012, s. 262-265) görə bu proses iki istiqamətdə aparılır: tərbiyəçidən tərbiyə olunana yönələn birbaşa təsir və tərbiyə olunandan gələn əks-əlaqə. Tərbiyə prosesinin effektivliyi əsasən bu əks-əlaqələrin düzgün idarə olunmasından asılıdır.

Tərbiyəvi fəaliyyətlər həm təşkilati, həm də pedaqoji məsələlərin inteqrasiyasını nəzərdə tutur. Burada metod və formaların düzgün seçilməsi və səmərəli tətbiqi əsas şərtdir. N.M. Talançukun fikrincə, pedaqoq ilk olaraq tərbiyə prosesindəki öz funksiyalarını dərk etməli və bu prosesdə hansı vəzifələri yerinə yetirəcəyini tam başa düşməlidir (Əliyev, 2023, s. 37).

Tərbiyə prosesi yalnız əxlaqi və ideya-siyasi tərbiyə ilə məhdudlaşmır, eyni zamanda əqli tərbiyə, estetik tərbiyə, əmək tərbiyəsi, fiziki tərbiyə, hüquq, iqtisadi və ekoloji tərbiyə sahələrini də əhatə edir. Bu istiqamətlər şəxsiyyətin ahəngdar formalaşmasına xidmət edir və müasir cəmiyyətin tələblərinə uyğun gənclər yetişdirmək baxımından əvəzsizdir.

Z.İ.Qaralovun fikrincə, tərbiyə metodları yalnız fərdi deyil, bütöv cəmiyyətin inkişaf perspektivlərini nəzərə alaraq seçilməli və tətbiq edilməlidir. Bu metodlar tərbiyənin məzmunu, formaları və vasitələri ilə üzvi surətdə bağlıdır (ARTİ, 2023, s. 33). Bu bağlılıq tərbiyə prosesində təsadüfi yanaşmaların deyil, sistemli və məqsədyönlü metod seçiminin nə qədər vacib olduğunu göstərir.

Tərbiyə işi öz formalarına görə olduqca zəngin və müxtəlif, zaman baxımından isə daim dəyişən, inkişaf edən bir prosesdir. Bu iş tərbiyə prosesinin strukturunu, onun daxili elementlərini və tərbiyə edənlə tərbiyə olunan arasında formalaşan münasibətləri əks etdirir. Məhz bu qarşılıqlı əlaqələr tərbiyə prosesinin təşkilində əsas meyar kimi çıxış edir.

Rus pedaqoqu N.V. Savinin fikrincə, tərbiyə anlayışı yalnız əxlaqi təsir prosesi deyil, həm də təlim və təhsili əhatə edən, böyüyən nəslin həyata hazırlanmasını təmin edən genişmiqyaslı bir prosesdir. Onun sözləri ilə desək, tərbiyə cəmiyyətin tələblərinə uyğun şəkildə insan şəxsiyyətinin formalaşmasının məqsədyönlü və sistematik idarə olunmasıdır (ARTİ, 2023, s. 189). Pedaqoqun fikirləri tərbiyənin yalnız fərdi deyil, eyni zamanda sosial məsuliyyət daşıyan bir proses olduğunu vurğulayır.

A.S. Makarenkonun pedaqoji sisteminin mərkəzində isə kollektivdə, kollektiv vasitəsilə, kollektiv üçün tərbiyə dayanırdı. O, kollektivin təsadüfi bir insan yığını deyil, ortaq məqsədə xidmət edən, məsuliyyət hissi daşıyan fərdlərin birliyi olduğunu bildirirdi (İbrahimov və Hüseynzadə, 2012, s. 157). Bu məsələ xüsusilə məktəb mühitində aktualdır. Belə nəticə çıxır ki, kollektiv əsaslı tərbiyə uşaqlarda həm empatiya, həm də ictimai məsuliyyət hissini gücləndirir.

Tərbiyə olunanlarla aparılan hər bir tərbiyəvi işlərdə onların yaşlarının, fiziki və psixoloji inkişaflarının xüsusiyyətləri nəzərə alınmalıdır. Hər yaşda insanların inkişaf səviyyəsinə uyğun maraq dairəsi, qavrama qabiliyyətləri, təbiət və cəmiyyət hadisələrinə müxtəlif münasibətləri mövcud olur. Tərbiyə ilə məşğul olan hər kəs tərbiyələndirmə fəaliyyətində mütləq bu xüsusiyyətləri nəzərə almalıdır (Əliyeva, 2004, s. 54). Bu mənada şagirdə eyni proqram və

üsulla yanaşmaq əvəzinə, onun fərdi ehtiyac və potensialına uyğun yanaşma daha effektiv nəticə verir.

J.J. Russo tərbiyənin psixoloji əsaslara söykənməsini vacib hesab edərək uşağın yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınmasını zəruri sayırdı. Onun "təbii tərbiyə" ideyasına görə tərbiyəçi uşağı yaxşı tanımalı, ona hörmətlə yanaşmalı və onu mənfi təsirlərdən qorumalıdır. Bu fikrə əsaslanaraq demək olar ki, tərbiyəçi yalnız müəllim deyil, həm də psixoloji dəstək göstərən bir şəxs olmalıdır. Bu münasibət tərbiyədə güvənin əsas rol oynadığını göstərir. Russoya görə ideal tərbiyə uşağın təbii inkişafına uyğun şəkildə, məcburiyyət olmadan həyata keçirilməlidir (İbrahimov və Hüseynzadə, 2012, s. 143-144).

Əliyev, Əzizova, Hüseynzadə və Verdiyeva (2021, s. 287) da vurğulayır ki, sinif rəhbəri şagirdlərin fərdi xüsusiyyətlərini öyrənməli, onların temperament tiplərinə uyğun olaraq işləri planlaşdırmalıdır. Tərbiyə işinin effektiv olması üçün bu cür fərdi yanaşma çox vacibdir.

Ə.X. Paşayev və F.A. Rüstəmov tərbiyə işlərinin planlaşdırılmasında məqsədin müəyyənləşdirilməsinin vacibliyini bildirir. Tərbiyə işinin məqsədi müəyyənləşdirildikdən sonra fəaliyyətin istiqamətinin müəyənləşdirilməsi və iştirakçılar arasında vəzifələrin düzgün bölüşdürülməsi vacibdir (Paşayev və Rüstəmov, 2010, s. 291) Təcrübədə də müşahidə olunur ki, məqsədi dəqiq müəyyən olunmamış tərbiyə fəaliyyəti adətən təsirsiz qalır. Bu baxımdan planlaşdırma mərhələsi tərbiyə işinin əsasını təşkil edir.

Effektiv tərbiyə fəaliyyəti müəllimdən yüksək pedaqoji bacarıq və peşəkarlıq tələb edir. Zamanın çağırışları və cəmiyyətin dəyişən ehtiyacları müasir müəllimin qarşısında daha məsuliyyətli və kompleks vəzifələr qoyur (Azadlı, 2011, s. 2).

Müasir ümumi təhsil müəssisələrində tərbiyə işinin məzmunu milli-mənəvi dəyərlərlə yanaşı, ümumbəşəri dəyərlərə əsaslanmalıdır (ARTİ, 2023, s. 230). Bu vəhdət müasir dövrdə şagirdin həm yerli cəmiyyətə, həm də qlobal dünyaya açıq, məsuliyyətli fərd kimi formalaşmasına zəmin yaradır.

V.A. Karakovskiyə görə ümuminsani dəyərlər təlim-tərbiyə prosesinin əsasını təşkil edir. O, tərbiyəçiləri şagirdlərin torpaq, vətən, ailə, əmək, biliklər, mədəniyyət, dünya və insan kimi dəyərləri mənimsəmələri üçün şərait yaratmağa çağırır (Əliyev, 2023, s. 157).

K.D. Uşinski isə tərbiyənin vətənpərvərlik, xalq sevgisi, vəzifə hissi, əqidə sabitliyi, əməksevərlik, düzgünlük və intizam kimi əxlaqi keyfiyyətlərin aşılanması ilə müşayiət olunmasını vacib hesab edirdi (İbrahimov və Hüseynzadə, 2012, s. 156.). Bu yanaşma tərbiyənin yalnız intellektual deyil, mənəvi tərəfinə də ciddi önəm verildiyini göstərir. Bununla da əxlaq dəyərlərinin möhkəmləndirilməsi uşağın davranışında dayanıqlı modelin yaranmasına səbəb olur.

Tərbiyə o zaman effektiv hesab olunur ki, insanı öz davranışı üzərində düşünməyə məcbur etsin. Düşündürücü və nəzarətçi xarakter daşıyan bu proses insana özünü yenidən tərbiyə etmək üçün istiqamət verir. Özünü dərk etmək və mənfi keyfiyyətlərini görmək isə özünütərbiyənin ilkin mərhələsidir. Bu mərhələdə insan özünü dəyişmək, mənfi xüsusiyyətlərdən qurtulmaq üçün iradi güc və səy göstərməlidir. Yəni insan özünü yenidən formalaşdırmaq istədikdə müəyyən lazımi davranışları məcburi olaraq icra etməyə çalışır ki, bu da şəxsiyyətin inkişafında mühüm rol oynayır.

Tərbiyənin digər mühüm xüsusiyyəti onun özünütərbiyə və yenidəntərbiyə ilə sıx əlaqəli olmasıdır. Özünütərbiyə insanların daxili səyləri ilə sıx bağlıdır və daxili səy insanın psixi inkişaf səviyyəsinə uyğun formalaşır. İnsan öz psixi inkişafına nəzarət etməyə başladığı andan etibarən özünütərbiyə prosesi də başlanır. Buna görə də şüurlu özünütərbiyə adətən yetkinlik dövründən başlayır. Bu dövrdə insan artıq özündə yeni əxlaqi keyfiyyətlər yaratmağa, onları inkişaf etdirməyə çalışır. Bu xüsusiyyət isə tərbiyəni özünütərbiyədən fərqləndirən əsas cəhətdir-tərbiyədə təsir xaricidirsə, özünütərbiyədə təsir insanın daxili iradəsindən qaynaqlanır (Əliyeva, 2004, s. 64). Fikrimcə, bu ayırd etmə tərbiyə prosesinə nəzarətin və fərdin öz inkişafına şüurlu yanaşmasının zəruriliyini ortaya qoyur.

Özünütərbiyə şəxsiyyətin şüurlu şəkildə özünüinkişaf etməsi prosesidir. Özünütərbiyə və özünüinkişaf eyni anlayışlar deyil. Özünüinkişaf insanın şüurundan asılı olmayan obyektiv bir prosesdir, amma özünütərbiyə şüurlu və məqsədyönlü şəkildə özünü dəyişdirmə prosesidir. Şagird yaş ötdükcə özünüinkişafdan özünütərbiyəyə keçir və öz "Mən"ini inkişaf etdirmək üçün yeni yollar axtarır (Bayramov, 1981, s. 58-73). Bu fikirdən belə nəticəyə gəlmək olar ki, şəxsiyyətin formalaşmasında məhz özünütərbiyə əsas rol oynayır, çünki burada insan artıq təsirləri yalnız qəbul etmir, həm də özünü dəyişdirmək üçün qərarlar verir və bu istiqamətdə real addımlar atır.

Tərbiyə yalnız yeni və müsbət keyfiyyətlərin formalaşdırılması ilə məhdudlaşmır. Eyni zamanda artıq formalaşmış mənfi vərdişlərin və zərərli xüsusiyyətlərin aradan qaldırılması, yəni yenidəntərbiyə də onun mühüm bir istiqamətidir. Əgər uşağın tərbiyəsi vaxtında düzgün şəkildə aparılmazsa, sonradan onu yenidən tərbiyə etmək lazım gəlir ki, bu da olduqca çətin, uzunmüddətli və mürəkkəb bir prosesə çevrilir (İbrahimov və Hüseynzadə, 2012, s. 269; ARTİ, 2023, s. 11). Xüsusilə uşaqlıq dövründə düzgün istiqamət verilmədikdə sonradan həmin davranışları dəyişmək üçün daha çox səy və sistemli pedaqoji yanaşma tələb olunur. Buna görə də tərbiyə işi zamanında, planlı və məqsədyönlü şəkildə aparılmalı, uşağın inkişafında gecikmiş müdaxilələrə yol verilməməlidir.

Tərbiyə prosesinin xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onun nəticələri çox zaman dərhal nəzərə çarpmır və ya ümumiyyətlə, uzun müddət bəlli olmaya bilər. Bəzən illərlə

aparılan pedaqoji fəaliyyətin təsiri yalnız illər sonra, müəyyən bir dövrdə üzə çıxır (İbrahimov və Hüseynzadə, 2012, s. 268). Bu fikir tərbiyənin səbir və strateji baxış tələb etdiyini göstərir. Tərbiyə prosesində nəticəyə tez çatmaq məqsədindən daha çox, davamlı təsirə yönəlmək daha sağlam yanaşmadır.

### 1.2. Dəyər anlayışı haqqında ümumi məlumat

Dəyərlər insanı digər canlılardan fərqləndirən əsas cəhətlərdən biridir. Təhsil insanlarda demokratik davranış və inanc formalaşdıraraq onları yaxşı vətəndaş kimi yetişdirmək məqsədi daşıyır (Deveci və Ay, 2009, s. 168). Bunun üçün fərdin çoxşaxəli inkişafı xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda şagirdlərin davranış və münasibətlərinin formalaşmasında mühüm rola malik olan dəyərlər onların sağlam psixoloji və sosial inkişafına da yardım edir (Arıkan, 2011, s. 5).

Dəyərlər insanı formalaşdıran, həyatına məna qatan, cəmiyyət içində davranışlarını istiqamətləndirən, yaxşı ilə pisi, doğru ilə yanlışı ayırd etməyə kömək edən, milli mədəniyyəti yaşadan əvəzolunmaz əsaslardır (Salmanova, 2022, s. 91; Hatay Uçar və Çetinkaya, 2021, s. 276). Bu meyarlar vasitəsilə insanlar müəyyən hadisə və anlayışlara münasibətlərini formalaşdırırlar (Məmmədov, 2021, s. 64). Ülger və Dombaycıya (2015, s. 118) görə insanın dəyərlərdən uzaq yaşaması mənəvi boşluğa, ümidsizliyə və əxlaqdan uzaq bir həyat tərzinə səbəb olur. Bu isə insanın öz inanc və məqsədlərindən uzaqlaşması kimi qəbul edilir (Dilmaç, 2007, s. 4).

Dəyərlər həyatın dini, iqtisadi, siyasi, sosial, ideoloji və fəlsəfi sahələrində aparıcı anlayışlar kimi çıxış edir. Müxtəlif sosial, mədəni və dini qruplar dəyərləri ölçü vahidi kimi qəbul edərək insan davranışlarını və düşüncə tərzini qiymətləndirirlər. Eyni zamanda dəyərlər motivasiyaedici funksiya daşıyaraq fərdi təşviq edən təsir vasitəsinə çevrilir. Buna görə də dəyərlərin fərdi davranışda həm şüurlu, həm də qeyri-ixtiyari formada təzahürlərini müşahidə etmək mümkündür. Dəyərlər fərdi təcrübə və sosial mühitlə qarşılıqlı şəkildə formalaşaraq insanın məqsəd və maraqlarına istiqamət verir, gündəlik davranışlarda və sosial münasibətlərdə əks olunur (Məmmədov, 2021, s. 64).

XX əsrdən etibarən elmin və texnologiyanın sürətli inkişafı ilə yaranan problemlər cəmiyyətə mənfi təsir göstərməyə başlamışdır. Artan sosial gərginlik, zorakılıq, cinayətkarlıq, terror, intihar, oğurluq, narkotik vasitələrin istifadəsi, dözümsüzlük, məsuliyyətsizlik və hörmətsizlik kimi neqativ hallar həm cəmiyyəti, həm də gəncləri təsirləndirir. Müasir dövrdə dəyərlərin deformasiyası ilə üzləşən cəmiyyət bu vəziyyəti insanların müəyyən mənəvi normalara uyğun tərbiyə olunmaması ilə əlaqələndirir (Aladağ, 2012, s. 124). Qloballaşma ilə

birlikdə meydana çıxan sosial dəyişikliklər dəyərlər təliminin əhəmiyyətini artırmış, bir çox ölkədə bu istiqamətdə təhsil siyasətinə düzəlişlər edilmişdir (Arıkan, 2011, s. 3).

Dəyərlər sistematik şəkildə müxtəlif qruplara bölünür:

– **Ali dəyərlər** (həqiqət, ədalət, hikmət və s.) insanı vicdani və mənəvi kamilliyə aparır.

– **Mədəni dəyərlər** (azadlıq, məsuliyyət, bərabərlik, təhlükəsizlik və s.) cəmiyyətin möhkəmlənməsinə və ahəngdar inkişafına xidmət edir;

– **Əxlaqi dəyərlər** (dürüstlük, səbir, yaxşılıq və s.) şəxslərarası münasibətlərin möhkəmlənməsini və sosial sabitliyi təmin edir.

- **Dünyəvi dəyərlər** (səmimiyyət, ədalət, məsuliyyət, intizam, əməksevərlik, bərabərlik və hörmət) universal xarakter daşıyır.
- **Milli dəyərlər** xalqın dilini, dinini, adət-ənənələrini, ailə modelini, incəsənətini, musiqisini, mətbəxini və ümumilikdə milli kimliyini əks etdirir (Məmmədov, 2021, s. 65). Bu mənada dəyərlər mədəniyyətə mənalı struktur qazandıran əsas meyardır (Qurbanov, 2020, s. 3).

Cəmiyyətdə bu dəyərlər ya qorunaraq nəsildən-nəslə ötürülür, ya da laqeyd münasibət nəticəsində zamanla unudulur. Tarix boyu universal səciyyə daşıyan liderlik, dürüstlük, məsuliyyət, yardımsevərlik və ədalət kimi dəyərlər fərdi ideal şəxsiyyətə yönəltmişdir (Topal, 2019, s. 246).

Antik dövrdə Platonun Yaxşı həyat nədir? sualı ilə başlatdığı dəyərlər haqqında müzakirələr sonradan Skinner, Dyui, Piaje və Kolberq kimi tədqiqatçılar tərəfindən davam etdirilərək dəyərlərin formalaşması və inkişafını araşdırmışdır (Berkowitz və Puka, 2009, s. 116).

Akbaş (2008, s. 10) qeyd edir ki, dəyərlər fərdlərə nəyi önəmli hesab etməyi, nəyi seçməyi və ümumilikdə necə yaşamalı olduqlarını göstərir. Kirschenbaumun (1994) fikrincə, dəyərlər təlimi insanlara daha mənalı və qaneedici həyat qurmağa kömək edir və bu prosesdə başqalarına yardım etmə əsas məqsədlərdən biri olur (Ulusoy, 2010, s. 34).

İnsanlar cəmiyyətin qayda-qanunları, adət-ənənələri və ümumi davranış modelləri vasitəsilə yaxşı-pis və doğru-səhv anlayışlarını mənimsəyir, həmçinin öz mənəvi dəyərlərinə əsaslanaraq bu anlayışlar əsasında ölçü meyarı formalaşdırırlar (Yazıcı, 2006, s. 501; Halstead və Taylor, 2000, s. 169). Bu ölçü meyarı zamanla insanın mənimsədiyi və inandığı fikir və etiqadlar toplusunu, yəni dəyərlər sistemini meydana gətirir.

Dəyərləri daha sistemli tədqiq etmək məqsədilə müxtəlif təsnifatlar aparılmışdır. Ən geniş yayılmış təsnifatlar Nelson, Rokeach, Spranger və Schwartz tərəfindən təqdim edilmişdir (Yazıcı, 2006 s. 501).

Nelson dəyərləri üç əsas qrupa ayırır: fərdi, qrup və sosial dəyərlər (Aydın, 2011, s. 41). Fərdi dəyərlər şəxsi seçimlərimizə, gündəlik həyatdakı hobbilərimizə və alış-veriş vərdişlərimizə yönəlik olur. Qrup dəyərləri isə ailə, dini və ya siyasi birlik kimi müəyyən bir qrupun paylaşdığı dəyərlərdir. Sosial dəyərlər ədalət, hörmət, bərabərlik kimi prinsipləri əhatə edir və insanın cəmiyyətdə funksional olaraq mövcudluğunu təmin edir. Sosial dəyərlərin təhlilində sosiallaşma, sosial şüur və norma anlayışları istifadə olunur (Akbaş, 2004, s. 19; Koca, 2009, s. 64).

**Cədvəl 1.2.1. R.Nelsona görə dəyərlərin təsnifatı**

| | |
|---|---|
| **Fərdi dəyərlər** | Şəxsin seçimləri və fərdi maraqları əsasında formalaşan dəyərlərdir. İnsanların şəxsi üstünlüklərinə uyğun davranış və qərarlarla əlaqəlidir. |
| **Qrup dəyərləri** | Müəyyən sosial və ya ideoloji birliyə mənsub olan insanlar tərəfindən paylaşılır. Bu, ailə, dini icma, siyasi təşkilat kimi qruplar ola bilər. |
| **Sosial dəyərlər** | Cəmiyyətin harmoniyasını təmin edən və ictimai münasibətləri tənzimləyən ədalət, hörmət, bərabərlik kimi prinsiplərdir. Normativ sistemlər və ictimai şüur əsasında formalaşır. |

Spranger dəyərləri altı qrupa ayırır: elmi, iqtisadi, estetik, sosial, siyasi və dini dəyərlər (Aydın, 2011, s. 42). Elmi dəyərlər obyektiv bilik və təhlilə önəm verir. İqtisadi dəyərlər faydalılığı və praktikliyi ön planda tutur. Estetik dəyərlər gözəllik, harmoniya və formaya diqqət yetirir. Sosial dəyərlər başqalarına sevgi və yardımı, yalnız özünü düşünməməyi vurğulayır. Siyasi dəyərlər güc və nüfuza yönəlir. Dini dəyərlər isə kainatla əlaqəni və mənəvi bütövlüyü əsas götürür (Akbaş, 2004, s. 30-31; Kale, 2015, s. 5).

Spranger'in 1928-ci ildə hazırladığı bu təsnifat tədqiqatların əsasını təşkil etmiş və fərdlərin dəyər anlayışlarını daha dəqiq şəkildə öyrənmək imkanı yaratmışdır.

**Cədvəl 1.2.2. E.Sprangerə görə dəyərlərin təsnifatı**

| | |
|---|---|
| **Elmi dəyərlər** | Rasional düşüncə, təcrübəyə əsaslanma və analitik yanaşma əsas götürülür. |
| **İqtisadi dəyərlər** | Əşyalar və hadisələr fayda baxımından qiymətləndirilir. |
| **Estetik dəyərlər** | Gözəllik, harmoniya və formaya önəm verilir. |
| **Sosial dəyərlər** | İnsanlara sevgi və qayğı göstərməyin, eqoist olmamağın vacibliyi vurğulanır. |
| **Siyasi dəyərlər** | Güc, nüfuz və təsir imkanları ilə bağlıdır. |
| **Dini dəyərlər** | İnsanın kainatla bir bütöv kimi var olması və dini anlayışlarla əlaqəlidir. |

Bir çox tədqiqatçı, o cümlədən Schwartz, Rokeach (1973), Kluckhohn (1951), Lawrance (1985) və Hofstede (1980) dəyərləri fərqli vəziyyətlər və ya davranış formaları arasında seçim etmə meyli kimi izah etmişlər (Koca, 2009, s. 1). Schwartz dəyərləri həm fərdi, həm də mədəni müstəvidə tədqiq edir (Bilsky və Schwartz, 1994, s. 167). Fərdi səviyyədə dəyərlər insanın həyatına istiqamət verən prinsiplər kimi, mədəni səviyyədə isə ictimai norma və ümumi idealları əks etdirən mücərrəd anlayışlar kimi təhlil olunur. Bu ikili yanaşma fərdi səviyyədəki motivasiyaların mədəni səviyyədə eyni cür əks olunmaması ehtimalına əsaslanır (Kağıtçıbaşı və Kuşdil, 2000, s. 60-61).

**Cədvəl 1.2.3. S.Schwartza görə dəyərlərin təsnifatı**

| | |
|---|---|
| **Güc** | Cəmiyyətdə status və nüfuz sahibi olmaq, sosial mövqeyi qorumaq |
| **Müvəffəqiyyət** | Nailiyyət qazanmaq, məqsədyönlü və əzmkar olmaq |
| **Həzz** | Həyatdan zövq almaq |
| **Həvəs** | Macəralı və dəyişkən həyat yaşamaq, yeni təcrübələrə açıq olmaq |
| **Özünü idarəetmə** | Müstəqil və yaradıcı olmaq, şəxsi azadlığa və özünə hörmətə önəm vermək |
| **Dünyəvilik** | Ədalət, bərabərlik, təbiətlə və gözəlliklərlə harmoniyada olmaq |

| | |
|---|---|
| **Xeyirxahlıq** | Başqalarına qarşı mərhəmətli və səmimi olmaq |
| **Ənənəvilik** | Ailə və dini dəyərlərə sadiq qalmaq, böyüklərə hörmət etmək |
| **Uyğunluq** | Davranışda nəzakətli və uyğun olmaq, ictimai qaydalara riayət etmək |
| **Təhlükəsizlik** | Cəmiyyətdə və ailədə sabitlik və təhlükəsizliyi təmin etmək |

Rokeach isə dəyərləri iki qrupa ayırmışdır: məqsəd və vasitə dəyərləri (Bilsky və Schwartz, 1994, s. 165). Məqsəd dəyərləri həyatın əsas məqsədlərini göstərir, vasitə dəyərləri isə bu məqsədlərə çatmaq üçün göstərilən davranışlardır (Akbaş, 2004, s. 55; Emre və Yapıcı, 2015, s. 334).

**Cədvəl 1.2.4. M.Rokeacha görə dəyərlərin təsnifatı**

| | |
|---|---|
| **Məqsəd dəyərləri** | İnsanların həyatlarının məqsədləri ilə bağlı olan arzulardır. Məsələn: sülh, xoşbəxtlik, azadlıq, daxili harmoniya, ictimai qəbul, bərabərlik, dostluq |
| **Vasitə dəyərləri** | Həyatda məqsədlərə çatmaq üçün vacib olan davranış xüsusiyyətləridir. Məsələn: dürüstlük, mərhəmət, müstəqillik, intellektual olmaq, məsuliyyət daşımaq və yaradıcı olmaq |

Dəyərlər fərdi fərqləri, arzu edilən və edilməyən davranışları, müqəddəs sayılan bilik və anlayışları, müxtəlif mədəniyyət yanaşmalarını izah etmək üçün əhəmiyyətli bir anlayışdır. Eyni zamanda dəyərlər insan həyatının istiqamətini müəyyən edən əsas prinsiplər kimi təyin edilə bilər. İnsan qəbul edilmiş dəyərləri, ənənələri, inancları öyrənir və bu dəyərlərə uyğun davrandıqda cəmiyyətdə qəbul olunan bir fərd olduğunu düşünür (Yılmaz və Tortop, 2018, s. 13).

Şəxsiyyətin formalaşmasında dəyərlərin rolu əvəzsizdir. Dəyərlərin qorunması cəmiyyətin sağlam inkişafı və fərdlər arasında harmonik münasibətlərin qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Dəyərlər insanın seçimlərinə və bu seçimləri dəyərləndirmə

prosesinə istiqamət verən əsas meyar kimi çıxış edir. Onlar həmçinin fərdlərin bir-birinə qarşı davranış və emosional münasibətlərini də müəyyənləşdirir. Buna görə də fərdlərin və müxtəlif mədəniyyətlərin dəyərləri haqqında məlumat əldə etmək onların davranışları və münasibətləri haqqında fikir yürütməyə kömək edir (Kale, 2015, s. 22).

## 1.3. Azərbaycanın qanunvericilik sənədlərində dəyərlərin əksi

Dəyərlərin təlimi insanın davranış və münasibət formalarının tədricən formalaşmasına xidmət edən məqsədyönlü və sistemli bir prosesdir. Bu prosesin başlıca məqsədi cəmiyyət üçün faydalı olan, mənəvi baxımdan zəngin və müsbət xüsusiyyətlərə malik şəxsiyyətlərin formalaşdırılmasıdır. Dəyərlərin insan həyatına aşılanması bütün inkişaf mərhələlərində vacib olsa da, xüsusilə uşaqlıq və yeniyetməlik dövrlərində daha təsirli və həlledici hesab olunur. Bu mərhələlərdə aparılan düzgün tərbiyə prosesi nəticəsində insanlarda sevgi, dostluq, məsuliyyət, mərhəmət, hörmət, xeyirxahlıq, zəhmətkeşlik və dürüstlük kimi əsas əxlaqi keyfiyyətlər möhkəmlənir və şəxsiyyətin ayrılmaz hissəsinə çevrilir.

Müasir dövrdə müşahidə olunan bir çox sosial problemlərin əsas səbəblərindən biri kimi dəyərin aşılanmasının zəif təşkil olunması göstərilə bilər. Bu cür hallar təkcə bizim cəmiyyətimizdə deyil, dünya miqyasında da rast gəlinir və onların kökündə eyni səbəb dayanır. Dəyərlərin düzgün şəkildə aşılanmaması nəticəsində insanlar arasında mənəvi boşluq, saxtakarlıq, əmək intizamının pozulması, şəxsi və ictimai məsuliyyət hissinin zəifləməsi, narkomaniya, intihar hallarının artması və ekoloji problemlərin dərinləşməsi kimi neqativ nəticələr ortaya çıxır.

Təhsil isə cəmiyyətin inkişafında mühüm rol oynayan, rifahın və sosial sabitliyin təminində əsas vasitə hesab olunur. Bu baxımdan dəyərlərin mənimsədilməsinin təhsil sistemi ilə inteqrasiya olunması şəxsiyyətin formalaşmasında və cəmiyyətə uyğun fərdlərin yetişdirilməsində təyinedici rol oynayır. Təhsil yalnız bilik verməklə kifayətlənməməli, eyni zamanda insanlarda etik davranış və mənəvi dəyərlər də formalaşdırmalıdır. Bu məqsədlə proqram və dərsliklər hazırlanarkən dəyərlərə xüsusi yer ayrılması vacibdir. Azərbaycan Respublikasının dövlət sənədlərində də bu məsələyə diqqət yetirilir.

“Azərbaycan Respublikasının Konstitusiyası” 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunmuş və ölkənin ali hüquqi sənədi kimi fəaliyyətə başlamışdır. Konstitusiya dövlətin quruluşunu, vətəndaşların əsas hüquq və azadlıqlarını, idarəetmə sistemini və ictimai münasibətlərin əsas hüquqi çərçivəsini müəyyənləşdirir. Həmçinin bu sənəd cəmiyyətin əsas dəyərlərini-insan hüquqları, azadlıq, bərabərlik, tolerantlıq və hüquqi dövlət prinsiplərini müəyyən edən əsas normativ bazadır.

7-ci maddədə Azərbaycan dövlətinin “demokratik, hüquqi, dünyəvi, unitar respublika” olduğu vurğulanır (Azərbaycan Respublikasının Konstitusiyası, 1995). Hüquqi dövlət anlayışı artıq özü-özlüyündə ədalət, hüquqi şüur, məsuliyyət, insan hüquqlarına hörmət kimi dəyərləri ehtiva edir. Dövlətin demokratik olması fərdi azadlıqların, tolerantlığın və çoxtərəfliliyin təminatı deməkdir.

Konstitusiyanın 12-ci maddəsində “insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi” kimi müəyyən olunur (Azərbaycan Respublikasının Konstitusiyası, 1995). Bu maddənin tərbiyəvi baxımdan əhəmiyyəti ondadır ki, uşaqlarda erkən yaşdan insan hüquqlarına hörmət və sosial ədalət anlayışı formalaşdırıla bilər.

Konstitusiyanın 25-ci maddəsində hər kəsin qanun və məhkəmə qarşısında bərabər olduğu bildirilir. Bu maddə bərabərlik, ədalət, diskriminasiyanın yolverilməzliyi, tolerantlıq və hörmət dəyərlərini ön plana çıxarır. Hər bir fərdin bərabər hüquqa malik olması hüquqi və sosial ədalətin əsas şərtidir.

26-cı maddədə hər kəsin hüquq və azadlıqlarını müdafiə etmək hüququ olduğu qeyd olunub. Burada özünümüdafiə, fərdi məsuliyyət və hüququn qorunması kimi dəyərlər ifadə olunur.

34-cü maddə ailəni cəmiyyətin əsas nüvəsi hesab edir. Bu maddə ailə dəyərləri, məsuliyyət, hörmət, sevgi və qayğı, əxlaqi dəyərlərin Konstitusiya səviyyəsində tanındığını göstərir.

42-ci maddəyə əsasən, “hər bir vətəndaşın təhsil almaq hüququ vardır” (Azərbaycan Respublikasının Konstitusiyası, 1995). Burada bilik, inkişaf, bərabərlik və maariflənmə dəyərləri təbliğ olunur.

Həmçinin 43-cü maddədə “hər kəsin mənzil hüququ” qeyd olunur ki, bu da sosial ədalət və rifah dəyərlərini əks etdirir (Azərbaycan Respublikasının Konstitusiyası, 1995).

Konstitusiyanın 44-46-cı maddələrində milli mənsubiyyət, dil, mədəni irs, şərəf və ləyaqət kimi anlayışlar qorunur. Bu maddələr milli kimlik, mədəni dəyərlərə hörmət və insan ləyaqəti kimi əsas prinsipləri tənzimləyir.

71-ci maddədə isə bütün hüquqların dövlət tərəfindən qorunması təmin edilir, hüquqi təminat, azadlıq, insan ləyaqəti, qanun qarşısında bərabərlik kimi dəyərlər önə çəkilir.

“Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu” 19 iyun 2009-cu ildə qəbul edilmiş və Azərbaycan təhsil sisteminin hüquqi əsaslarını, prinsiplərini, məqsəd və istiqamətlərini müəyyən edir. Qanunun məqsədi təhsilin ümumi strukturunu formalaşdırmaqla yanaşı, insan kapitalının inkişafı və milli-mənəvi dəyərlərin təhsil vasitəsilə cəmiyyətə ötürülməsini təmin etməkdir (Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, 2009). Bu sənəd təhsilin

yalnız bilikvermə funksiyasını deyil, həm də şəxsiyyətin sosial və etik inkişafını təmin edən vasitə olduğunu təsdiq edir.

Qanunun 4-cü maddəsində dövlətin təhsil siyasətinin prinsipləri sırasında insan hüquqlarına hörmət, demokratiklik, humanizm və vətəndaşlıq tərbiyəsi kimi dəyərlər qeyd olunur. Bu prinsipial yanaşma təhsil sisteminin yalnız bilik ötürmək funksiyası daşımadığını, həm də şəxsiyyətin dəyərlərlə formalaşmasına yönəldiyini göstərir.

6.2. bəndində vurğulanır ki, dövlət təhsil standartları hazırlanarkən milli və ümumbəşəri dəyərlər əsas götürülür. Bu, təhsilin yalnız bilikvermə deyil, həm də dəyəryönümlü şəxsiyyət formalaşdırma funksiyasını təsdiqləyir. Beləliklə, təhsil sistemi həm milli kimliyi qoruyur, həm də qlobal dəyərlərlə uzlaşmanı təmin edir.

Qanunun 19.13. bəndində qeyd olunur ki, ümumi orta təhsilin məqsədi yalnız akademik biliklərlə məhdudlaşmır, həm də şagirdlərdə dövlətə sədaqət, milli və ümumbəşəri dəyərlərə hörmət, insan hüquqlarına bağlılıq və sağlam həyat tərzi kimi dəyərlərin formalaşdırılmasını hədəfləyir. Bu isə təhsilin şəxsiyyətin mənəvi, sosial və vətəndaş məsuliyyətli inkişafına yönəldiyini göstərir.

33.3.3 və 33.3.4-cü bəndlərdə təhsilverənlərin vəzifələrinə vətənpərvərlik, azərbaycançılıq, hüquqi şüur, mədəni irsə hörmət, milli və ümumbəşəri dəyərlərə sadiqlik kimi dəyərlərin formalaşdırılması daxildir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2013-cü il 24 oktyabr tarixində təsdiq olunmuş “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda da dəyərlərin önəmi xüsusi vurğulanır. Bu strateji sənəd təhsilin keyfiyyətli və dəyərlər əsaslı inkişafını təmin etməyə yönəlmişdir (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013).

Təhsilin məqsədi təkcə yüksək akademik göstəricilərə sahib insan yetişdirmək deyil. Eyni zamanda təhsil fərdin düşüncə qabiliyyətinin inkişafı ilə yanaşı, mənəvi və əxlaqi keyfiyyətlərini də formalaşdırmalıdır. Bu mənada təhsilin əsas vəzifələrindən biri vətəndaş məsuliyyəti və mənəvi dəyərlərlə zəngin şəxsiyyətin yetişdirilməsidir. Strategiyada yer alan təhsil sisteminin 4 başlıca vəzifələrindən 2-si birbaşa olaraq dəyərlərlə bağlıdır:

-“ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

-məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

-milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq;

-sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq" (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013).

Vəzifələri nəzərdən keçirdiyimiz zaman təhsil sistemində vətəndaşlıq, humanizm, milli kimlik, əməkdaşlıq və hüququn qorunması kimi dəyərlərin aşılanması prioritet olaraq müəyyən edilir. Bu isə onu göstərir ki, Azərbaycan təhsil siyasətində dəyərlərin sistemli şəkildə tətbiqi və onların konkret nəticəyə yönəlməsi məqsəd kimi qəbul olunmuşdur.

Mədəniyyət dedikdə insan cəmiyyətinin tarixi inkişafı nəticəsində yaranan və nəsildən-nəslə ötürülən maddi və mənəvi dəyərlər sistemi nəzərdə tutulur. Bu aspektdən yanaşdıqda dövlət sənədləri arasında dəyərlər anlayışını əhatə edən mühüm sənədlərdən biri kimi Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası xüsusi önəm daşıyır.

"Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamı ilə təsdiqlənmişdir. Konsepsiyanın məqsədi Azərbaycanın mədəni inkişaf strategiyasını formalaşdırmaq, milli-mədəni kimliyin qorunması və inkişaf etdirilməsi üçün zəruri hüquqi, institusional və konseptual çərçivə yaratmaqdır (Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası, 2014).

Konsepsiyanın əsas missiyası Azərbaycanın mədəniyyətini daxili və xarici təhlükələrdən qorumaq, mədəniyyət hüquqlarını təmin etmək və ölkənin mədəni irsini qlobal səviyyədə tanıtmaq və inkişaf etdirməkdir. Maddi və qeyri-maddi irs nümunələrinin beynəlxalq hüquq normalar çərçivəsində qorunması, bərpası və təbliği əsas istiqamətlərdəndir (Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası, 2014).

Konsepsiyanın məzmununda mədəniyyətin qorunması və onun davamlı, yüksək səviyyədə inkişaf etdirilməsi məqsədilə strateji istiqamətlərin müəyyənləşdirilməsi, mədəniyyət sahəsinin idarə edilməsində müasir idarəetmə modellərinin tətbiqinin önəmi, eləcə də bu məqsədlərə çatmaq üçün zəruri tədbirlərin həyata keçirilməsinin aktuallığı vurğulanır (Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası, 2014).

“Mədəni irsin qorunması” başlığı altında verilən müddəalar dəyərlər anlayışı üçün olduqca vacibdir. Bu hissədə vurğulanır ki, hər xalqın mədəni irsi onun milli-mənəvi dəyərlərini əks etdirir və bu irs xalqı dünyada tanıdan əsas vasitələrdən biridir. Bu səbəbdən tarixi və mədəni abidələrin bərpası, qorunması, muzey və kitabxana sistemlərinin yenilənməsi, elektron kitabxanaların yaradılması və xalq yaradıcılığının dəstəklənməsi vacib hesab olunur.

Burada tarixə və milli irsə hörmət, mədəni müxtəlifliyə dəyər vermək, vətəndaş məsuliyyəti, təhsilə və biliyə çıxış bərabərliyi kimi dəyərlər ön plana çıxır. Belə tədbirlər gələcək nəsillərin bu irsdən faydalana bilməsi üçün də çox önəmlidir.

Digər tərəfdən Azərbaycanın işğal olunmuş ərazilərindəki mədəniyyət nümunələrinin dağıdılmasına qarşı beynəlxalq hüquqa əsaslanan tədbirlərin görülməsi hüquqi şüur, ədalət və mədəni mülkiyyətə hörmət kimi dəyərlərin müdafiəsinə yönəlib.

Bu sənəddə bir xalqın kimliyini qorumaq və gələcək nəsillərə çatdırmaq üçün dəyərlərin-hörmət, məsuliyyət, ədalət, tolerantlıq, vətənpərvərlik və başqalarının mədəniyyətinə anlayışla yanaşmanın nə qədər vacib olduğu göstərilir (Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası, 2014). Bunu deməyə əsas var ki, mədəni dəyərlərin qorunması yalnız keçmişə hörmət deyil, həm də gələcəyin sağlam mənəvi təməl üzərində qurulması üçün əsas şərtdir.

“Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir. Bu sənədin əsas məqsədi ömürboyu təhsil konsepsiyasına uyğun olaraq milli təhsil sisteminin bütün səviyyələrini əhatə edən vahid kvalifikasiyalar çərçivəsinin yaradılmasıdır. Sənəddə kvalifikasiyaların səviyyələri, bu səviyyələrin nəticələri, bilik, bacarıq və kompetensiyalar üzrə təsviri verilir (Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi, [AzMKÇ], 2018).

Sənədin məzmunu ömürboyu təhsilin təşviqi, təhsil sisteminin əmək bazarının tələbləri ilə uyğunlaşdırılması, şəxsiyyətin inkişafı və peşəkar kompetensiyaların artırılması məqsədlərinə yönəlib (AzMKÇ, 2018).

AzMKÇ konseptual baxımdan Avropa Ali Təhsil Məkanının və Ömürboyu Təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsinin əsas prinsiplərinə uyğun şəkildə hazırlanmışdır. AzMKÇ-də müxtəlif səviyyələr təhsil alan şəxsin əldə etdiyi biliklərin və bacarıqların mürəkkəblik dərəcəsinə görə müəyyən edilir.

Bu səviyyələrin hər biri müəyyən meyarlara əsaslanır və bilik, anlama, müstəqil fəaliyyət və məsuliyyət kimi göstəricilərlə xarakterizə olunur.

AzMKÇ ümumilikdə 8 səviyyədən ibarətdir-1-ci səviyyə ən sadə, 8-ci səviyyə isə ən yüksək bilik və bacarıq tələb edən mərhələ sayılır.

Bu təsvirlərə əsasən, 1-ci səviyyədə (yəni ibtidai təhsil səviyyəsində) aşağıdakı dəyərlər nəzərdə tutulur (AzMKÇ, 2018):

- Vətənpərvərlik: Dövlət dili, xalqın tarixi, mədəniyyəti, incəsənəti haqqında ilkin biliklər və bununla bağlı müsbət münasibət formalaşdırılır.
- Milli kimlik: Milli adət və ənənələrin tanıdılması ilə uşaqlarda milli mənsubiyyət hissi inkişaf etdirilir.
- Mənəvi dəyərlər: Din, adət-ənənə və mədəni irslə bağlı anlayışların verilməsi mənəvi zənginliyin əsasını qoyur.
- Hörmət: Ənənələrə, milli simvollara və digər insanlara hörmət hissi təlqin olunur.
- Əməkdaşlıq və sosial uyğunlaşma: Qrup daxilində əlaqələr və qarşılıqlı münasibətlər haqqında təsəvvürlər bu dəyəri dəstəkləyir.
- Fərdi məsuliyyət: Qrup daxilindəki vəzifələrin bölüşdürülməsi və yerinə yetirilməsi ilə məsuliyyət hissi formalaşdırılır.
- Ünsiyyət mədəniyyəti: Şifahi və qeyri-şifahi ünsiyyət formalarının tanıdılması uşaqlarda qarşılıqlı anlaşma və empatiya kimi insani keyfiyyətləri inkişaf etdirir.
- Tolerantlıq: Fərqli fikirlərə, fərqli şəxsiyyətlərə qarşı anlayış və hörmət duyğusu yaranır.
- Məsuliyyət, intizamlılıq: Şagirdin öz fəaliyyətinə və öhdəliklərinə qarşı məsuliyyətli, intizamlı münasibətini formalaşdırır.
- Sağlamlıq, özünə qayğı, məsuliyyətlilik: Şagirdə sağlamlığının qorunması və möhkəmləndirilməsi məsuliyyəti mənimsədilir.
- Ədalət, ekoloji şüur və başqalarına qayğı: İnsanlara, təbiətə və əməyə, həmçinin şəxsi və ictimai mülkiyyətə ədalətli şəkildə yanaşmaq aşılanır.
- Hüquqi şüur, başqasının hüquqlarına hörmət: Özünün və digər insanların hüquqlarına hörmət dəyəri vurğulanır.

Bu dəyərlərin erkən yaş mərhələsində öyrədilməsi uşaqlarda həm şəxsiyyətin formalaşmasına, həm də məktəb həyatına uğurlu inteqrasiya olunmasına şərait yaradır. Bu baxımdan ibtidai təhsil səviyyəsi tərbiyə işinin əsas dayağıdır.

**Cədvəl 1.3.1. Azərbaycan Respublikasının əsas normativ sənədlərində vurğulanan dəyərlər**

| Sənədin adı | Əsas vurğulanan dəyərlər |
| --- | --- |
| **Azərbaycan Respublikasının Konstitusiyası** | Ədalət, hüquqi şüur, məsuliyyət, insan hüquqlarına hörmət, tolerantlıq, bərabərlik, humanistlik, hörmət, özünümüdafiə, hüququn qorunması, ailə dəyərləri, sevgi və qayğı, əxlaqi dəyərlər, milli kimlik, mədəni dəyərlərə hörmət, qanun qarşısında bərabərlik, azadlıq |
| **Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu** | İnsan hüquqlarına hörmət, demokratiklik, humanistlik, milli dəyərlər, ümumbəşəri dəyərlər, sağlam həyat tərzi, fərdi və ictimai məsuliyyəti, vətənpərvərlik, azərbaycançılıq, hüquqi şüur, mədəni irsə hörmət |
| **Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası** | Məsuliyyət, demokratiklik, milli ənənələrə hörmət, insan hüquq və azadlıqlarına hörmət, azərbaycançılıq, vətəndaşlıq, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər, əməkdaşlıq, hüququn qorunması, humanistlik, milli kimlik |
| **Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası** | Milli-mənəvi dəyərlər, tarixə hörmət, milli irsə hörmət, mədəni müxtəlifliyə hörmət, fərdi məsuliyyət, bərabərlik, hüquqi şüur, ədalət, mədəni mülkiyyətə hörmət, tolerantlıq, vətənpərvərlik, milli kimlik |
| **Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi** | Vətənpərvərlik, milli kimlik, mənəvi dəyərlər, hörmət, əməkdaşlıq, fərdi məsuliyyət, ünsiyyət, empatiya, tolerantlıq, intizamlılıq, sağlamlıq, özünə qayğı, məsuliyyətlilik, ədalət, ekoloji şüur, başqalarına qayğı, hüquqi şüur, hüquqlara hörmət |

## 1.4. UNESCO-nun təklif etdiyi dəyərlər

Tədqiqatlar göstərir ki, uşağın formalaşmasında rol oynayan və həyatı boyunca davam edən davranış və dəyəryönümlü yanaşmaların əsasları erkən yaş dövrlərində qoyulur. Uşaqlar məktəbəqədər dövrdə şəxsiyyətlərinin təməl strukturunu həm idrak, həm də emosional baxımdan formalaşdırmağa başlayırlar. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) təqdim etdiyi təhsil vizyonu insan hüquqları, ləyaqət, sosial ədalət, inklüzivlik, mədəni müxtəliflik və ortaq məsuliyyət kimi fundamental dəyərlər üzərində qurulmuşdur. Bu yanaşma təhsilin və inkişafın insanmərkəzli modelinə əsaslanır. Burada əsas prinsiplər kimi yalnız bilik vermək deyil, insan hüquq və ləyaqətinə hörmət, sosial ədalətin təmin olunması, cəmiyyətin bütün üzvlərinin iştirakına şərait yaradılması, mədəni, dil və etnik müxtəlifliyin tanınması və təşviqi, habelə kollektiv məsuliyyət və cavabdehlik anlayışı ön plandadır (UNESCO, 2015, s. 7, 24).

UNESCO tərəfindən erkən uşaqlıq mərhələsində dəyərlər təhsilinin əhatə etməli olduğu əsas məzmun istiqamətləri aşağıdakı yeddi başlıq altında cəmlənmişdir:

- Özünə və başqalarına hörmət, əməkdaşlıq bacarıqlarının formalaşdırılması və münaqişələrin sülh yolu ilə həlli;
- Mədəni müxtəlifliyə hörmət, qlobal vətəndaşlıq və multikultural dəyərlərin təbliği;
- Uşaq Hüquqları Konvensiyasının prinsiplərinə əsaslanaraq universal dəyərlərin aşılanması;
- Mədəni zorakılığın (televiziya, kino, oyuncaqlar vasitəsilə yayılma) uşaqların mənəvi inkişafına təsirinin azaldılması;
- Təbiətə sevgi və hörmətin aşılanması;
- Yaradıcılıq və təsəvvürün təşviqi vasitəsilə fərdi inkişafın dəstəklənməsi;
- Multikultural proqramlar vasitəsilə dini və dünyəvi dəyərlərin inteqrasiyası və fərqli mədəni-mənəvi təcrübələrə malik uşaqların bir araya gəlib təcrübə qazanmalarının təmin edilməsi (UNESCO, Living Values, 2000, s. 3).

Sadalanan istiqamətlərdən aydın olur ki, uşağın təhsil mühiti nə qədər əhatəli və çoxşaxəli olsa, onun dəyərləri qavrama prosesi də bir o qədər effektiv olur.

UNESCO tədris proqramlarında aşağıdakı əsas dəyərlərin mənimsədilməsini tövsiyə edir:

- Dayanıqlı inkişaf və sağlam həyat tərzi
- İnsan hüquqları
- Gender bərabərliyi
- Sülh və qeyri-zorakılıq mədəniyyəti
- Qlobal vətəndaşlıq

- Mədəni müxtəlifliyə və mədəni irsin dayanıqlı inkişafa töhfəsinə hörmət

Bu dəyərlər 2030-cu ilə qədər əldə olunması nəzərdə tutulan "Təhsildə Dayanıqlı İnkişaf Məqsədi 4" sənədinin əsas hissəsidir (UNESCO, 2015, s. 21). Bu cür yanaşma təhsilin yalnız bilik ötürən sistem deyil, həm də ümumbəşəri dəyərləri yaşadan və gücləndirən sosial institut olduğunu ortaya qoyur.

UNESCO-nun dəyərlər təliminə dair layihələrinin proqram istiqamətləri "Dəyərlərin tədrisinə dair Fəaliyyət Çərçivəsi"nin əsasını təşkil edir və müxtəlif təşkilatların erkən uşaqlıq dövrünə dair öz dəyərləryönümlü proqram və təşəbbüslərini planlaşdırarkən istifadə edə biləcəkləri ümumi tövsiyələr kimi nəzərdə tutulub. Ümumi məqsəd isə dəyərlərin erkən uşaqlıq proqramlarına və xidmətlərinə inteqrasiyası üçün fərqli hədəf qruplarının (dövlət siyasətçiləri, ictimai liderlər, təlimçilər, valideynlər, ailələr, uşaqlar və s.) iştirakı ilə vahid və əlaqələndirilmiş bir çərçivənin formalaşdırılmasıdır (UNESCO, Living Values, 2000, s. 6). Buradan belə nəticə çıxarmaq olar ki, uşaqlara dəyərlərin mənimsədilməsində uğur əldə etmək üçün yalnız pedaqoqlar deyil, bütövlükdə cəmiyyət aktiv iştirakçıya çevrilməlidir.

Əsas məqsəd və vəzifələr bunlardır:

- Üzv dövlətlərə, təhsil işçilərinə və valideynlərə dəyərlərlə bağlı konkret fəaliyyətlərə dair praktik istiqamətlər təklif etmək;
- Uşaqlar üçün fiziki, sosial-emosional və mənəvi inkişafı dəstəkləyən dəyər əsaslı mühitin yaradılmasına şərait yaratmaq;
- Təşkilatlar və fərdi şəxslər üçün dəyərlərin erkən uşaqlıq proqramlarında necə təqdim olunması, inteqrasiya və tətbiq edilməsi ilə bağlı fikir mübadiləsi, öyrənmə və anlaşma imkanları təmin etmək (UNESCO, Living Values, 2000, s. 4).

UNESCO (2000, s. 3) görə hər bir uşağın təhsil alma hüququ olduğu və bu mərhələnin onun öyrənmə potensialını maksimum səviyyəyə çatdırmaq üçün həlledici olduğu vurğulanır. Bu, təhsildə inklüzivlik və insan hüquqlarına əsaslanan yanaşmanın göstəricisidir.

Bütün erkən uşaqlıq proqramlarının etibar, hörmət, ayrı-seçkiliyin olmaması və sülh şəraitində böyümək hüququ kimi əsas dəyərlər üzərində qurulması vacib hesab olunur. Bu, uşaqların mənəvi və sosial baxımdan sağlam inkişafına zəmin yaradır.

UNESCO (2015, s. 8) vurğulayır ki, keyfiyyətli təhsil təkcə akademik bacarıqları deyil, həm də fərdlərin sağlam və mənalı həyat sürməsi üçün zəruri olan dəyərləri, münasibətləri və psixososial bacarıqları inkişaf etdirir. Dəyərlərin mənimsədilməsi şəxsi və ictimai məsuliyyət, analitik və problem həll etmə bacarıqları, ictimai münasibətlər, fərdi inkişaf və qlobal çağırışlara cavab vermə qabiliyyəti üzərində qurulur.

Keyfiyyətli təhsilin əsas məqsədlərindən biri fərdin həyatını şüurlu şəkildə idarə etməsinə, cəmiyyətin və dünyanın sosial-iqtisadi problemlərinə cavab verməsinə imkan yaradan dəyər və bacarıqların formalaşdırılmasıdır (UNESCO, 2015, s. 33). Buna əsaslanaraq demək olar ki, təhsil prosesində dəyərlərin formalaşdırılması sadəcə sosial adaptasiya yox, həm də vətəndaş yetişdirməyin əsas yoludur.

Tərbiyəçilər uşaqlar üçün sevgi dolu, təhlükəsiz, anlaşma və hörmətə əsaslanan mühit yaratmalıdırlar. Aşağıdakı meyarlar belə bir mühitin göstəriciləri hesab olunur:

- Böyüklərin dəyərləri öz davranışları ilə nümunə göstərmələri (məsələn, sülhsevər və hörmət dolu ünsiyyət);
- Uşaqlarla qarşılıqlı əlaqədə sevildiklərini, dəyərli olduqlarını və başa düşüldüklərini hiss etdirmək;
- Fərqliliklərin və müxtəlif mədəniyyətlərin qəbul edilməsi və qiymətləndirilməsi;
- Qaydaların aydın olması və şiddət olmadan intizamın tətbiq edilməsi;
- Səhvlərin öyrənmə fürsəti kimi dəyərləndirilməsi (UNESCO, Living Values, 2000, s. 4).

Sadalanan xüsusiyyətlər təlim mühitində emosional təhlükəsizliyin və qarşılıqlı inamın vacib olduğunu bir daha sübut edir.

Uşaqların dəyərləri mənimsəmə prosesi zamanla baş verir. Onlar fərqli dövrlərdə və müxtəlif sosial, mədəni, oyun və öyrənmə fəaliyyətləri kontekstində bu dəyərləri tədricən qavrayır və öyrənirlər. Tədris proqramlarında dəyərlərin məzmunu belə təqdim olunur:

- Ümumbəşəri dəyərlər-ləyaqət, hörmət, sülh və sevgi;
- Dəyərlərin öyrədilməsi üçün müzakirələr, hekayələr, rollu oyunlar və yaradıcı fəaliyyətlər;
- Dəyərlərin oyun, musiqi və hərəkət vasitəsilə aşılanması;
- Əyləncəli fəaliyyətlər, mahnılar, rəqslər və hərəkətli oyunlar vasitəsilə dəyərlərin mənimsədilməsi;
- “Sakit olma” (quietly being) üsulları ilə uşağın daxili aləmini dəyərlərlə tənzimləmək;
- Psixososial bacarıqlar və bu bacarıqların digər uşaqlarla və böyüklərlə təcrübədə tətbiqi (UNESCO, Living Values, 2000, s. 4).

Həmçinin dəyərlərin aşılanmasında ailə strukturunun uşağın həyatında və öyrənməsində əsas rol oynadığı vurğulanır. Ailənin təhsil prosesinə inteqrasiyası və onun dəstəklənməsi uşağın mənəvi və emosional inkişafında həlledici faktor kimi çıxış edir (UNESCO, Living Values, 2000, s .4-5). Buradan belə qənaətə gəlmək olar ki, ailə təhsilin birinci pilləsidir və burada formalaşan dəyərlər məktəb mühitində daha da möhkəmləndirilir.

### 1.5. Dəyərlərin tədrisində istifadə olunan üsullar

Müasir dövrdə artıq yalnız akademik biliklə uğur qazanan fərdlərin yetişdirilməsi yetərli sayılmır. Əksinə, emosional cəhətdən də inkişaf etmiş, ictimai və şəxsi dəyərlərin şüurunda olan fərdlərin formalaşdırılması əsas hədəf kimi qəbul edilir.

Əksər cəmiyyətlərdə müşahidə olunan əxlaqi dəyərlərin aşınması, cinayət səviyyəsinin artması, zorakılıq meyillərinin yayılması, ictimai etinasızlıq və sosial deqradasiya kimi mənfi hallar cəmiyyətləri və fərdləri çıxış yolları axtarmağa məcbur edir. Bu axtarışda əsas həll yolu kimi əxlaqi dəyərlərin aşılanması önə çəkilir. Bu baxımdan təhlükəsiz və sülh dolu bir cəmiyyətdə yaşamaq arzusunda dəyər təliminə olan ehtiyacın önəmi açıq şəkildə görünür (Kesgin, 2015, s. 118).

Ailədə başlayan bu prosesin məktəbdə və cəmiyyətdə davam etdirilməsi, eyni zamanda bütün ictimai və sosial tərəfdaşların bu sahədə məsuliyyət daşıması zərurəti yaranıb. Demokratik cəmiyyətlərdə ailə ilə yanaşı, məktəblərə də gələcək nəsillərə əsas dəyərlərin ötürülməsi baxımından mühüm vəzifələr düşür (Doğanay və Sarı, 2004, s. 359). Bu nöqtədə isə məktəb mühitində müəllimin rolu xüsusi əhəmiyyət daşıyır (Emirhan, 2019, s. 1). Bu səbəbdən müəllimlərin dəyərlər təlimi yanaşmalarını, metod və texnikalarını dərindən bilməsi vacib sayılır, xarakter və dəyərlər təliminin praktik fəaliyyətlərlə dəstəklənməsi və şagirdlərin dəyərləri mənimsəyəcəyi mühitlərin yaradılmasının əhəmiyyəti vurğulanır (Aktepe, 2014, s. 20; Akbaş, 2008, s. 9).

Akbaş (2004, s. 74) da məktəblərin əsas vəzifələrini şagirdlərə dəyərləri öyrətmək, onların əxlaqi inkişafına töhfə vermək, xarakter və özünüdərk hissini müsbət istiqamətdə formalaşdırmaq kimi sadalayır.

Kaymakcan ve Meydana (2014) görə insanın zehni və təfəkkür qabiliyyətinin inkişafı, hiss və iradəsinin gücləndirilməsi, fiziki inkişafı, ümumiyyətlə, təhsil yolu ilə mümkün olsa da, ağıl və bədən bacarıqlarının insanlıq və varlıq üçün xeyirli istiqamətdə istifadəsi üçün dəyər və əxlaq təliminə də ehtiyac var (sitat gətirilib: Alver ve Kesicioğlu, 2019, s. 156).

Aktepe (2014, s. 22) qeyd edir ki, dəyərlər təlimi əsasən mücərrəd anlayışlardan ibarətdir və bu anlayışların şagirdlər tərəfindən mənimsənilməsi çətin ola bilər. Bu səbəbdən dəyərlərin tədrisində fəaliyyətə əsaslanan yanaşmaların tətbiqi tövsiyə olunur. Eyni zamanda dəyərlər təlimində şagirdlərin marağını qorumaq, müsbət nümunələr üzərindən fəaliyyətləri təşkil etmək, şagirdlərin yaş, qabiliyyət, bacarıq və sosial mühitlərini nəzərə almaq, onlarla dostcasına münasibətlər qurmaq və müəllimin nümunəvi davranış sərgiləməsi dəyər təliminin təsirini artıran amillər kimi göstərilir (Yarar Kaptan, 2015, s. 39).

Ekşi ve Katılmışa (2011) görə dəyər öyrətmə prosesində hekayələr, nağıllar, bioqrafiyalar, videolar və oyunlar kimi vasitələrdən istifadə etmək mühüm rol oynayır (sitat gətirilib: Türk, 2020, s. 191). Lakin Doğanayın (2006) apardığı araşdırmalara görə dəyərlər sadəcə zorla aşılandıqda və onların mənasına kifayət qədər diqqət yetirilmədikdə bu cür tədris uzunmüddətli və davamlı nəticə vermir (sitat gətirilib: Beldağ, Özdemir və Nalçacı, 2017, s. 319).

Aydın və Akyol Gürler (2020) dəyər təlimində istifadə olunan əsas üsul və texnikalara aşağıdakıları daxil etmişdir:

- Proyekt (layihə) əsaslı öyrənmə
- Nümunə hadisə təhlili
- Problem əsaslı öyrənmə
- Təlim oyunları vasitəsilə öyrənmə (məsələn:, qrup oyunları, əgər sən olsaydın nə edərdin? texnikası və s.)
- Müzakirə üsulu (beyin həmləsi, böyük qrup müzakirələri və müsahibə texnikası)
- Dramlaşdırma (rol oynama, canlandırma, gəlincik istifadə etmə, rol dəyişmə)
- Gəzinti və müşahidə üsulu
- Tədqiqat və araşdırmaya əsaslanan öyrənmə
- Əməkdaşlıq əsaslı öyrənmə metodları (komanda oyunları və s.)
- Musiqi, şəkil və foto materiallarından istifadə (sitat gətirilib: Bilir, Genç, 2023, s. 8).

Layihə əsaslı öyrənmə tələbələrin fərdi və ya qrup halında məsuliyyət götürməsini tələb edən, əməkdaşlıqla aparılan layihələrə əsaslanan, şagirdmərkəzli və həm sinifdə, həm də sinifdənkənar fəaliyyətləri əhatə edən bir yanaşmadır (Yavuz, 2006, s. 16). Layihə mövzusunun dərsin məqsədlərinə uyğun olaraq şagirdlərin ətraf mühitindəki problemlərdən seçilməsi vacibdir. Belə problemlər ədalət, məsuliyyət, sevgi, inam, hörmət, tolerantlıq, təmizlik, doğruluq, dürüstlük, fədakarlıq, şəfqət, mərhəmət, paylaşmaq, planlı və intizamlı olmaq, özünə inam və təşəbbüskarlıq, sədaqət kimi dəyərlərlə əlaqələndirilə bilər. Ətraf mühitin təmiz saxlanılması, ortaq vəzifələrin yerinə yetirilməsi, yol hərəkəti qaydalarına riayət edilməsi, məktəbə gecikmə probleminin həlli və küçə heyvanlarına kömək yollarının tapılması kimi mövzular layihə əsaslı öyrənmə vasitəsilə dəyərlərlə birləşdirilə bilər.

Taşpınar (2012) qeyd edir ki, nümunə hadisələr faktiki baş vermiş və ya baş verə biləcək hadisələrdən, yazılı mətnlərdən, filmlərdən, qəzetlərdən, xatirələrdən və müxtəlif kitablardan götürülə bilər. Lakin müəllifin vurğuladığına görə nümunə hadisələrin aktual həyatdan seçilməsi şagirdlərin marağını daha çox cəlb edir (sitat gətirilib: Yeşilyurt, 2019, s. 132). Dərsin məqsədlərinə uyğun olaraq həm hazır nümunələrdən istifadə edilə bilər, həm də şagirdlərin özlərinin hazırladığı nümunə hadisələrdən yararlanmaq mümkündür. Aydın və Akyol Gürler

(2013) müəllimlərin tarix, ədəbiyyat və gündəlik həyatdan götürülən real hadisələri müzakirəyə açmaqla şagirdlərdə əxlaqi düşüncə inkişaf etdirə biləcəyini vurğulayırlar (sitat gətirilib: Yeşilyurt, 2019, s. 132). Karatay (2011) isə bu metodun əsas xüsusiyyətini şagirdlərə hekayə və nümunə hadisələr təqdim edərək onların düşünərək, müzakirə edərək ideal dəyərlərə çatmalarına şərait yaratmaq kimi ifadə edir (sitat gətirilib: Yeşilyurt, 2019, s. 133). Sünbül (2011, s. 304) nümunə hadisə üsulunun başqalarının fikirlərinə hörmət etməyi, Uyanık Balat (2012, s. 271) və Kaya (1996, s. 141) isə əməkdaşlıqla işləməyə təşviq etməyi və empati bacarıqlarını inkişaf etdirməyi təmin etdiyini qeyd edirlər ki, bu da onun dəyərlər təlimində təsirli bir üsul olduğunu göstərir. Beləliklə, nümunə hadisə üsulu Sünbülün (2011, s. 304) qeyd etdiyi kimi emosional sahənin reaksiyavermə, dəyərləndirmə və təşkiletmə mərhələlərindəki davranışların şagirdlərə aşılanmasında olduqca təsirli bir üsuldur.

Problem əsaslı öyrənmə yanaşması çərçivəsində müəllim şagirdə bir problem təqdim edir və onun elmi araşdırma üsullarına əsaslanaraq problemi həll etməsini tələb edir. Müəllim isə şagirdlərə bənzər vəziyyətlərlə qarşılaşdıqları zaman necə davranmalı olduqları barədə istiqamətləndirici izahlar verir, alternativ seçimlərlə bağlı şagirdlərin təcrübə və duyğularını ifadə etmələrinə, başqalarının dəyərlərinə empatiya quraraq yanaşmalarına imkan yaradır. Bundan əlavə, şagirdlərdən verdikləri qərarların düzgünlüyü və ya səhvliyi haqqında mühakimə yürütmələri, sübutlar irəli sürmələri, irəli sürülən alternativlər arasından ən uyğun seçimi etmələri və yeni situasiyalara uyğun qərarlar qəbul etmələri gözlənilir (Uzunöz, Aktepe və Köybaşı, 2018, s. 608). Yeşilyurt (2019, s. 134) problem həll etmənin bütün təhsil pillələrində istifadə edilə bilən və problemin həllində, həll yollarının ümumiləşdirilməsində və sintez edilməsində çox təsirli bir üsul olduğunu qeyd edir. Problem həll etmə üsulunun müsbət cəhətləri sırasında effektiv ünsiyyət və müxtəlif fikirlərə hörmət kimi dəyərlərin tədris prosesinə uyğunluğu da sadalanır. Bu üsul vasitəsilə şagirdlər məntiqi düşünmə, mühakimə və nəticə çıxarma bacarıqları qazanırlar (Aktepe və Tahiroğlu, 2016, s. 369). Bu üsul təklif və nəsihətdən daha təsirli olsa da, həyata keçirilməsi çətin və vaxt baxımından daha çox resurs tələb edir (Türk, 2020, s. 193).

Sel (1995) əyləncəli oyunların təhsildə istifadəsini "tədris oyunu" adlandırır və bu üsul şagirdlərin həm fiziki, həm də zehni inkişafına əhəmiyyətli təsir edir (sitat gətirilib: Yeşilyurt, 2019, s. 130). Tədris oyunları şagirdlərdə məsuliyyət duyğusu yaradır, ünsiyyət bacarıqlarını inkişaf etdirir və şəxsi inkişaflarına müsbət təsir göstərir. Tədris oyunları uşaqlara başqalarına hörmət etməyi, dürüst olmağı və əməkdaşlıq etməyi öyrədir. Əyləncəli oyunların köməyi ilə uşaqlar həm də yaradıcılıq qabiliyyətlərini inkişaf etdirirlər. Sönməzə (2008) görə tədris oyunlarının effektiv olması üçün onların uşağın yaşına, cinsiyyətinə və ümumi əxlaq

prinsiplərinə uyğun olması vacibdir (sitat gətirilib: Yeşilyurt, 2019, s. 130).

Bir mövzu üzərində şagirdlərin düşünməsini təmin etmək, anlaşılmayan məqamları aydınlaşdırmaq və əldə edilən bilikləri möhkəmləndirmək məqsədilə müzakirə üsulundan istifadə olunur. Bu üsul bir və ya bir neçə şəxsin qarşılıqlı danışaraq, bir-birini dinləyərək, tənqid edərək və suallar verərək hər hansı bir mövzunu araşdırmasına əsaslanır. Müzakirə metodu şagirdlərə anlama, analiz və qiymətləndirmə bacarıqlarını, emosional sahədə isə reaksiyavermə və dəyərləndirmə mərhələlərində hədəf davranışları qazandırmaqda təsirlidir. Müzakirə zamanı şagirdlər müxtəlif və oxşar fikirlərlə tanış olur, müxtəlif arqumentləri qavrayır və fərqli fikirlərə hörmət etməyi öyrənirlər (Kocaman, 2020, s. 48). Uyanık Balat (2012, s. 263) isə müzakirə metodunun əməkdaşlığı və məsuliyyəti təşviq etdiyini, habelə tolerantlığı inkişaf etdirdiyini vurğulayır.

Dramlaşdırma üsulu da dəyərlərin tədrisində geniş istifadə olunur. Bu üsul şagirdlərin həm öz, həm də başqalarının duyğu, düşüncə və münasibətlərini tanımasına, əməkdaşlıq etməsinə, empatiya qurmasına və məsuliyyət hissini inkişaf etdirməsinə kömək edir (Sünbül, 2011, s. 308-309). Dramlaşdırma uşaqların sosial bacarıqlarının formalaşması, tolerantlıq və insanlara qarşı həssaslıq inkişaf etdirməsi baxımından da əhəmiyyətlidir (Köksal Akyol, 2003, s. 187).

Öndərə (2012) görə cəmiyyətlərdə cinayət hadisələrinin artması, narkotik maddə istifadəsi və ailə münasibətlərində zəifləmə kimi sosial problemlərin qarşısını almaq üçün insani dəyərlərin tədrisində dramlaşdırma üsulunun rolu xüsusilə önəmlidir. Bu üsulla uşaqlara paylaşmanın, dürüstlüyün, yalanın və digər dəyərlərin mənası daha effektiv şəkildə izah edilə bilər (sitat gətirilib: Yeşilyurt, 2019, s. 129).

Taşpınarın (2012) fikrincə, təhsil prosesində məqsədli və planlı şəkildə məktəbdən kənar mühitə gedilməsi müşahidə üsulu adlandırılır (sitat gətirilib: Yeşilyurt, 2019, s. 129). Sönmez (2008) qeyd edir ki, müşahidə üsulu emosional sahənin dəyərləndirmə və təşkiletmə mərhələləri üçün xüsusilə uyğun hesab edilir (sitat gətirilib: Yeşilyurt, 2019, s. 129).

Karataya (2011, s. 1443) görə dəyəri təlqin etmə metodu şagirdlərə dəyərləri mənimsətmək üçün nümunə hadisələrin təqdim olunması, tarixi şəxsiyyətlərin həyat hekayələrinin nümunə göstərilməsi və bu nümunələr əsasında dəyərlərin şifahi şəkildə təbliğ edilməsi və tövsiyə olunması əsasına dayanır. Aydın və Akyol Gürler (2013) hesab edirlər ki, şagirdlər müşahidə etdikləri fərdlərin dəyər, davranış və münasibətlərini model kimi qəbul edir və öz həyatlarında tətbiq edirlər. Dəyərlər təlimində məktəbdəki bütün heyətin-idarəçi, müəllim, texniki və digər işçilərin rol oynadığı vurğulanır (sitat gətirilib: Yeşilyurt, 2019, s. 129-130). Əgər dərslərdə, məktəb tədbirlərində, milli bayramda təbliğ olunan və vacibliyi vurğulanan dəyərlər real həyatda tətbiq edilməzsə, bu zaman səmimiyyət və qalıcı təsir itir, nəticədə dəyərlər təlimi

sadəcə formal səviyyədə qalır. Bu səbəbdən şagirdin gündəlik həyatında qarşılaşdığı valideynlər, qohumlar, müəllimlər, baxıcılar, servis sürücüləri, televiziya və internet proqramları şagirdlərə dəyərləri yalnız öyrətməklə kifayətlənməməli, bu dəyərləri öz davranışlarında sabit və ardıcıl şəkildə nümayiş etdirməlidirlər.

Məktəb və sinif daxilində aparılan fəaliyyətləri tamamlamaq və onları real həyatla əlaqələndirərək daha mənalı etmək məqsədilə həyata keçirilən sinifdənkənar təlim fəaliyyətlərində ən çox istifadə olunan üsullardan biri də məhz gəzinti və müşahidə texnikasıdır. Altıntaş (2019, s. 89) tərəfindən aparılan araşdırmada qeyd olunur ki, şagirdlərin şəhidlər xiyabanına, qocalar evinə, uşaq sığınacaqlarına, tarixi abidələrə və yardıma ehtiyacı olan ailələrə təşkil olunan səfərləri onların vətənə sevgi, sülh və əmin-amanlıq içində yaşama arzusu, mərhəmət, hörmət, sevgi, dözümlülük və məsuliyyət kimi əxlaqi dəyərləri mənimsəməsində mühüm rol oynamışdır. Bu səfərlər zamanı şagirdlər dəyərləri praktiki fəaliyyət və real təcrübələr vasitəsilə öyrənirlər.

Əməkdaşlığa əsaslanan öyrənmə şagirdlərin bir mövzunu öyrənmək üçün birlikdə çalışdıqları yanaşma kimi təsvir edilir (Kocaman 2020, s. 45). Sünbülün (2011, s. 225) də qeyd etdiyi kimi üzvlərin bir-birinə kömək etməsi əməkdaşlığa əsaslanan öyrənmənin dəyərlər təliminə uyğunluğunu göstərir. Emosional sahənin dəyər və dəyərlər sistemini özündə əksetdirmə mərhələsində isə şagirdin müdafiə etdiyi dəyərləri mənimsəməsi, inancını dəyişməməsi və bu dəyərləri davranış meyarı halına gətirməsi əsas xüsusiyyətlərdəndir.

Müşahidə üsulu emosional sahənin dəyərləndirmə mərhələsinə, eyni zamanda əldə edilən nailiyyətlərin davranışa çevrilməsi, şəxsi dəyərlərlə ziddiyyət təşkil etmədən ardıcıl davranmaq isə təşkiletmə mərhələlərinə uyğun bir üsul kimi qiymətləndirilir.

Dəyərlər təliminə uyğunluq baxımından müzakirə üsulunun emosional sahənin məqbulsayma və reaksiyavermə mərhələlərindəki davranışların qazandırılmasında təsirli olduğu qeyd olunmuşdur. Müşahidə üsulunun isə emosional sahədə dəyərləndirmə mərhələsində daha çox təsirli olduğu müəyyən edilmişdir. Təlim oyunlarının dəyərləndirmə və təşkiletmə mərhələlərindəki davranışların inkişaf etdirilməsində təsirli olduğu bəlli olmuşdur. Dramlaşdırma, nümunə hadisə üsullarının emosional sahənin reaksiyavermə, dəyərləndirmə və təşkiletmə mərhələlərində davranışların inkişafında daha təsirli olduğu müəyyən edilmişdir. Problem həll etmə üsulu isə emosional sahənin bütün mərhələlərində yer alan davranışların istənilən şəkildə inkişafına töhfə verir.

Bütün bunların nəticəsində demək olar ki, dəyərlər təlimində istifadə olunan üsul və texnikalar şagirdlərdə həm idraki, həm də emosional sahələrin inkişafını təmin edir və onların gündəlik həyatda bu dəyərləri tətbiq etmələrinə şərait yaradır.

Dəyərlər təlimində şagirdlərin müəyyən edilmiş dəyərləri qazanması və inkişaf etdirməsi üçün yalnız məktəbdaxili fəaliyyətlər, müəllimlərin, məktəb rəhbərliyinin və digər əməkdaşların dəstəyi yetərli hesab edilə bilməz. Bu prosesi effektiv həyata keçirmək üçün ailələr də məktəbdə aparılan dəyərlər təlimini fəal şəkildə dəstəkləməli və bu istiqamətdə övladlarına ardıcıl və nümunəvi davranış təqdim etməlidirlər.

### 1.6. Dəyərlərin mənimsənilməsində emosional taksonomiyanın rolu

"Taksonomiya" sözü yunan dilindən götürülüb, "taxus" qayda ilə yerləşdirmə və "nomos" qanun deməkdir, yəni "sistemli sıralama" anlamını verir. Əlizadə və Əlizadə (2008, s. 77) bu anlayışı adətən məqsədlərin pilləli və ya sistemli şəkildə təsnif olunması kimi izah edirlər. Təlim məqsədlərinin taksonomiyası ilk dəfə amerikalı psixoloq Benjamin Blum tərəfindən 1956-cı ildə irəli sürülmüşdür.

Blum tərəfindən hazırlanan idraki taksonomiya altı əsas mərhələdən ibarətdir: bilik, anlama, tətbiq, təhlil, sintez və qiymətləndirmə (Bloom, 1956). Bu mərhələlər bir-birini izləyən pillələr şəklində qurulub və sadə düşünmə bacarığından başlayaraq mürəkkəb düşünmə qabiliyyətinə doğru inkişaf edir. Burada bilik, anlama və tətbiq mərhələləri əsas, yəni baza bacarıqları kimi qəbul olunur. Təhlil, sintez və qiymətləndirmə isə daha yüksək səviyyəli düşünmə bacarıqları hesab edilir (Birgin, 2016, s. 841).

Blum taksonomiyası zamanla öyrənmə ilə bağlı yeni yanaşmalar və tədqiqatlar nəticəsində bəzi çatışmazlıqlara görə tənqid olunmuşdur. Bu çatışmazlıqlar əsasən öyrənmənin fərdiliyini və dinamizmini tam əhatə etməməsi, yüksək düşünmə bacarıqlarının ölçülməsində yetərli olmaması və bəzi pillələr arasında aydın iyerarxiyanın olmaması ilə bağlı idi (Ayvacı ve Türkdoğan, 2010, s. 14-15). Bu səbəbdən 1995-2000-ci illər arasında Anderson və Krasvol rəhbərliyində yeni bir taksonomiya hazırlanmışdır (Anderson, Krathwohl, 2001, s. 67-68; Krathwohl, 2002, s. 212). Orijinal formada isimlərlə ifadə olunan bu adlar feil (hərəkət bildirən) formaya çevrilmiş və öyrənmə nəticələri konkret fəaliyyət kimi ifadə edilərək yenidən adlandırılmışdır. Yeni versiyada mərhələlər sadədən mürəkkəbə doğru aşağıdakı ardıcıllıqla təşkil olunub: xatırlamaq, anlamaq, tətbiq etmək, təhlil etmək, dəyərləndirmək və yaratmaq (Krathwohl, 2002, s. 214). Bununla da yeni model əvvəlkindən fərqli olaraq daha çevik və müasir öyrənmə yanaşmalarına uyğunlaşdırılmışdır.

Azərbaycanın görkəmli psixoloqu, professor Əbdül Əlizadə taksonomiya anlayışını araşdıraraq ilk dəfə olaraq üç tərkibdən ibarət taksonomiya modelini formalaşdırmışdır. Hazırda bu yanaşmaya əsasən taksonomiyalar üç əsas istiqamətdə qruplaşdırılır: anlama və düşünmə ilə bağlı idraki (koqnitiv), hiss və münasibətləri əhatə edən emosional (affektiv) və fiziki

bacarıqlarla bağlı psixomotor (hərəki) taksonomiyalar (İsmixanov, İmamverdiyeva və Kərimova, 2022, s. 125).

İdraki taksonomiya şagirdin düşünmə bacarıqlarının inkişaf səviyyələrini mərhələlərlə təsnif edir. Benjamin Blum tərəfindən hazırlanan bu modeldə bacarıqlar sadədən mürəkkəbə doğru ardıcıl şəkildə qurulur. Tədris prosesində bu ardıcıllığa riayət edilməzsə və birbaşa çətin mərhələyə keçilərsə, şagird çətinlik çəkə və motivasiyasını itirə bilər. Buna görə də tədrisdə mərhələlilik və sistemlilik vacibdir. Hər mərhələnin özünəməxsus xüsusiyyətlərini, uyğun fəaliyyət feillərini və həmin mərhələdə şagirdin inkişaf səviyyəsini tanıyıb doğru tətbiq etmək önəmlidir (Abbasov və b., 2019, s. 229).

Affektiv (emosional) taksonomiya, yəni şagirdlərin hiss, münasibət və dəyərlərinin tədricən formalaşmasını əhatə edən mərhələli təsnifat təlim prosesində mühüm yer tutur. Bu model ilk dəfə 1964-cü ildə D. Krasvol tərəfindən hazırlanmış və beş əsas mərhələdə təqdim olunmuşdur. Qronland (2004) hesab edir ki, emosional taksonomiya emosiya və münasibətlərlə bağlı olduğu üçün burada bacarıqları konkret feillərlə dəqiq ifadə etmək çətin ola bilər, çünki bir çox hallarda bu bacarıqlar açıq şəkildə görünmür, yalnız dolayı yollarla müşahidə olunur. Bununla belə, dəyərlər əsasən davranış üzərindən müşahidə olunduğu üçün affektiv taksonomiyada pillələr yüksəldikcə o, digər sahələrlə, yəni idraki və psixomotor bacarıqlar ilə daha sıx şəkildə inteqrasiya olunur.

Psixomotor (hərəki) taksonomiya fiziki bacarıqların pilləli şəkildə inkişafını təsvir edən təsnifat sistemidir. Bu model ilk dəfə amerikalı psixoloq Kennez Mur tərəfindən sistemləşdirilmişdir. Moore (1992) hərəki bacarıqların formalaşmasını üç əsas mərhələyə ayırmışdır: təqlid (imitasiya)-başqasının göstərdiyi hərəkəti təkrarlamaq, idarə (manipulyasiya)-öyrənilmiş hərəkətləri məqsədyönlü şəkildə icra etmək və dəqiq icra-bacarıqları səlis, müstəqil və avtomatlaşdırılmış şəkildə tətbiq etmək. Psixomotor taksonomiyada bu mərhələlərə uyğun olaraq 7 səviyyə fərqləndirilir: hissetmə, hazırolma, təqlidetmə, mexanizmin mənimsənilməsi, mükəmməl icra, uyğunlaşma və yaradıcılıq (ARTİ, 2020, s. 13-14).

Öyrənmə sadəcə məlumatın qəbul edilib işlənməsi ilə məhdudlaşmır. Məlumatın uzunmüddətli yaddaşa ötürülməsi və düşünmə proseslərində fəal şəkildə istifadə olunması üçün emosional tənzimlənmə vacib rol oynayır. Bu kontekstdə Blum taksonomiyasının affektiv sahəsinin təlimdə tətbiqi şagirdlərin motivasiyasını artırmaq, emosional əlaqə yaratmaq və mənimsəməni gücləndirmək baxımından əhəmiyyətlidir (ARTİ, 2022). Emosional bağlılıq olmayan öyrənmədə informasiya daha tez unudula biləcəyinə görə affektiv komponentin nəzərə alınması təlimin effektivliyini artırır.

Məktəbin əsas vəzifələrindən biri də şagirdlərin hiss və iradəsinə təsir edən emosional sahəni inkişaf etdirməkdir. Bu baxımdan müəllimin emosional taksonomiya barədə məlumatlı olması dərslərin səmərəli qurulmasında mühüm rol oynayır. Emosional taksonomiya şagirdlərin duyğularını düzgün ifadə etməsinə, müxtəlif hadisələrə münasibət formalaşdırmasına, dəyərləri qəbul edib mənimsəməsinə və emosional davranışlarını tənzimləməsinə kömək edir (ARTİ, 2020, s. 11-12).

Affektiv (emosional) sahənin təsnifatı aşağıdakı kimidir (Krathwohl, Blum və Masia, 1964, istinad edən: Hoque, 2016, s. 49):

:




**Şəkil 1.6.1. Affektiv sahənin təsnifatı**

Məqbulsayma-Bu mərhələdə fərd emosiyaların, hisslərin və ətraf mühitdəki hadisələrin fərqində olur, diqqətini seçilmiş obyektə yönəldə bilir.

Reaksiyavermə-Bu səviyyədə öyrənən artıq aktiv iştirak nümayiş etdirir. O, verilənlərə qarşı cavab verir.

Dəyərləndirmə-Bu səviyyədə insan hansısa hadisəyə, davranışa və ya məlumata dəyər verir və bunu davranışında göstərir. Bu, sadə bir razılaşmadan tutmuş həmin dəyəri müdafiə etməyə qədər uzana bilər.

Təşkiletmə-İnsan öz dəyərlərini müəyyənləşdirir, onları digər dəyərlərlə müqayisə edərək prioritet sıralaması qurur.

Dəyər və dəyərlər sistemini özündə əksetdirmə-Bu son mərhələdə insanın dəyərləri artıq onun xarakterinə və gündəlik həyatına tam şəkildə daxil olur. Başqa sözlə, dəyərlər davranışına yön verir.

Emosional taksonomiya da digər taksonomiyalar kimi mərhələlidir və bu mərhələlərin formalaşması üçün koqnitiv (anlayışa əsaslanan) inkişaf önəmlidir. Yəni insan hər hansı bir anlayışı mənimsəmədən ona emosional reaksiya verə bilməz. Hər hansı bir hissin (məsələn, nifrət, qorxu və ya sevinc) yaranması onun altında yatan anlayış və dəyərlə bağlıdır.

Təhsildə emosional davranışların inkişafı böyük əhəmiyyət kəsb edir. Şagirdlərə dəyərləri mənimsətməklə onların məsuliyyətli, düzgün qərar verə bilən və cəmiyyətə yararlı vətəndaş kimi yetişməsi təmin olunur. Məsələn, şagirdlərin sinif və ya sinifdənkənar şəraitdə düzgün davranış nümayiş etdirməsi, qaydalara əməl etməsi və başqalarına qarşı məsuliyyət hissi daşıması emosional taksonomiyaya aid davranışlardır.

Xüsusilə Həyat bilgisi fənninin məqsədləri içərisində əsas bacarıqlara yiyələnmək və dəyərləri mənimsəmək yer aldığına görə affektiv sahənin əhəmiyyəti daha da artır. İnsanların düşüncələri, hadisələrə və ətraf mühitə qarşı münasibətləri məhz bu sahədə formalaşır. Bu da göstərir ki, münasibət, inam, dəyər və motivasiya kimi anlayışlar emosional sahənin əsas strukturunu təşkil edir. Bu anlayışlar bir-biri ilə qarşılıqlı əlaqədədir və biri digərini gücləndirə bilər. Emosional taksonomiyanın hər mərhələsi növbətisi üçün zəmin yaradır. Ona görə də bu sahənin məqsədyönlü şəkildə inkişaf etdirilməsi vacibdir.

**Cədvəl 1.6.1. II sinif Həyat bilgisi fənn kurikulumunda "Canlılarda struktur və proseslər" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu**

| Əsas və altstandartlar | Emosional taksonomiyanın səviyyələri |
|---|---|
| **1.1. Canlılarda əsas orqanların yerini, strukturlarını və təşkili səviyyələrini, onların funksiyalarını anlayır.** | |
| 1.1.1. Bədən hissələri və xarici örtüklərinə görə heyvanların oxşar və fərqli cəhətlərini müqayisə edir. | Dəyərləndirmə |
| 1.1.2. İnsan və heyvanların nəsillərini davam etdirmək üçün çoxaldığını izah edir. | Məqbulsayma |
| 1.1.3. Heyvan balalarının böyüdükcə dəyişməsini təsvir edir. | Reaksiyavermə |

| | |
|---|---|
| 1.1.4. Çiçəkli bitkilərin əsas hissələrini sadalayır. | Məqbulsayma |
| 1.1.5. Çiçəkli bitkilərin əsas üzvlərinin funksiyasını təsvir edir. | Reaksiyavermə |
| 1.1.6. Bitkilərin inkişafı üçün lazım olan şəraitləri sadalayır. | Məqbulsayma |

II sinif Həyat bilgisi kurikulumunun “Canlılarda struktur və proseslər” məzmun xəttinin altstandartlarına emosional taksonomiya baxımından nəzər yetirdikdə 5 səviyyədən 3-nə rast gəlinir. Belə ki, **məqbulsayma** səviyyəsi 3 dəfə, **reaksiyavermə** 2 dəfə, **dəyərləndirmə** isə 1 dəfə təmsil olunur. Bu da göstərir ki, şagirdlərin öyrənməyə marağının formalaşdırılması, öyrənilənlərə emosional münasibət bildirməsi və ilkin dəyərləndirmə bacarıqlarının inkişafı bu mərhələdə əsas hədəf kimi götürülmüşdür.

Aparılan təhlilə əsasən, **məqbulsayma səviyyəsi 50%** ilə emosional hədəflər arasında üstünlük təşkil edir. Bu nəticə II sinif şagirdlərində təlimə maraq oyatmaq, diqqətin yönləndirilməsi və ilkin münasibətlərin formalaşdırılmasının kurikulumda əsas götürüldüyünü göstərir. **Reaksiyavermə səviyyəsinin 33.3%** təşkil etməsi, şagirdlərin öyrənmə prosesində aktiv iştirak etməsi və sosial münasibətlərə cavab vermək bacarığının təşviq edildiyini göstərir. **Dəyərləndirmə səviyyəsi isə cəmi 16.7%** olmaqla daha az təmsil olunmuşdur. Bu isə həmin yaş mərhələsində uşaqlarda dəyərlər üzərində dərin düşüncə və əqli mühakimə səviyyəsinin hələ formalaşma mərhələsində olduğunu göstərir. Kurikulumun gələcək pillələrində daha yüksək səviyyəli emosional fəaliyyətlərə-dəyər seçimi, qarşılaşdırma və dəyəri davranışda ifadə etməyə xüsusi yer verilməsi məqsədəuyğun olar.

**Cədvəl 1.6.2. II sinif Həyat bilgisi fənn kurikulumunda “Ətraf mühit və biz” məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu**

| Əsas və altstandartlar | Emosional taksonomiyanın səviyyələri |
|---|---|
| **2.1. Materialların xassələrini başa düşür və onların istifadə sahələrini izah edir.** | |
| 2.1.1. Təbii və təbii olmayan materialları fərqləndirir. | Məqbulsayma |
| 2.1.2. Materialların xassələrini təsvir edir. | Reaksiyavermə |

| | |
|---|---|
| 2.1.3. Materialların istifadə sahələrini izah edir. | Dəyərləndirmə |
| 2.1.4. Materialları elektrik keçiriciliyinə görə fərqləndirir. | Məqbulsayma |
| **2.2. Enerjinin müxtəlif növlərini və enerji çevrilmələrini müəyyən edir.** | |
| 2.2.1. Elektriklə işləyən cihazları müəyyənləşdirir. | Məqbulsayma |
| **2.3. İşığın yayılmasını təsvir edir.** | |
| 2.3.1. İşıq mənbələrini müəyyənləşdirir. | Məqbulsayma |
| 2.3.2. İşığın mənbədən yayılma qanunauyğunluğunu izah edir. | Reaksiyavermə |
| **2.4. Ekosistemlərdə canlılar və onların ətraf mühitlə qarşılıqlı əlaqəsini anlayır.** | |
| 2.4.1. Yaşayış məskənini (habitatı) bitki və ya heyvanın təbii olaraq yaşadığı mühit kimi təsvir edir. | Reaksiyavermə |
| 2.4.2. Heyvan və bitki müxtəlifliyini yaşayış məskənləri ilə əlaqəndirir. | Dəyərləndirmə |
| **2.5. Günəş sistemindəki planetləri və onların Günəşə nəzərən mövqeyini müəyyən edir.** | |
| 2.5.1. Səma cisimlərini tanıyır. | Məqbulsayma |
| 2.5.2. Günəş sistemindəki planetləri sadalayır. | Məqbulsayma |
| 2.5.3. Günəş sistemindəki planetlərin Günəşə nəzərən mövqeyini təsvir edir. | Reaksiyavermə |
| 2.5.4. Yer kürəsini planet kimi təsvir edir. | Reaksiyavermə |

II sinif Həyat bilgisi kurikulumunun “Ətraf mühit və biz” məzmun xəttinə aid altstandartlara emosional taksonomiyanın beş səviyyəsi kontekstində nəzər saldıqda burada üç əsas səviyyəyə-məqbulsayma, reaksiyavermə və dəyərləndirmə səviyyələrinə rast gəlinir. Belə ki, **məqbulsayma** səviyyəsinə 6, **reaksiyavermə** səviyyəsinə 5, **dəyərləndirmə**yə isə 2 altstandartda rast gəlinmişdir. Bu təhlil göstərir ki, II sinif üzrə “Ətraf mühit və biz” məzmun

xəttində əsas vurğu şagirdlərdə ilkin qəbul, tanıma və maraq yaratmağa yönəlmişdir, bu da onların təbiətə və ətraf mühitə qarşı emosional münasibət formalaşdırmasına zəmin yaradır.

Bu nəticələr göstərir ki, "Ətraf mühit və biz" məzmun xətti üzrə altstandartların **təxminən 46%-i məqbulsayma** səviyyəsinə aiddir. Bu da onu deməyə əsas verir ki, kurikulumda şagirdlərin ətraf aləmə ilkin emosional münasibətinin formalaşdırılması və diqqətin yönəldilməsi əsas prioritetdir. **Reaksiyavermə səviyyəsinin 38.5%** təşkil etməsi, uşaqların təbiətə qarşı aktiv münasibət sərgiləməsi, müşahidələrə cavab verməsi və ətraf mühitlə sosial qarşılıqlı əlaqəyə girə bilməsi baxımından əhəmiyyətlidir. **Dəyərləndirmə səviyyəsinin 15.3%** ilə daha az təmsil olunması isə bu yaş mərhələsində uşaqlarda ətraf mühitlə bağlı daha dərin əqli və əxlaqi mühakimələrin hələ formalaşmaqda olduğunu göstərir. Bu da təlim prosesində sadəcə müşahidə və təsviri biliklər deyil, eyni zamanda təbiətə dəyər vermə və onu qoruma davranışlarının inkişaf etdirilməsinin vacibliyini önə çıxarır.

**Cədvəl 1.6.3. II sinif Həyat bilgisi fənn kurikulumunda "Sağlamlıq və təhlükəsizlik" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu**

| Əsas və altstandartlar | Emosional taksonomiyanın səviyyələri |
|---|---|
| **3.1. Gigiyena qaydalarının, sağlam qidalanmanın və fiziki aktivliyin sağlamlığın qorunmasındakı əhəmiyyətini izah edir.** | |
| 3.1.1. İdmanın insan sağlamlığının qorunmasındakı əhəmiyyətini təsvir edir. | Reaksiyavermə |
| 3.1.2. Sağlam qidalanmanın insan sağlamlığının qorunmasındakı əhəmiyyətini izah edir. | Reaksiyavermə |
| 3.1.3. Gün rejimi cədvəlini tərtib edir. | Təşkiletmə |
| **3.2. Məişətdə və gündəlik fəaliyyətdə həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarına əməl edir.** | |
| 3.2.1. Elektrikdən təhlükəsiz istifadə qaydalarını izah edir. | Reaksiyavermə |
| 3.2.2. Elektron cihazların insan həyatında əhəmiyyətini izah edir. | Dəyərləndirmə |

| | |
|---|---|
| 3.2.3. Elektron cihazlardan istifadə edərkən texniki təhlükəsizlik qaydalarına əməl edir. | Dəyərləndirmə |
| 3.2.4. Nəqliyyat vasitələrində təhlükəsizlik qaydalarını izah edir. | Reaksiyavermə |
| 3.2.5. Yol hərəkəti qaydalarını izah edir. | Reaksiyavermə |
| **3.3. Fövqəladə hadisələr zamanı həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarını izah edir.** | |
| 3.3.1. Təbii fövqəladə hadisələri təsvir edir. | Reaksiyavermə |
| 3.3.2. Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır. | Məqbulsayma |
| 3.3.3. Texnogen qəzalar haqqında təsəvvürlərini ifadə edir. | Dəyərləndirmə |
| 3.3.4. Texnogen qəza zamanı davranış qaydalarını izah edir. | Reaksiyavermə |

II sinif Həyat bilgisi kurikulumunun "Sağlamlıq və təhlükəsizlik" məzmun xətti üzrə altstandartlara emosional taksonomiyanın beş səviyyəsi kontekstində nəzər saldıqda dörd səviyyəyə-məqbulsayma, reaksiyavermə, dəyərləndirmə və təşkiletmə rast gəlinir. Belə ki, **məqbulsayma** 1, **təşkiletmə** 1, **dəyərləndirmə** 3, **reaksiyavermə** 7 dəfə əks olunub. Bu göstəricilər sübut edir ki, şagirdlərdə yalnız bilik və məlumatı qəbul etmək deyil, həm də ona emosional münasibət göstərmək, seçim etmək və fərdi davranış formalaşdırmaq kimi bacarıqların inkişafına önəm verilir. Xüsusilə, təhlükəsizlik və sağlam həyatla bağlı mövzularda reaksiyavermə səviyyəsinin çoxluğu bu istiqamətdə şagirdlərin aktiv iştirakını və şüurlu münasibətini təşviq edir.

Aparılmış təhlil göstərir ki, "Sağlamlıq və təhlükəsizlik" məzmun xətti üzrə altstandartlarda emosional taksonomiyanın **reaksiyavermə səviyyəsi (58.3%)** üstünlük təşkil edir. Bu, kurikulumun şagirdlərin yalnız mövzuya emosional münasibət bildirməsinə deyil, həm də təhlükəsizlik və sağlamlıqla bağlı situasiyalara fəal reaksiya verməsinə xüsusi önəm verdiyini nümayiş etdirir. **Dəyərləndirmə səviyyəsinin 25%-lik təmsil olunması** isə bu istiqamətdə ilkin əxlaqi mühakimələrin, sağlam həyat tərzi ilə bağlı davranış seçimlərinin və təhlükəsiz qərarvermə bacarıqlarının inkişaf etdiyini göstərir. **Təşkiletmə və məqbulsayma səviyyələrinin hər biri 8.3%** təşkil edir ki, bu da ilkin qəbul və davranış vərdişlərinin başlanğıc

mərhələdə olduğunu, lakin daha dərin şəxsi dəyərlərin formalaşdırılmasına hələ tam keçid edilmədiyini göstərir.

**Cədvəl 1.6.4. II sinif Həyat bilgisi fənn kurikulumunda "İnsan və cəmiyyət" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu**

| Əsas və altstandartlar | Emosional taksonomiyanın səviyyələri |
|---|---|
| **4.1. İnsanın sosial varlıq olduğunu başa düşür.** | |
| 4.1.1. Ətrafdakı insanların fərqli xüsusiyyətlərinə hörmətlə yanaşır. | Dəyər və dəyərlər sistemini özündə əksetdirmə |
| 4.1.2. Oxuduğu məktəbin strukturu haqqında məlumat verir. | Məqbulsayma |
| 4.1.3. Hər bir fərdin kollektiv daxilindəki vəzifələrinin əhəmiyyətini izah edir. | Reaksiyavermə |
| 4.1.4. Yaxın qohumlarını qohumluq münasibətinə görə tanıdır. | Məqbulsayma |
| 4.1.5. Yaşadığı evin dəqiq ünvanını söyləyir. | Məqbulsayma |
| **4.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | |
| 4.2.1. "Büdcə" anlayışını sadə şəkildə izah edir. | Dəyərləndirmə |
| 4.2.2. Resurslardan qənaətlə istifadənin əhəmiyyətini izah edir. | Reaksiyavermə |
| **4.3. Dövlətçilik barədə biliklərini nümayiş etdirir.** | |
| 4.3.1. Dövlətin əlamətlərini sadalayır. | Məqbulsayma |
| 4.3.2. Milli iftixar hissi ilə əlaqədar fikirlərini ifadə edir. | Reaksiyavermə |
| **4.4. Hüquqi biliklərə malik olduğunu nümayiş etdirir.** | |
| 4.4.1. İnsan hüquqları barədə təsəvvürə malik olduğunu nümayiş etdirir. | Reaksiyavermə |

| | |
|---|---|
| 4.4.2. Məktəbdaxili intizam qaydalarını sadalayır. | Məqbulsayma |
| **4.5. Ünsiyyət mədəniyyətinə riayət edir.** | |
| 4.5.1. Nəzakət qaydalarını sadalayır. | Məqbulsayma |
| **4.6. Mədəni müxtəlifliyə hörmət edir.** | |
| 4.6.1. Multikultural dəyərlərə hörmətlə yanaşır. | Dəyər və dəyərlər sistemini özündə əksetdirmə |
| 4.6.2. Dinlər haqqında sadə təsəvvürləri izah edir. | Reaksiyavermə |

II sinif Həyat bilgisi kurikulumunun "İnsan və cəmiyyət" məzmun xəttinə aid altstandartlara emosional taksonomiya baxımından nəzər saldıqda dörd səviyyəyə rast gəlinmişdir. Belə ki, **dəyərləndirmə** 1, **dəyər və dəyərlər sistemini özündə əksetdirmə** 2, **reaksiyavermə** 5, **məqbulsayma** 6 dəfə özünü göstərmişdir. Bu təhlil göstərir ki, kurikulumda məqbulsayma səviyyəsinin üstünlük təşkil etməsi şagirdlərin sosial mövzulara ilkin marağının və diqqətinin formalaşdırılmasına yönəlib. Bu da onu deməyə əsas verir ki, kurikulum əvvəlcə dəyərlərin fərqinə varma və onları qəbul etmə mərhələsini gücləndirməyə xidmət edir.

Əldə olunan nəticələr göstərir ki, **məqbulsayma (42.9%) və reaksiyavermə (35.7%)** səviyyələri II sinif Həyat bilgisi kurikulumunun "İnsan və cəmiyyət" məzmun xəttində üstünlük təşkil edir. Bu da onu göstərir ki, kurikulumda şagirdlərə sosial mövzuları ilkin mərhələdə tanımaq, qəbul etmək və onlara emosional reaksiya vermək imkanları daha çox yaradılır. Bu yanaşma şagirdlərin dəyərləri sadəcə öyrənməsi yox, həm də onlara münasibət bildirməsi, empati qurması və sosial normativləri mənimsəməsi baxımından önəmlidir. Bununla belə, **dəyərləndirmə səviyyəsinin yalnız 7.1%** təşkil etməsi, yəni sadəcə 1 altstandartda əks olunması diqqət çəkir. Bu isə şagirdlərin sosial mövzularda seçim etmək, müqayisə aparmaq və əsaslandırılmış münasibət bildirmək bacarıqlarının inkişafı üçün əlavə imkanlara ehtiyac olduğunu göstərir. Kurikulumun təkmilləşdirilməsi zamanı bu sahəyə daha çox yer ayrılması, yuxarı emosional səviyyələrə (dəyərləndirmə və təşkiletmə) keçidi təmin edə biləcək tapşırıq və fəaliyyətlərin artırılması tövsiyə olunur. Digər tərəfdən **dəyər və dəyərlər sistemini özündə əks etdirmə səviyyəsinin 14.3%** olması fərdi mövqeyin formalaşmasına, dəyərlərin həyat tərzinə çevrilməsinə yönəlmiş elementlərin də kurikulumda müəyyən qədər yer aldığını göstərir ki, bu da müsbət bir göstəricidir.

# II FƏSİL. METODOLOGİYA VƏ TƏHLİL

## 2.1. Tədqiqat modeli

Bu tədqiqatın məqsədi II sinif Həyat bilgisi fənni üzrə dərslik, kurikulum və metodik vəsait əsasında şagirdlərdə formalaşdırılan dəyərləri sistemli şəkildə təhlil etmək, bu dəyərlərin hansı altstandartlar və mövzular üzrə təqdim edildiyini müəyyənləşdirmək və onların tezlik səviyyəsini təyin etməklə ümumiləşdirilmiş elmi nəticələrə gəlməkdir. Tədqiqatda məzmun analizi və sənəd təhlili metodlarından istifadə edilmişdir. Bu metodlar vasitəsilə dərslikdəki mətn, şəkil, tapşırıqların dəyərlər baxımından araşdırılması həyata keçirilmişdir. Eyni zamanda dəyərlərin təkrarlanma tezliyi Excel proqramı ilə hesablanaraq diaqramlarla təqdim olunmuşdur.

## 2.2. Məlumatların toplanması

Məlumatların toplanması mərhələsində aşağıdakı sənədlər və materiallar əsas tədqiqat obyektləri kimi istifadə olunmuşdur:

- Azərbaycan Respublikası Təhsil İnstitutu tərəfindən hazırlanmış fənn kurikulumu;
- II sinif Həyat bilgisi fənninin metodik vəsaiti;
- II sinif Həyat bilgisi dərsliyi

Əvvəlcə fənn kurikulumunda yer alan bütün altstandartlar sistemləşdirilmişdir. Daha sonra metodik vəsait əsasında hər bir altstandartın dərsliyin hansı mövzularında tətbiq olunduğu müəyyən edilmişdir. Bu ardıcıllıqla dərslikdəki müvafiq mətnlər, şəkillər, tapşırıqlar analiz edilmiş və bu elementlərdə formalaşdırılan əsas dəyərlər qeyd olunmuşdur.

Bununla yanaşı, dərslik və kurikulumda formalaşdırılması nəzərdə tutulan dəyərlər ayrıca müqayisəli şəkildə təhlil edilmişdir. Bu məqsədlə kurikulumda qeyd olunan əsas dəyərlərlə dərslikdə real olaraq formalaşdırılan dəyərlər qarşılaşdırılmışdır. Nəticədə dərslikdə yer alan bəzi dəyərlərin kurikulumda göstərilmədiyi, eləcə də kurikulumda qeyd olunmuş bəzi dəyərlərin isə dərslikdə kifayət qədər təmsil olunmadığı müşahidə edilmişdir. Bu müqayisə dəyərlərin tədris prosesində nəzəri və praktik uyğunluq səviyyəsini müəyyənləşdirmək baxımından əhəmiyyətli olmuşdur.

### 2.3. Məlumatların analizi

Toplanan məlumatların təhlili zamanı məzmun analizi metodu vasitəsilə dərslikdəki mətn, şəkil və tapşırıqlarda formalaşdırılan dəyərlər kontekstual olaraq təhlil edilmişdir. Təhlilin bazasını 106 tapşırıq (özünü yoxlama, müzakirə sualları, fəaliyyət növləri və ümumiləşdirici tapşırıqlar), 25 mətn və 35 şəkildən (dərslikdə eyni kontekstdə təqdim edilən, lakin altbaşlıqlarla (a, b, c) fərqləndirilən şəkillər ümumi məzmun baxımından vahid fikir formalaşdırdığı halda bir vizual vahid kimi, müxtəlif dəyərləri əks etdirdikdə isə ayrı-ayrılıqda təhlilə cəlb olunmuşdur) ibarət material təşkil etmişdir ki, bu komponentlərdə formalaşdırılan dəyərlər əsasında məzmunun dəyərlər sistemi baxımından analizi aparılmışdır. Paralel olaraq sənəd təhlili metodu ilə fənn kurikulumu və metodik vəsait nəzərdən keçirilərək altstandartların məzmunu sistemli şəkildə araşdırılmış, onların formalaşdırdığı dəyərlər müəyyən edilmişdir.

Hər bir dəyərin məzmun xətləri üzrə altstandartlarda təkrarlanma sayı ayrıca qeyd edilmiş, bu məlumatlar Excel proqramına daxil edilərək təkrarlanmaların sayı diaqramlar vasitəsilə vizual formada təqdim edilmişdir. Bu isə tədqiqatın nəticələrinin obyektivliyini artırmış, nəticələrin təkrar yoxlama üçün əlçatanlığını təmin etmiş və ölçmə imkanını genişləndirmişdir.

### 2.4. II sinif Həyat bilgisi fənn kurikulumunda tədrisi nəzərdə tutulan dəyərlər

Ümumi təhsil pilləsinin ibtidai təhsil səviyyəsində (I-IV siniflər) tədris olunan Həyat bilgisi fənninin kurikulumu bu fənnin tədrisinin məqsəd və vəzifələrini, məzmununu, tədris üsullarını və şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi prinsiplərini özündə cəmləşdirən sənəddir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, 2013, s. 6).

Həyat bilgisi fənninin tədrisi şagirdlərdə sosial bacarıqları və dəyərləri inkişaf etdirməklə yanaşı, təbiət elmləri sahəsində ilkin bilik və bacarıqların əldə edilməsini də təmin edir.

Fənnin sosial istiqamət üzrə tədrisinin əsas məqsəd və vəzifələri isə aşağıdakı kimidir:

1. Bu fəndə fərdin, ailənin, cəmiyyətin və dövlətin qarşılıqlı münasibətləri, sosial-iqtisadi həyat, insan hüquqları və vətəndaşlıq məsələləri ön planda tutulur. Həmin sahədəki standartların yerinə yetirilməsi şagirdlərin sosial varlıq kimi insanı anlamağa və yaşadıqları mühiti biliyini və bacarıqlarını istifadə edərək dəyişdirməyə hazırlayır. Eyni zamanda uşaqlara ailələrini, xalqını və Vətənini sevən, demokratik düşüncəyə malik fərdlər kimi yetişmələri üçün zəruri bilik və dəyərlər öyrədilir.

2. Şagirdlərə müxtəlif mədəniyyətlər arasındakı ümumi və fərqli cəhətləri dərk etmə, multikulturalizm barədə düşüncə formalaşdırmaq və demokratik prinsipləri (tolerantlıq, plüralizm, həssaslıq) qəbul etmək məqsədi güdülür.
3. Sosial-iqtisadi istiqamətdə tətbiq olunan standartlar şagirdlərin məhdud resurslardan (su, elektrik enerjisi, ərzaq və s.) qənaətlə istifadə etməyi və şəxsi, ailə büdcələrini düzgün şəkildə idarə etməyi öyrənmələrini təmin edir.
4. Milli və bəşəri dəyərlərin mənimsənilməsi şagirdlərin ailədə, məktəbdə və cəmiyyətdə qəbul olunmuş davranış qaydalarına uyğun, etik və emosional cəhətdən sağlam fərdlər kimi formalaşmalarına şərait yaradır.
5. Şagirdlərə təbii və texnogen fəlakətlər haqqında məlumat verilir, həmçinin onlara fövqəladə hallarda necə davranmalı olduqları və özlərini necə qorumalı olduqları öyrədilir. Bu da uşaqların təhlükəsizlik qaydalarına əməl etmələrinə və belə vəziyyətlərdə düzgün qərar vermələrinə kömək edir (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2024, s. 4).

II sinif Həyat bilgisi fənn kurikulumunda isə "Canlılarda struktur və proseslər", "Ətraf mühit və biz", "Sağlamlıq və təhlükəsizlik", "İnsan və cəmiyyət" məzmun xətləri üzrə 15 əsas, 45 altstandart qeyd olunmuşdur.

Həyat bilgisi fənn kurikulumunun məzmunu iki əsas istiqamət üzrə formalaşır: təbiət elmləri və sosial-humanitar elmlər. Bu istiqamətlərin hər birinin özünəməxsus məqsəd və vəzifələri, standartları və altstandartları mövcuddur.

Həyat bilgisi fənninin təbiət elmləri ilə bağlı məzmunu "Canlılarda struktur və proseslər", "Ətraf mühit və biz" məzmun xətlərinə əsaslanır. Bu məzmu xətləri üzrə təlim nəticələri şagirdin fəal iştirakını təmin edəcək şəkildə təşkil edilmiş situasiyalar, suallar, tapşırıqlar və müxtəlif fəaliyyətlər vasitəsilə əldə olunur. İbtidai təhsil səviyyəsində təbiət elmləri fizika, kimya, coğrafiya kimi fiziki elmlər və anatomiya, botanika, zoologiya kimi həyat elmlərini özündə birləşdirir. Bu məzmun kateqoriyalarının hər ikisi şagirdlərin koqnitiv və psixomotor inkişafını dəstəkləyərək vahid bir yanaşma ilə tədris olunur. Həyat bilgisi fənninin təbiət elmləri məzmununun məqsədi şagirdləri gələcəkdə ayrı-ayrı fənlər kimi öyrənəcəkləri fizika, kimya, biologiya və coğrafiya fənləri barədə ilkin anlayışlarla təmin etmək, onları bu fənləri sevərək öyrənməyə motivasiya etməkdir (Yunusov və b., 2024, s. 3).

Sosial-humanitar elmlərin məzmunu isə "Sağlamlıq və təhlükəsizlik", "İnsan və cəmiyyət" məzmun xətləri əsasında formalaşır. Bu məzmun xətlərinin ümumi təlim nəticələri şagirdlərin əsas sosial-humanitar sahənin anlayışlarını mənimsəməsi və öz mənəvi vəzifələrini dərk etmələri üzərində cəmlənir. Şagirdlərin tolerant, müstəqil düşünən, ailəsinə, xalqına və

dövlətinə faydalı şəxslər kimi yetişməsi tədrisin əsas məqsəd və vəzifələrindən biridir. Şagirdlərdə yüksək əxlaqi dəyərlərə əsaslanan davranış və ünsiyyət bacarıqları formalaşdırılır, həmçinin milli və bəşəri dəyərləri mənimsəyərək ailə, məktəb və cəmiyyətdə düzgün davranış və ünsiyyət bacarıqlarını inkişaf etdirirlər. Sağlamlıq və təhlükəsizlik sahəsində şagirdlərə sağlamlığı qoruyan və ona təhlükə yaradan amillər barədə zəruri bilik və bacarıqlar öyrədilir. Fövqəladə hallar və təhlükəli hadisələr zamanı düzgün hərəkət etməyi və özlərini, eləcə də yaxınlarını qorumağı bacarmaq şagirdlərə həyati əhəmiyyət kəsb edən bir tələb olaraq irəli sürülür. Bu bacarıqlar onların təhlükəli vəziyyətlərlə qarşılaşdıqları zaman düzgün davranmalarını təmin edir (Yunusov və b., 2024, s. 3).

**Cədvəl 2.4.1. II sinif Həyat bilgisi fənn kurikulumunda "Canlılarda struktur və proseslər" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər**

| Əsas və altstandartlar | Formalaşan dəyərlər |
|---|---|
| **1.1. Canlılarda əsas orqanların yerini, strukturlarını və təşkili səviyyələrini, onların funksiyalarını anlayır.** | |
| 1.1.1. Bədən hissələri və xarici örtüklərinə görə heyvanların oxşar və fərqli cəhətlərini müqayisə edir. | Elmilik, təbiətə qayğı |
| 1.1.2. İnsan və heyvanların nəsillərini davam etdirmək üçün çoxaldığını izah edir. | Elmilik, canlılara qayğı |
| 1.1.3. Heyvan balalarının böyüdükcə dəyişməsini təsvir edir. | Elmilik, canlılara mərhəmət |
| 1.1.4. Çiçəkli bitkilərin əsas hissələrini sadalayır. | Biliyin üstünlüyü, təbiətə qayğı |
| 1.1.5. Çiçəkli bitkilərin əsas üzvlərinin funksiyasını təsvir edir. | İctimai məsuliyyətlilik, ekoloji şüurluluq |
| 1.1.6. Bitkilərin inkişafı üçün lazım olan şəraitləri sadalayır. | Təbiətə qayğı, ekoloji şüurluluq, ictimai məsuliyyətlilik |

1.1.1., 1.1.2., 1.1.3 altstandartları şagirdlərdə elmilik dəyərini formalaşdırmağa yönəlib. Onlar canlı orqanizmlərlə bağlı baş verən təbii prosesləri sistematik və elmi metodlarla öyrənirlər. Burada şagirdlər müqayisə aparma, müşahidə etmə və analiz etmə bacarıqları

qazanırlar. Eyni zamanda bu biliklər onların tənqidi düşünmə və araşdırma qabiliyyətlərini inkişaf etdirir.

1.1.2., 1.1.3 altstandartları canlılara qayğı dəyərini formalaşdırır. Şagirdlər heyvanların böyümə və inkişaf mərhələlərini təsvir edərkən onların həyat dövrünü müşahidə edir, müxtəlif canlıların çoxalma mexanizmlərini öyrənir və bu sahədəki qanunauyğunluqları müəyyən edirlər. Bu isə canlılara qayğı və mərhəmət dəyərini formalaşdırır.

1.1.1., 1.1.4., 1.1.6 altstandartları şagirdlərdə təbiətə qayğı dəyərlərinin formalaşmasını hədəfləyir. Onlar bitkilərin və digər canlıların yaşaması üçün vacib olan amilləri öyrənərək ekoloji balansın qorunmasının əhəmiyyətini dərk edirlər.

1.1.5., 1.1.6 altstandartları şagirdlərdə ekoloji şüurluluq dəyərini inkişaf etdirir. Onlar bitkilərin quruluşu və funksiyasını öyrənərək həm biologiya sahəsində bilik əldə edir, həm də bu biliklərin ətraf mühitin qorunmasında necə tətbiq edilə biləcəyini anlayırlar. Bitkilərin kök, gövdə, yarpaq və çiçək kimi hissələrinin funksiyalarını izah edərkən şagirdlər onların bir-biri ilə əlaqəli fəaliyyət göstərdiyini anlayırlar. Bu isə canlı sistemlərin kompleks quruluşunu dərk etməyə və daha dərin təhlil aparmağa kömək edir. Eyni zamanda şagirdlər bitkilərin ekosistem üçün vacibliyini anladıqca onların qorunması üçün daha məsuliyyətli davranmağa meyilli olurlar.

1.1.6 altstandartı həmçinin ictimai məsuliyyətlilik dəyərini formalaşdırmaq məqsədi daşıyır. Şagirdlər bitkilərin inkişafı üçün hava, su, torpaq və günəş işığı kimi əsas faktorların rolunu anladıqda ekoloji tarazlığın qorunması üçün insanların məsuliyyət daşıdığını da başa düşürlər. Bu isə onların gələcəkdə ətraf mühitin mühafizəsinə daha həssas yanaşmalarına, ekoloji problemlərlə bağlı daha məsuliyyətli və şüurlu davranmalarına kömək edir.

II sinif Həyat bilgisi kurikulumunun “Canlılarda struktur və proseslər” məzmun xətti 1 əsas, 6 altstandartdan ibarətdir. Bu standartlarda formalaşdırılması nəzərdə tutulan dəyərlərin sayı 7-dir. Belə ki, biliyin üstünlüyü, canlılara qayğı və mərhəmət 1, ekoloji şüurluluq və ictimai məsuliyyətlilik 2, elmilik, təbiətə qayğı isə 3 dəfə özünü göstərir.

**Cədvəl 2.4.2. II sinif Həyat bilgisi fənn kurikulumunda “Ətraf mühit və biz” məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər**

| Əsas və altstandartlar | Formalaşan dəyərlər |
|---|---|

| | |
|---|---|
| **2.1. Materialların xassələrini başa düşür və onların istifadə sahələrini izah edir.** | |
| 2.1.1. Təbii və təbii olmayan materialları fərqləndirir. | Ekoloji şüurluluq, fərqindəlik, təbiətə qayğı, ictimai məsuliyyətlilik |
| 2.1.2. Materialların xassələrini təsvir edir. | Elmilik |
| 2.1.3. Materialların istifadə sahələrini izah edir. | İctimai məsuliyyətlilik, fərqindəlik, ekoloji şüurluluq, təbiətə qayğı |
| 2.1.4. Materialları elektrik keçiriciliyinə görə fərqləndirir. | İctimai məsuliyyətlilik, təhlükəsizlik şüuru, elmilik |
| **2.2. Enerjinin müxtəlif növlərini və enerji çevrilmələrini müəyyən edir.** | |
| 2.2.1. Elektriklə işləyən cihazları müəyyənləşdirir. | İctimai məsuliyyətlilik, elmilik, təhlükəsizlik şüuru |
| **2.3. İşığın yayılmasını təsvir edir.** | |
| 2.3.1. İşıq mənbələrini müəyyənləşdirir. | Biliyin üstünlüyü, ekoloji şüurluluq, fərqindəlilik, ictimai məsuliyyətlilik |
| 2.3.2. İşığın mənbədən yayılma qanunauyğunluğunu izah edir. | Biliyin üstünlüyü, elmilik |
| **2.4. Ekosistemlərdə canlılar və onların ətraf mühitlə qarşılıqlı əlaqəsini anlayır.** | |
| 2.4.1. Yaşayış məskənini (habitatı) bitki və ya heyvanın təbii olaraq yaşadığı mühit kimi təsvir edir. | Təbiəti qoruma, ekoloji şüurluluq, canlılara qayğı, bioloji müxtəlifliyin qorunması |
| 2.4.2. Heyvan və bitki müxtəlifliyini yaşayış məskənləri ilə əlaqəndirir. | Ekoloji şüurluluq, ictimai məsuliyyətlilik |
| **2.5. Günəş sistemindəki planetləri və onların Günəşə nəzərən mövqeyini müəyyən edir.** | |
| 2.5.1. Səma cisimlərini tanıyır. | Elmilik |
| 2.5.2. Günəş sistemindəki planetləri sadalayır. | Elmilik |
| 2.5.3. Günəş sistemindəki planetlərin Günəşə nəzərən mövqeyini təsvir edir. | Elmilik |
| 2.5.4. Yer kürəsini planet kimi təsvir edir. | Biliyin üstünlüyü, fərqindəlik |

2.1.1., 2.1.3., 2.3.1., 2.4.1., 2.4.2 altstandartları şagirdlərdə ekoloji şüurluluq dəyərini formalaşdırmağa yönəlib. Şagirdlər insanın ətraf mühitlə qarşılıqlı əlaqəsini başa düşür, təbii və süni materialları fərqləndirərək təbiətin qorunmasının vacibliyini anlayırlar. Bitki və heyvan müxtəlifliyinin ekosistemlər üçün əhəmiyyətini öyrənmək isə onların ekoloji məsuliyyət hissini gücləndirir.

2.1.1., 2.1.3., 2.3.1., 2.5.4 altstandartları şagirdlərdə fərqindəlik dəyərini formalaşdırmağı hədəfləyib. Materialların və enerjinin müxtəlif xassələrinin öyrədilməsi fərqindəlilik dəyərini formalaşdırır. Şagirdlər ətraf mühitdəki obyektlərə və onların xüsusiyyətlərinə daha diqqətli yanaşmağı öyrənirlər.

2.1.1., 2.1.3 altstandartları təbiətə qayğı dəyərini formalaşdırır. Materialların təsviri zamanı onların təbiətlə və insan fəaliyyəti ilə əlaqəsi şagirdlərə izah olunur. Bu proses təbiətə qayğı dəyərinin formalaşmasına xidmət edir. Şagirdlər təbiətə zərər vurmadan resurslardan istifadə etməyin əhəmiyyətini anlayır və ekoloji problemlərə qarşı həssas yanaşma formalaşdırırlar.

2.1.1., 2.1.3., 2.1.4., 2.2.1., 2.3.1., 2.4.2 altstandartları şagirdlərdə ictimai məsuliyyətlilik dəyərinin formalaşmasını nəzərdə tutur. Onlar texnologiyanın cəmiyyətə təsirini öyrənərək düzgün istifadə qaydalarını mənimsəyir. Elektriklə işləyən cihazların təsiri, elektrik cihazlarının təhlükəsiz istifadəsi ilə bağlı biliklər şagirdlərdə ictimai məsuliyyətlilik hissini gücləndirir. Onlar texnologiyanın və enerji istehlakının cəmiyyətə və ətraf mühitə təsirini dərk edərək daha məsuliyyətli davranmağı öyrənirlər. Bu onların gələcəkdə dayanıqlı enerji istifadəsi və ekoloji tarazlığın qorunması üçün fəal iştirakçı olmasına kömək edir.

2.1.2., 2.1.4., 2.2.1., 2.3.2., 2.5.1., 2.5.2., 2.5.3 altstandartları elmilik dəyərinin formalaşdırılmasına yönəlib. Onlar şagirdlərin müşahidə, analiz və müqayisə qabiliyyətlərini inkişaf etdirərək elmi təfəkkürün əsaslarını öyrədir. Şagirdlər canlıların və materialların xüsusiyyətlərini, dəyişmə proseslərini və təbiət hadisələrini sistematik şəkildə araşdırırlar.

2.1.4., 2.2.1 altstandartları təhlükəsizlik şüurunun formalaşmasına xidmət edir. Şagirdlər elektrik cərəyanının xüsusiyyətlərini öyrənərək onun təhlükəli tərəflərini dərk edir və gündəlik həyatda təhlükəsizlik qaydalarına əməl etməyi öyrənirlər.

2.3.1., 2.3.2., 2.5.4 altstandartları biliyin üstünlüyü dəyərinin formalaşmasına yönəlib. Bu standartlar vasitəsilə şagirdlər müxtəlif maddələrin və fiziki hadisələrin qanunauyğunluqlarını elmi yanaşma ilə dərk edirlər.

2.4.1 altstandartı təbiəti qoruma, canlılara qayğı və bioloji müxtəlifliyin qorunması dəyərlərini ehtiva edir. Şagirdlər canlıların böyüməsi, inkişafı və ekosistemlərdəki qarşılıqlı əlaqələri anlayaraq təbiətə qarşı ehtiyatlı və məsuliyyətli yanaşma vərdişləri qazanırlar.

II sinif Həyat bilgisi kurikulumunun "Ətraf mühit və biz" məzmun xətti 5 əsas, 13 altstandartdan ibarətdir. Bu standartlarda formalaşdırılması nəzərdə tutulan dəyərlərin sayı 10-dur. Belə ki, canlılara qayğı, təbiəti qoruma və bioloji müxtəlifliyi qoruma 1, təbiətə qayğı 2, təhlükəsizlik şüuru, biliyin üstünlüyü 3, fərqindəlik, ekoloji şüurluluq 5, ictimai məsuliyyətlilik 6, elmilik isə 8 dəfə özünü göstərir.

**Cədvəl 2.4.3. II sinif Həyat bilgisi fənn kurikulumunda "Sağlamlıq və təhlükəsizlik" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər**

| Əsas və altstandartlar | Formalaşan dəyərlər |
|---|---|
| **3.1. Gigiyena qaydalarının, sağlam qidalanmanın və fiziki aktivliyin sağlamlığın qorunmasındakı əhəmiyyətini izah edir.** | |
| 3.1.1. İdmanın insan sağlamlığının qorunmasındakı əhəmiyyətini təsvir edir. | Sağlam həyat tərzi, özünə qayğı, intizamlılıq |
| 3.1.2. Sağlam qidalanmanın insan sağlamlığının qorunmasındakı əhəmiyyətini izah edir. | Fərdi məsuliyyətlilik, sağlam həyat tərzi, təhlükəsizlik şüuru, özünə qayğı |
| 3.1.3. Gün rejimi cədvəlini tərtib edir. | İntizamlılıq, fərdi məsuliyyətlilik, vaxtdan qənaətlə istifadə |
| **3.2. Məişətdə və gündəlik fəaliyyətdə həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarına əməl edir.** | |
| 3.2.1. Elektrikdən təhlükəsiz istifadə qaydalarını izah edir. | Təhlükəsizlik şüuru, ictimai məsuliyyətlilik |
| 3.2.2. Elektron cihazların insan həyatında əhəmiyyətini izah edir. | Elmilik, fərqindəlik, özünüqoruma |
| 3.2.3. Elektron cihazlardan istifadə edərkən texniki təhlükəsizlik qaydalarına əməl edir. | Təhlükəsizlik şüuru, fərdi məsuliyyətlilik, qaydalara riayət, özünüqoruma |

| | |
|---|---|
| 3.2.4. Nəqliyyat vasitələrində təhlükəsizlik qaydalarını izah edir. | Təhlükəsizlik şüuru, fərdi məsuliyyətlilik, qaydalara riayət |
| 3.2.5. Yol hərəkəti qaydalarını izah edir. | Təhlükəsizlik şüuru, fərdi məsuliyyətlilik, qaydalara riayət |
| **3.3. Fövqəladə hadisələr zamanı həyat və sağlamlığın mühafizəsi ilə bağlı zəruri təhlükəsizlik qaydalarını izah edir.** | |
| 3.3.1. Təbii fövqəladə hadisələri təsvir edir. | Elmilik, fərqindəlik |
| 3.3.2. Təbii fövqəladə hadisələr zamanı təhlükəsizlik qaydalarını sadalayır. | Təhlükəsizlik şüuru, özünüqoruma, ictimai məsuliyyətlilik |
| 3.3.3. Texnogen qəzalar haqqında təsəvvürlərini ifadə edir. | Elmilik, fərqindəlik, təhlükəsizlik şüuru |
| 3.3.4. Texnogen qəza zamanı davranış qaydalarını izah edir. | Təhlükəsizlik şüuru, özünüqoruma, ictimai məsuliyyətlilik |

3.1.1., 3.1.2 altstandartları şagirdlərə sağlam həyat tərzi və özünə qayğı dəyərlərini aşılamaq məqsədi daşıyır. Onlar idmanın fiziki və psixoloji sağlamlığa təsiri, sağlam qidalanmanın vacibliyi barədə məlumat əldə edirlər. Şagirdlər balanslı qidalanmanın orqanizmin funksiyalarına təsirini öyrənərək gələcəkdə sağlam həyat tərzini seçməyə daha meyilli olurlar. Eyni zamanda idmanın immun sistemini gücləndirdiyini və xəstəliklərin qarşısını aldığını başa düşürlər.

3.1.1., 3.1.3 altstandartları intizamlılıq dəyərinin formalaşmasını hədəfləyib. İntizam insanın müvəffəqiyyət qazanması üçün əsas faktorlardan biridir. Şagirdlər gün rejimini tərtib etməklə vaxt bölgüsünü düzgün planlaşdırmağı, dərs və istirahət saatlarını balanslaşdırmağı öyrənirlər. Bu onların gələcəkdə intizamlı fərd kimi yetişməsinə kömək edir.

3.1.2., 3.1.3., 3.2.3., 3.2.4., 3.2.5 altstandartları şagirdlərdə fərdi məsuliyyətlilik dəyərinin formalaşmasına yönəlib. Onlar gündəlik həyatlarında intizamlı olmaq, öz təhlükəsizliklərini təmin etmək və texnoloji cihazlardan məsuliyyətlə istifadə etmək kimi vərdişlər əldə edirlər.

3.1.2., 3.2.1., 3.2.3., 3.2.4., 3.2.5., 3.3.2., 3.3.3., 3.3.4 altstandartları şagirdlərdə təhlükəsizlik şüuru dəyərinin formalaşmasına yönəlib. Onlar təhlükəli vəziyyətlərdən qorunmağı, fövqəladə hallarda necə davranmağı və ictimai yerlərdə qaydalara əməl etməyin vacibliyini öyrənirlər. Elektrikdən təhlükəsiz istifadə qaydalarının izahı şagirdlərə ev və

məktəbdə elektriklə işləyən cihazlarla ehtiyatlı davranmağı öyrədir. Yol hərəkəti qaydalarının izahı isə onların gündəlik həyatda piyadalar və sürücülər üçün təhlükəsizlik qaydalarına əməl etmələrini təmin edir. Texnogen qəza zamanı davranış qaydalarının izahı isə onları real həyatda baş verə biləcək fövqəladə vəziyyətlərdə düzgün qərarlar qəbul etməyə hazırlayır.

3.1.3 altstandartı şagirdlərdə vaxtdan qənaətlə istifadə dəyərinin formalaşmasına yönəlib. Şagirdlər gün rejimi cədvəlini tərtib edərək dərs, oyun, istirahət və yuxu saatlarını balanslaşdırmağı öyrənirlər. Bu onların gələcəkdə daha məhsuldar və planlı şəkildə hərəkət etməsinə kömək edir.

3.2.1., 3.3.2., 3.3.4 altstandartları şagirdlərdə ictimai məsuliyyətlilik dəyərinin formalaşmasına yönəlib. Onlar öz davranışlarının cəmiyyətə təsirini başa düşür, ictimai qaydalara və təhlükəsizlik tədbirlərinə əməl etməyin vacibliyini anlayırlar. Nəqliyyat vasitələrində təhlükəsizlik qaydalarına riayət etməyi öyrənən şagirdlər həm özlərini, həm də ətrafdakı insanları təhlükədən qoruyurlar. Bu onların ictimai yerlərdə daha məsuliyyətli və qaydalara hörmət edən fərdlər kimi yetişməsinə şərait yaradır.

3.2.2., 3.3.1., 3.3.3 altstandartları elmilik dəyərinin formalaşmasına xidmət edir. Şagirdlər elektron cihazların insan həyatına təsirini, təbii və texnogen hadisələrin səbəblərini öyrənərək dünyanı elmi yanaşma ilə dərk edirlər. Elektron cihazların əhəmiyyətinin izahı onlara müasir texnologiyaların həyatımıza təsirini başa salır. Təbii və texnogen qəzaların izahı isə onların müxtəlif fəlakətlərin elmi səbəblərini anlamalarına kömək edir.

3.2.2., 3.3.1., 3.3.3 altstandartları şagirdlərdə fərqindəlik dəyərinin formalaşmasına yönəlib. Fərqindəlik dəyəri şagirdlərin ətraf mühitdə baş verən hadisələrə, texnologiyaların insan həyatındakı roluna və müxtəlif təhlükələrə qarşı şüurlu yanaşmalarına xidmət edir. Bu dəyər onların həm texnoloji, həm də ekoloji baxımdan məlumatlı və diqqətli fərdlər kimi yetişməsinə şərait yaradır.

3.2.2., 3.2.3., 3.3.2 altstandartları şagirdlərdə özünüqoruma dəyərinin formalaşması məqsədi daşıyır. Bu dəyər şagirdlərə həm texnoloji aləmdə, həm də təbii fəlakətlər zamanı öz təhlükəsizliklərini təmin etməyi öyrədir. Bu isə yalnız nəzəri biliklərlə deyil, eyni zamanda şəxsi həyatlarında təhlükələrə qarşı düzgün davranış vərdişlərinin formalaşması ilə müşayiət olunur.

3.2.3., 3.2.4., 3.2.5 altstandartları şagirdlərə qaydalara riayət dəyərini aşılayır. Bu standartlar vasitəsilə şagirdlər qaydaların sadəcə formal tələblər deyil, cəmiyyətin təhlükəsiz və nizamlı şəkildə işləməsi üçün əsas şərt olduğunu anlayırlar. Qaydalara riayət dəyəri bu

mərhələdə yalnız şəxsi təhlükəsizliyi deyil, həm də ictimai rifah və ortaq məsuliyyət duyğusunun inkişafına xidmət edir. Beləliklə, şagirdlər qaydalara əməl etməyin təkcə cəza qorxusundan yox, daxili məsuliyyət hissindən qaynaqlandığını öyrənirlər.

II sinif Həyat bilgisi kurikulumunun "Sağlamlıq və təhlükəsizlik" məzmun xətti 3 əsas, 12 altstandartdan ibarətdir. Bu standartlarda formalaşdırılması nəzərdə tutulan dəyərlərin sayı 11-dir. Belə ki, vaxtdan qənaətlə istifadə 1, sağlam həyat tərzi, özünə qayğı, intizamlılıq 2, qaydalara riayət, fərqindəlik, elmilik və ictimai məsuliyyətlilik 3, özünüqoruma 4, fərdi məsuliyyətlilik 5, təhlükəsizlik şüuru 8 dəfə özünü göstərir.

**Cədvəl 2.4.4. II sinif Həyat bilgisi fənn kurikulumunda "İnsan və cəmiyyət" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər**

| Əsas və altstandartlar | Formalaşan dəyərlər |
|---|---|
| **4.1. İnsanın sosial varlıq olduğunu başa düşür.** | |
| 4.1.1. Ətrafdakı insanların fərqli xüsusiyyətlərinə hörmətlə yanaşır. | Tolerantlıq, müxtəlifliyə hörmət |
| 4.1.2. Oxuduğu məktəbin strukturu haqqında məlumat verir. | Fərdi məsuliyyətlilik, cəmiyyətə inteqrasiya, sosial şüur |
| 4.1.3. Hər bir fərdin kollektiv daxilindəki vəzifələrinin əhəmiyyətini izah edir. | Əməkdaşlıq, fərdi məsuliyyətlilik, hüquqi şüur |
| 4.1.4. Yaxın qohumlarını qohumluq münasibətinə görə tanıdır. | Ailə dəyərləri, hörmət, bağlılıq |
| 4.1.5. Yaşadığı evin dəqiq ünvanını söyləyir. | Özünütanıma, təhlükəsizlik şüuru, fərqindəlik |
| **4.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | |
| 4.2.1. "Büdcə" anlayışını sadə şəkildə izah edir. | Elmilik, iqtisadi dəyərlər |
| 4.2.2. Resurslardan qənaətlə istifadənin əhəmiyyətini izah edir. | Qənaətcillik, ekoloji şüurluluq, ictimai məsuliyyətlilik |
| **4.3. Dövlətçilik barədə biliklərini nümayiş etdirir.** | |

| | |
|---|---|
| 4.3.1. Dövlətin əlamətlərini sadalayır. | Vətənpərvərlik, milli mənsubiyyət, hüquqi şüur |
| 4.3.2. Milli iftixar hissi ilə əlaqədar fikirlərini ifadə edir. | Milli qürur, vətənpərvərlik, tarixi dəyərlərə hörmət |
| **4.4. Hüquqi biliklərə malik olduğunu nümayiş etdirir.** | |
| 4.4.1. İnsan hüquqları barədə təsəvvürə malik olduğunu nümayiş etdirir. | Hüquqların qorunması, ədalət |
| 4.4.2. Məktəbdaxili intizam qaydalarını sadalayır. | İntizamlılıq, fərdi məsuliyyətlilik, sosial şüur |
| **4.5. Ünsiyyət mədəniyyətinə riayət edir.** | |
| 4.5.1. Nəzakət qaydalarını sadalayır. | Hörmət, nəzakətlilik |
| **4.6. Mədəni müxtəlifliyə hörmət edir.** | |
| 4.6.1. Multikultural dəyərlərə hörmətlə yanaşır. | Tolerantlıq, multikulturalizm, müxtəlifliyə hörmət |
| 4.6.2. Dinlər haqqında sadə təsəvvürləri izah edir. | Elmilik, müxtəlifliyə hörmət |

4.1.1., 4.6.1 altstandartları şagirdlərdə tolerantlıq dəyərinin formalaşmasına xidmət edir. Şagirdlərə cəmiyyət daxilində mövcud olan etnik, mədəni, dini və fərdi müxtəlifliyi anlama və ona hörmətlə yanaşma bacarığı aşılanır.

4.1.1., 4.6.1., 4.6.2 altstandartları şagirdlərdə müxtəlifliyə hörmət dəyərinin formalaşdırılmasına yönəlmişdir. Cəmiyyətin fərqli insanlardan, mədəniyyətlərdən və inanclardan ibarət olduğunu dərk etmək və bu müxtəlifliyə hörmətlə yanaşmaq sosial harmoniya və birgəyaşayış üçün vacib olan əsas prinsiplərdən biridir.

4.2.2 altstandartı ictimai məsuliyyətlilik dəyərinin formalaşmasına yönəlmişdir. Cəmiyyətin davamlı inkişafı üçün hər bir fərdin məsuliyyətli davranış nümayiş etdirməsi vacibdir. Resurslardan qənaətlə istifadə etmək təkcə fərdi rifah üçün deyil, həm də ümumi cəmiyyətin və gələcək nəsillərin rifahı üçün önəmlidir.

4.1.2 altstandartı cəmiyyətə inteqrasiya dəyərinin formalaşdırılmasına yönəlib. Şagirdlərin cəmiyyətin bir üzvü kimi yetişməsi üçün onların ətraf mühit, sosial quruluşlar və bu sistemdəki rolları barədə məlumatlı olması vacibdir. Məktəb sosiallaşmanın ilk rəsmi mühiti

olduğuna görə burada əldə edilən bilik və bacarıqlar gələcəkdə onların cəmiyyətə uğurla inteqrasiya olunmasına kömək edir.

4.1.2., 4.4.2 altstandartları sosial şüur dəyərinin formalaşmasına xidmət edir. Sosial şüur fərdin cəmiyyətin qaydalarını, sosial institutların rolunu və kollektiv davranış normalarını dərk etməsi və onlara uyğunlaşması prosesidir. Şagirdlər məktəb və intizam qaydaları vasitəsilə cəmiyyətin ümumi quruluşunu anlamağa və sosial rollarını dərk etməyə başlayırlar.

4.1.3 altstandartı əməkdaşlıq dəyərinin formalaşdırılmasına xidmət edir. Əməkdaşlıq fərdlərin kollektiv mühitdə birlikdə işləmə, qarşılıqlı hörmət və komanda ruhuna sahib olma bacarıqlarını inkişaf etdirən əsas dəyərlərdən biridir.

4.1.2., 4.1.3., 4.4.2 altstandartları fərdi məsuliyyətlilik dəyərinin formalaşmasına xidmət edir. Şagirdlər məktəb strukturu və kollektiv içindəki rollarını anlamaqla, məktəbdə qaydalara əməl etməklə və öz vəzifələrinin kollektiv üçün əhəmiyyətini dərk etməklə məsuliyyətli fərdlər kimi yetişirlər. Bu isə onların gələcəkdə iş mühitində, ictimai həyatda və şəxsi münasibətlərində etibarlı və məsuliyyətli insanlar olmasına zəmin yaradır.

4.1.3., 4.3.1 altstandartları hüquqi şüur dəyərinin inkişafına xidmət edir. Şagirdlər cəmiyyət və kollektiv daxilində hər kəsin hüquq və vəzifələri olduğunu, eləcə də dövlətin hüquqi əlamətlərini tanımağın və hörmət etməyin vacibliyini öyrənirlər. Bu biliklər onların qanunlara hörmət edən, məsuliyyətli və hüquqi biliklərə sahib vətəndaş kimi formalaşmasına şərait yaradır.

4.1.4 altstandartı ailə dəyərləri və bağlılıq hissinin formalaşmasına yönəlmişdir. Şagirdlər qohumlarını tanımaqla ailənin vacibliyini anlayır, ailədaxili münasibətləri düzgün qurmağı öyrənirlər və ailəyə bağlılıq hissi inkişaf edir. Bu isə onların ailə dəyərlərinə hörmət edən, ənənələrə sadiq və sosial münasibətlərdə məsuliyyətli fərdlər kimi yetişməsinə zəmin yaradır.

4.1.4., 4.5.1 altstandartları hörmət dəyərinin inkişafına xidmət edir. Şagirdlər ailə üzvlərinə hörmət etməyi, qohumluq münasibətlərini dərk etməyi və sosial mühitdə etik davranış nümayiş etdirməyi öyrənirlər.

4.1.5 altstandartı şagirdlərdə özünütanıma, təhlükəsizlik şüuru, fərqindəlik dəyərlərinin formalaşdırılmasına xidmət edir. Özünütanıma insanın kim olduğunu, haraya aid olduğunu və cəmiyyətdə hansı mövqeyə malik olduğunu anlamasını təmin edir. Şagirdlər öz ünvanlarını bilməklə yalnız coğrafi baxımdan deyil, həm də təhlükəsizlik baxımından da hazırlıqlı olurlar.

4.2.1., 4.6.2 altstandartları şagirdlərin elmilik dəyərinin inkişaf etdirilməsinə xidmət edir. Onlar iqtisadi və dini mövzulara obyektiv və elmi əsaslarla yanaşmağı öyrənirlər.

4.2.1., 4.2.2 altstandartları şagirdlərdə iqtisadi dəyərlər və qənaət anlayışının inkişafına xidmət edir. Onlar məhdud resursların idarə olunması barədə ilkin biliklər əldə edir, gəlir-xərc balansını anlamaq və bu bilikləri gündəlik həyatlarında tətbiq etməyi öyrənir, büdcə planlaşdırılması və qənaət anlayışlarını qavrayırlar.

4.2.2 altstandartı həm də şagirdlərdə ekoloji şüurluluq dəyərini formalaşdırır. Onlar təbiətə qarşı məsuliyyətli davranmağın və ekoloji tarazlığın qorunmasının əhəmiyyətini dərk edirlər.

4.3.1 altstandartı şagirdlərdə vətənpərvərlik və milli mənsubiyyət dəyərlərini inkişaf etdirir. Onlar dövlət rəmzlərinə hörmət etməyi, milli kimliklərinə sahib çıxmağı və ölkələrinin tarixini, mədəniyyətini qorumağı öyrənirlər.

4.3.2 altstandartı şagirdlərdə vətənpərvərlik, milli qürur və tarixi dəyərlərə hörmət dəyərlərini formalaşdırır. Onlar ölkələrinin tarixini, milli kimliklərini və mədəni irslərini qorumağın vacibliyini anlayırlar.

4.4.1 altstandartı şagirdlərdə hüquqların qorunması və ədalət dəyərlərini formalaşdırır. Bu biliklər onların cəmiyyətdə daha şüurlu, vətəndaş məsuliyyəti daşıyan və hüquqlarına hörmət edən fərdlər kimi yetişməsinə töhfə verir.

4.5.1 altstandartı şagirdlərdə nəzakətlilik dəyərinin və etik davranış qaydalarının formalaşmasını təmin edir. Bu biliklər onların cəmiyyətdə qarşılıqlı hörmətə əsaslanan sağlam ünsiyyət qurmasına, sosial münasibətlərdə nəzakətli və anlayışlı davranmasına kömək edir.

4.6.1 altstandartı şagirdlərdə multikulturalizm və mədəni müxtəlifliyə hörmət dəyərlərini formalaşdırır. Şagirdlər irqindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq bütün insanlara hörmət etməyin vacibliyini öyrənirlər.

II sinif Həyat bilgisi kurikulumunun "İnsan və cəmiyyət" məzmun xətti 6 əsas, 14 altstandartdan ibarətdir. Bu standartlarda formalaşdırılması nəzərdə tutulan dəyərlərin sayı 24-dür. Belə ki, ictimai məsuliyyətlilik, cəmiyyətə inteqrasiya, əməkdaşlıq, ailə dəyərləri, özünütanıma, təhlükəsizlik şüuru, fərqindəlik, ekoloji şüurluluq, milli mənsubiyyət, milli qürur, tarixi dəyərlərə hörmət, hüquqların qorunması, ədalət, intizamlılıq, nəzakətlilik, multikulturalizm 1, tolerantlıq, sosial və hüquqi şüur, hörmət, elmilik, iqtisadi dəyərlər (büdcə

idarəsi, qənaət), vətənpərvərlik 2, müxtəlifliyə hörmət, fərdi məsuliyyətlilik 3 dəfə özünü göstərir.

## 2.5. II sinif Həyat bilgisi dərsliyində mənimsənilməsi nəzərdə tutulan dəyərlərin reallaşdırılma səviyyəsi

II sinif Həyat bilgisi dərsliyi "Mən və məktəbim", "Dəyərlər və sağlamlıq", "Materiallar və təhlükəsizlik", "Yer kürəsi", "Canlılar", "Ehtiyatlı davranaq" adlı altı bölmədən ibarətdir. Dərslikdə yer alan mövzular vasitəsilə şagirdlərə müxtəlif dəyərlərin aşılanması hədəflənmişdir. Üçüncü bölmə beş mövzu əsasında qurulmuşdur. Qalan bölmələrin isə hər biri dörd mövzunu özündə birləşdirir.

**Cədvəl 2.5.1. II sinif Həyat bilgisi dərsliyində "Mən və məktəbim" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər**

| Mövzular | Formalaşan dəyərlər |
|---|---|
| Məktəbimiz | Fərdi məsuliyyət, cəmiyyətə inteqrasiya, sosial şüur, intizamlılıq |
| Həm oxşar, həm fərqliyik | Tolerantlıq, müxtəlifliyə hörmət |
| Birlikdə | Ailə dəyərləri, hörmət, əməkdaşlıq, fərdi məsuliyyət, hüquqi şüur |
| Bir-birimizi dinləyirik | Hörmət, nəzakətlilik |

Dərsliyin ilk mövzusu olan "Məktəbimiz" (səh. 8-10) şagirdlərin məktəb mühitini yaxından tanımaları məqsədilə təşkil olunmuş tapşırıqlarla müşayiət olunur. Bu tapşırıqlara *Müəlliminizlə bərabər məktəbi gəzin, Müşahidələrinizi qeyd edin və Sinfə qayıtdıqdan sonra komandalarla işləyin, sualları cavablandırın* kimi fəaliyyətyönümlü təlimat nümunələri daxildir. Bu tapşırıqları vaxtında yerinə yetirmək, komanda işində aktiv iştirak etmək şagirdin fərdi məsuliyyət hissini gücləndirir. Bu tapşırıqlar şagirdə öz vəzifəsinə məsuliyyətlə yanaşmağı öyrədir. Müşahidə etmək və qeydlər aparmaq fərdi öhdəliklər tələb edir.

*Məktəbinizə aid sualları cavablandırın, Sinif otağınızın yanında hansı otaqlar var?, Akt zalı digər otaqlardan nə ilə fərqlənirdi?* Bu suallar şagirdin məktəb mühitinə adaptasiyasına

kömək edir. Məktəbin strukturunu, otaqları və təyinatlarını tanımaq, oranın bir üzvü kimi davranmaq cəmiyyətə (məktəb mühitinə) inteqrasiyanın başlanğıcıdır.

Səhifə 9-dakı *Məktəb bizə evimiz kimi doğmadır…* cümləsi məktəbi yalnız fiziki məkan kimi deyil, birgəyaşayış mühiti kimi təqdim edir. Şagirdlər buranı öz mühiti kimi qəbul edərək onun qayda və normalarına uyğun davranmağı öyrənirlər. *Davranış qaydalarına əməl etmək həm də müəllimlərimiz və məktəb yoldaşlarımızla xoş münasibət qurmağa kömək edir* fikri sosial şüurun, yəni başqalarının hüquq və rahatlığına hörmətlə yanaşmaq dəyərinin inkişafına xidmət edir.

*Dərsə gecikməmək, dəhlizlərdə qaçmamaq, bitkilərə ziyan vurmamaq* kimi konkret qaydaların sadalanması şagirdlərdə intizam hissinin və qaydalara əməl etmə vərdişlərinin formalaşmasına xidmət edir.

"Həm oxşar, həm fərqliyik" mövzusuna aid səhifə 11-də yer alan *Biz əkizik. Çoxları bizi dəyişik salar. Amma biz bir-birimizdən fərqlənirik. Mən fəalam, bacım isə çox sakitdir* cümlələri uşaqlara xarici görünüşcə eyni olsalar da, insanların daxili xüsusiyyətlərinin (xasiyyət, maraq, istək) fərqli olduğunu izah edir. Bu, fərqli düşüncə və davranış modellərinə tolerant yanaşmanın vacibliyini izah edir. *Cavabınız kimlərlə eyni oldu?, Kimlərlə fərqli oldu?* Bu suallar şagirdləri öz fərqliliklərini və oxşarlıqlarını dərk etməyə, fərqli cavabların normal və qəbul olunan olduğunu başa düşməyə sövq edir. Bu da tolerantlığın ilkin pilləsidir-digər fikirlərə və insanlara hörmət etmək.

Səhifə 12-dəki *Kimsə xasiyyətcə sakit və təmkinli, dostu isə daha cəld və çevikdir. Hər bir insanın istəkləri və maraqları da fərqlidir* fikirləri tolerant davranış üçün əsas təməldir. İnsanların davranış və maraq fərqləri sadəcə qəbul edilməməli, hörmətlə də qarşılanmalıdır. Bu fikirlər uşaqlarda başqalarının seçimlərini dəyərləndirmə və onlara qarşı aqressiv deyil, anlayışlı olma düşüncəsini gücləndirir.

*İnsanların oxşar və fərqli xüsusiyyətlərini iki qrupa ayırmaq olar: Xarici əlamətlər və gözlə görünməyən şəxsi keyfiyyətlər.* Burada vurğulanan fərqliliklər (saç rəngi, dərinin rəngi, maraq dairəsi və s.) uşaqlara hər kəsin özünəməxsus olduğunu və bu fərqliliklərin hörmətlə qarşılanmalı olduğunu öyrədir.

"Birlikdə" mövzusu üzrə səhifə 14-də *Bayramlarda nənə-babalarım üçün konsert təşkil edirik* cümləsi ailə üzvlərinin bir-biri ilə mədəni, emosional bağlarını göstərir. *İp yumağı* tapşırığı ailə üzvlərinin bir-biri ilə əlaqəsini oyun formasında izah edir. Uşaqlar oyun zamanı nəsil bağlarını və qohumluq münasibətlərini öyrənirlər.

Səhifə 15-dəki məktubda *Evdə mən əşyalarımı səliqəli saxlayıram. Sinifdə isə müəllim nə tapşırırsa, yerinə yetirirəm* cümlələri uşaqlarda məsuliyyətli davranış vərdişlərinin formalaşdığını göstərir.

Sinif və evdə qaydalara əməl etməyin vacibliyindən bəhs edilməsi uşaqlara şəxsi davranışlarına nəzarət etməyi öyrədir. Məktubdakı *Qaydaları sinfimizdə yazılı şəkildə divardan asacağıq* fikri rəsmi davranış normalarını və onların tətbiqini ifadə edir. *Sinifdə də evdəki kimi qaydalara əməl etmək vəzifəmizdir* - bu cümlə hüquqi şüurun ilkin forması olan qanunlara hörmət və icra etmə mədəniyyətini aşılayır.




**Şəkil 2.5.1. Həyat bilgisi dərsliyində əməkdaşlıq dəyərinin əks olunması**

Səhifə 16-da şəkillərdəki *sinif layihəsi, uşaq orkestri, voleybol komandası* əməkdaşlıqla iş prinsipini nümayiş etdirir. Şagirdlər burada bir məqsəd üçün vahid komanda olaraq çalışırlar. *Ailə şənliyi*ndə müxtəlif yaşda şəxslərin iştirakı nəsillərarası əməkdaşlıq və birlik dəyərini göstərir.

“Bir-birimizi dinləyirik” mövzusuna əsasən səhifə 17-dəki *Danışıram, dinləyirəm* fəaliyyətində *Öz başınıza gələn maraqlı bir əhvalat danışın, yoldaşınız isə dinləsin* ifadəsi şagirdlərə nəzakətli dinləyici olmağın önəmini öyrədir. *Yoldaşınız sizi diqqətlə dinlədiyini necə bildiniz?* Bu sual vasitəsilə şagirdlər qarşı tərəfin jest, mimika və diqqət göstəricilərini analiz etməyi öyrənir. Bu fəaliyyət qarşılıqlı anlayışın möhkəmləndirilməsinə dəstək olur.

Səhifə 18-də “Kobudlar ölkəsi” hekayəsində *Sizə bir şey söyləmək istəyən yoldaşınızın üzünə baxın...* Qarşı tərəfə hörmətlə yanaşmaq, göz teması qurmaq, aktiv dinləmə kimi əsas ünsiyyət bacarıqları vurğulanır. *Danışmaq növbəsi sizə çatanda cavab verin.* Bu ifadə səbir, sıra gözləmək, digərinə söz haqqı tanımaq kimi hüquqi və sosial mədəniyyət bacarıqlarını əhatə edir.

**Cədvəl 2.5.2. II sinif Həyat bilgisi dərsliyində “Dəyərlər və sağlamlıq” bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər**

| Mövzular | Formalaşan dəyərlər |
|---|---|
| Dövlətimiz | Vətənpərvərlik, milli mənsubiyyət, hüquqi şüur, milli qürur, tarixi dəyərlərə hörmət |
| Müxtəliflik | Tolerantlıq, multikulturalizm, müxtəlifliyə hörmət, elmilik |
| Hüquqlarımız | Hüquqların qorunması, ədalət |
| Sağlam həyat | Sağlam həyat tərzi, özünə qayğı, intizamlılıq, fərdi məsuliyyət, təhlükəsizlik şüuru, vaxtdan qənaətlə istifadə |

“Dəyərlər və sağlamlıq” bölməsinin ilk mövzusu “Dövlətimiz” adlanır. Səhifə 22-dəki *Bayrağımız qürur mənbəyimizdir!, Dövlət himnimiz vətənə məhəbbətimizin ifadəsidir!* cümlələri vətənə sevgi və bağlılıq hisslərini aşılayır.

Dövlət rəmzlərinin (bayraq, gerb, himn), dövlət dili və milli pulun tanıdılması uşaqlarda milli kimlik şüurunun inkişafına xidmət edir. Fəaliyyət bölməsində verilən *Cəsurlar ölkəsi* oyunu uşaqların liderlik və sosial iştirak duyğusunu formalaşdırır.

Azərbaycan Respublikasının Prezidenti, ordusu və ərazisi haqqında verilən məlumatlar dövlətin gücünü və əhəmiyyətini önə çıxarır. Dövlətin bölünməzliyi, torpağın müqəddəsliyi fikirləri tarixi yaddaşın formalaşmasına və ərazi bütövlüyünə hörmətə yönəldilib.

Şagirdlərə rəsmi sənədlərin dövlət dilində yazıldığı, dövlət atributlarına hörmət etməyin vətəndaşlıq borcu olduğu öyrədilir. Pul vahidinin simvolları üzərində duran milli simvollar uşaqlarda simvolların hüquqi və mənəvi dəyəri haqqında anlayış formalaşdırır.

“Müxtəliflik” mövzusu üzrə səhifə 26-dakı məktubda *İnsanların belə fərqlənməsi mədəni müxtəliflikdir. İnsanlar bir-birinə hörmətlə yanaşmalıdır. Fərqli dinlərə və dillərə qarşı anlayış və hörmət vacibdir* cümlələri, səhifə 27-dəki *Əgər məktəbimizə başqa ölkədən şagird gəlsə, ona necə kömək edərsiniz?* müzakirə sualı tolerantlıq dəyərini aşılayır.

Multikulturalizm dəyəri məktubdakı *Uşaqlar mənə yaxınlaşıb hansı ölkədən olduğumu soruşdular. Dilimizə, yeməklərimizə və adlarımıza aid suallar verdilər. Onların da çoxu başqa ölkələrdən gəlib. Məktəbdə hər kəsə hörmətlə yanaşılır. Müəllim müxtəlif dinlərin dəyərlərindən danışır* cümlələrində, *Başqa ölkələrə aid məlumatları bilmək nə üçün vacibdir? Sizcə, Sənan Azərbaycan Respublikası haqqında təqdimatında nədən danışmalıdır?* müzakirə suallarında öz əksini tapıb.




**Şəkil 2.5.2. Həyat bilgisi dərsliyində müxtəlifliyə hörmət dəyərinin əks olunması**

*Müxtəliflik və dostluğu əks etdirən şəkli tapın.* Səhifə 27-dəki bu şəkildə məqsəd fərqlilik içində birlik ideyasını tanıtmaqdır.

*Başqa ölkələrə aid məlumatları bilmək nə üçün vacibdir?* Bu sual elmilik dəyəri ilə bağlıdır.

“Hüquqlarımız” mövzusuna aid səhifə 28-də yer alan *Kim haqlıdır?* fəaliyyətində**:**

Fəridə: *Qardaşım isə gimnastikanı seçməyimi istəyir, çünki o deyir ki, futbol qızlara uyğun idman deyil.* Burada cinsə görə fərq qoyulması halları əks olunur. Fəridənin hüququnun pozulması ədalətsizlik nümunəsidir. *Sizcə, kim haqlıdır: Fəridə, yoxsa qardaşı?* Şagirdlərin ədalətli düşünməsinə təşviq edən sualdır.

Səhifə 29-dakı mətndə *Biz sağlamlığımıza ziyan vurmayan istənilən istirahət və məşğuliyyət növünü seçə bilərik. Hər bir vətəndaşın istirahət və asudə vaxtdan istifadə etmək hüququ var* cümlələri ilə uşaqlara istirahət hüququ və bu zaman sağlamlığa diqqət yetirməyin vacibliyi izah olunur.

*Təhsil hüququ sayəsində biz məktəbin sinif otaqlarından, kitabxanasından, idman zalından və dərsliklərdən pulsuz istifadə edirik.* Burada təhsil hüququnun əhatə etdiyi imkanlar göstərilir.

"Sağlam həyat" mövzusu üzrə səhifə 32-də təqdim edilən *Səhərlər idman etmək gümrah və sağlam olmağımıza kömək edir* cümləsi fiziki sağlamlıq vərdişlərini təşviq edir. Qidaların düzgün qruplaşdırılması (bitki mənşəli və heyvan mənşəli qidalar) balanslı və sağlam qidalanma vərdişlərini öyrədir. *Gün boyu bir neçə dəfə su içməyi də unutmamalıyıq* fikri ilə sağlam həyat tərzinin vacib elementi kimi su içməyə diqqət çəkilir.

*Axşam vaxtında yatmalı və səhər vaxtında oyanmalıyıq* cümləsi ilə yuxu rejiminə diqqət çağırışı özünə qayğını əks etdirir.

*İdman hərəkətlərini verilmiş ardıcıllıqla yerinə yetirin.* Təlimatlara uyğun şəkildə davranmaq intizamlılığın göstəricisidir.

*Özünüz üçün gün rejimi cədvəli qurun* tapşırığı fərdin öz gündəlik rejiminə cavabdeh olduğunu göstərir, gün ərzində vaxtını necə düzgün bölməyi və onu boşuna xərcləməməyi öyrədir.




**Şəkil 2.5.3. Həyat bilgisi dərsliyində sağlamlığın qorunması dəyərinin əks olunması**

Səhifə 33-dəki *Şəklə diqqətlə baxın. Hansı şagird parta arxasında düzgün əyləşməyib?* sualı vasitəsilə düzgün oturma qaydası ilə sağlamlıq və təhlükəsizlik arasındakı əlaqə qurulur. *Bədəni düzgün idarə etməmək bel ağrılarına, skelet problemlərinə səbəb ola bilər*. Bu, təhlükəsizlik şüuru formalaşdırır.

**Cədvəl 2.5.3. II sinif Həyat bilgisi dərsliyində "Materiallar və təhlükəsizlik" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər**

| Mövzular | Formalaşan dəyərlər |
|---|---|
| Təbii və təbii olmayan materiallar | Ekoloji şüurluluq, fərqindəlik, təbiətə qayğı, ictimai məsuliyyətlilik |
| Materialların xassələri | Elmilik |
| Materialların istifadəsi | İctimai məsuliyyətlilik, fərqindəlilik, ekoloji şüurluluq, təbiətə qayğı |
| Elektriklə işləyən avadanlıqlar | İctimai məsuliyyətlilik, elmilik, təhlükəsizlik şüuru, fərqindəlik |
| Elektron cihazlar və biz | Elmilik, fərqindəlik, özünüqoruma, təhlükəsizlik şüuru, fərdi məsuliyyət, qaydalara riayət |

"Təbii və təbii olmayan materiallar" mövzusuna aid səhifə 36-da *Təbii materiallara Yer səthində rast gəlinir. Daş, qum, gil, təbaşir, qızıl və dəmir kimi materiallar təbii materiallardır. Təbiətdə bitkilər olmasaydı, hansı materialları əldə etmək mümkün olmazdı?* Bu cümlələr və sual uşaqlara təbii sərvətlərin mənbəyini tanıtmaqla yanaşı, onların tükənə biləcəyini də düşündürür. Bu isə ekoloji şüurun formalaşmasına xidmət edir. Şagird dərk edir ki, materiallar sonsuz deyil və təbiətə müdaxilə onların əldə olunmasına təsir edə bilər.




**Şəkil 2.5.4. Həyat bilgisi dərsliyində fərqindəlik dəyərinin əks olunması**

*Təbii materialların bəziləri bitkilərdən, bəziləri isə heyvanlardan əldə edilir. Şəkildə verilənləri aid olduğu materiallara uyğun qruplaşdırın.* Səhifə 38-dəki tapşırıq vasitəsilə şagirdlər təqdim olunan əşyaların hansı materialdan hazırlandığını ayırd etməyi öyrənirlər. Bu isə onların ətraf mühiti və istifadə etdikləri əşyaları daha dərindən qavramalarına şərait yaradır. Fərqindəlik dəyəri bu nöqtədə formalaşır, çünki uşaq artıq gördüyü bir əşyanın haradan gəldiyini düşünməyə başlayır.

*Plastik materiallar isə, əsasən, neftdən alınır. İnsanların hazırladığı hansı materialların nümunə göstərilə biləcəyini yazın.* Plastikin təbii mənbə olan neftdən əldə olunması faktı uşaqlara dolayı yolla onun ətraf mühitə təsirini düşündürür. Şagirdlər plastiklə təbii materialları müqayisə edərək daha az zərərli olanı seçməyi öyrənirlər. Bu düşüncə tərzi onlarda təbiəti qoruma ehtiyacı və qayğı dəyərini formalaşdırır.

*Dəmir hansı məqsədlər üçün istifadə olunur?* Bu sual uşaqlara bir materialın fərqli sahələrdə-sənaye, məişət, nəqliyyat və s. necə istifadə olunduğunu düşündürür. Bu onların məsuliyyətli davranış formalaşdırmalarına imkan verir.

“Materialların xassələri” mövzusunda şagirdlər materialların xassələrini müşahidə edərək nəticə çıxarmağı öyrənirlər. Bu isə elmi düşüncə və müşahidə bacarığını inkişaf etdirir.

Səhifə 39-da verilən *Dəmir, gil, plastik və taxta qaşıqlar suda batırmı, batmırmı? Nə müşahidə etdiniz? Hansı qaşıqlar suda batdı, hansılar isə batmadı?* sualları şagirdlərə eksperiment yolu ilə nəticə çıxarmağı öyrədir. Bu, elmilik dəyərinin formalaşmasına xidmət edir.

“Materialların istifadəsi” mövzusuna əsasən səhifə 44-də *Nə üçün biz kağızdan qənaətlə istifadə etməliyik?* sualı ekoloji şüurluluğu birbaşa inkişaf etdirir. Şagirdlər kağızın ağacdan hazırlandığını bilir və nəticədə ağacların qorunmasının vacibliyini anlayırlar.

*Ağacdan odun əldə edilir. Odundan müxtəlif taxta əşyalar da hazırlanır.* Bu sadə izahla resursların mənşəyi ilə məhsul arasındakı əlaqə yaradılır və bu da şagirdlərin resursa qarşı məsuliyyətli yanaşmasını formalaşdırır.

*Evdə istifadə etdiyiniz hansı əşyalar gildən hazırlanıb?* Bu sual ətrafımızdakı əşyaların tərkibi haqqında fərqindəlik yaradır.

“Elektriklə işləyən avadanlıqlar” mövzusunda mətn və tapşırıqlarda uşaqlara bu avadanlıqlardan istifadə zamanı diqqətli olmaq, başqalarının həyatına da təsir edə biləcək səhvlərdən çəkinmək mesajı verilir. Müzakirə bölmələrində *Elektrik avadanlıqlarından istifadə edərkən diqqətli olmasaq, nə baş verər?* sualı ictimai məsuliyyət dəyərini formalaşdırır.

Mövzu boyunca elektrik axınının hansı materiallardan keçdiyi, hansı materialların keçirici, hansılarının keçirici olmadığı barədə elmi məlumatlar verilir. Uşaqlara sadə təcrübələr vasitəsilə materialların xüsusiyyətlərini müşahidə etmək imkanı yaradılır. Məsələn: *Fikrinizi izah edin* və *Hansı material elektrik keçirir?* tipli suallar vasitəsilə tənqidi düşünmə təşviq edilir.




**Şəkil 2.5.5. Həyat bilgisi dərsliyində təhlükəsizlik şüuru dəyərinin əks olunması**

Elektrik avadanlıqlarının istifadəsi zamanı hansı təhlükələr yarana biləcəyi, onlardan qorunma yolları aydın şəkildə təqdim olunur. Dərsliyin 47-ci səhifəsində verilmişdir: *Plastik örtüyü zədələnmiş avadanlıqdan istifadə etmək olmaz, yaş əllə toxunmaq olmaz*. Bu qaydalarla

uşaqda təhlükədən qorunma refleksi formalaşdırılır. Şəkillərlə dəstəklənmiş qadağalar (x işarəsi ilə göstərilmiş səhv davranışlar) vizual yaddaşı gücləndirir.

Dərslikdə yer alan "Elektron cihazlar və biz" mövzusunda mobil telefon, planşet və kompüter kimi cihazlardan düzgün istifadə qaydaları və bu cihazların faydaları haqqında məlumat verilir. Eyni zamanda bu cihazlardan istifadə zamanı əməl olunmalı qaydalar göstərilir:

Səhifə 50-də*ki Ekranı çox parlaq etmək və ona 30 sm-dən yaxın məsafədən baxmaq gözlərimiz üçün zərərlidir* cümləsində elmilik və özünüqoruma dəyərləri ön plana çıxır. Şagirdlər elmi əsaslarla texnologiyadan düzgün istifadə etməyi öyrənir və sağlamlıqlarını qorumağın vacibliyini dərk edirlər.

*Kompüterin qarşısında isə gündə iki saatdan çox vaxt keçirməyək.* Bu cümlə vasitəsilə fərdi məsuliyyət və təhlükəsizlik şüuru formalaşdırılır. Şagirdin ekran qarşısında keçirdiyi vaxtı məhdudlaşdırması, öz sağlamlığını düşünməsi tövsiyə olunur.

*Telefon, planşet və kompüterdən istifadə edərkən nələrə diqqət etmək lazımdır?* Bu sual şagirdlərin qaydalara riayət, fərqindəlik bacarıqlarını inkişaf etdirir. Şagirdlər yalnız məlumatı öyrənmir, həm də onu gündəlik həyatlarında tətbiq etməyi düşünürlər.

**Cədvəl 2.5.4. II sinif Həyat bilgisi dərsliyində "Yer kürəsi" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər**

| Mövzular | Formalaşan dəyərlər |
|---|---|
| İşıq mənbələri | Elmilik, biliyin üstünlüyü, ekoloji şüurluluq, fərqindəlik, ictimai məsuliyyətlilik |
| Günəş sistemini tanıyaq | Elmilik |
| Yer planeti | Biliyin üstünlüyü, təbiəti qoruma, ekoloji şüurluluq, canlılara qayğı, bioloji müxtəlifliyi qoruma |
| Yaşayış yeri | Təbiəti qoruma, ekoloji şüurluluq, canlılara qayğı, bioloji müxtəlifliyi qoruma, ictimai məsuliyyətlilik |

"İşıq mənbələri" mövzusuna aid səhifə 55-dəki *Gündüz vaxtı ətrafımızdakı əşyaları asanlıqla görürük, çünki Günəş ətrafı işıqlandırır. Günəş işıq mənbəyidir* cümlələri vasitəsilə şagirdlər işığın fiziki xüsusiyyətlərini, onun mənbələrini və gündəlik həyatda necə istifadə olunduğunu elmi əsaslarla öyrənirlər. İşıq mənbələrinin təbii və süni olaraq təsnifləndirilməsi analitik təfəkkür formalaşdırır.

*İşıq mənbələrinin süni və ya təbii olduğunu müəyyən edin.* Bu tapşırıq şagirdlərdə müşahidə, analiz və nəticə çıxarma bacarıqlarını inkişaf etdirir. Təbii və süni mənbələrin ayırd edilməsi elmi düşüncə sistemini gücləndirir.

*Günəş və göydəki ulduzlar təbii işıq mənbəyidir. Bəzi canlılar da qaranlıqda işıq saçır. Belə canlılar da təbii işıq mənbəyidir.* Bu cümlələr vasitəsilə şagirdlər təbiətdə mövcud olan canlıların (məsələn, işıldaböcək) bioloji xüsusiyyətləri ilə tanış olur və təbiətə qarşı maraq və qayğı hissi inkişaf etdirilir.

*Sizcə, gecələr, yoxsa gündüzlər ətrafı daha yaxşı görürük? Bunun səbəbi nə ola bilər?* Bu sual uşaqlarda təbiət hadisələrinin səbəb-nəticə əlaqələrini anlamağa, gündəlik müşahidələr əsasında düşünmə və nəticə çıxarma bacarıqlarını formalaşdırmağa xidmət edir.

*Hansı halda kitabı oxumaq daha rahatdır? Fikrinizi izah edin.* İşığın düzgün istiqamətdə və yetərli miqdarda olmasının öyrənilməsi şagirdlərdə öz şəxsi rahatlığı və iş şəraiti üçün fərqindəlik formalaşdırır.

*Süni işıq mənbələrindən-lampa, fənər, şamdan istifadə edirik.* Şagirdlər süni işıq mənbələrinin gündəlik həyatda oynadığı rolu anlayır, onların düzgün istifadəsi və enerji israfından yayınmaq barədə məsuliyyət qazanır.

"Günəş sistemini tanıyaq" mövzusu şagirdlərə kainat və onun quruluşu haqqında elmi məlumatların öyrədilməsi ilə ifadə olunur. Dərslikdəki mətnlər, suallar və tapşırıqlar şagirdlərin müşahidə aparması, planetləri tanıması, onlardan biri haqqında araşdırma etməsi kimi fəaliyyətlərə yönəlib. Bu isə şagirdlərdə elmi marağın formalaşmasına xidmət edir.

*Gecə vaxtı göy üzündə parlaq cisimlər müşahidə edə bilərsiniz. Bunlar ulduzlardır. Günəş, ulduzlar və Ay səma cisimləridir. Yaşadığımız Yer kürəsi bu planetlərdən biridir. Yer Günəş sistemində həyatın mövcud olduğu yeganə planetdir.* Səhifə 58-dəki bu hissə şagirdlərə elmi şəkildə Günəş sisteminin quruluşunu izah edir.




**Şəkil 2.5.6. Həyat bilgisi dərsliyində elmilik dəyərinin əks olunması**

*Planetlərin adlarını şəkildə verilən ardıcıllıqla dəftərinizə qeyd edin. Hərflərin yerlərini dəyişərək planet adlarını müəyyən edin. Planetlərdən biri haqqında məlumat toplayın.* Bu tapşırıqlar şagirdlərin müşahidə və araşdırma qabiliyyətlərini inkişaf etdirir. Onlar verilən elmi məlumatı tətbiq edir, elmi bilikləri əyləncəli və yaradıcı şəkildə mənimsəyirlər.

"Yer planeti" mövzusu üzrə səhifə 61-dəki bu mətn: *Yer kürəsi Günəş sistemində həyat olan yeganə planetdir. Bu, burada havanın, suyun, torpağın və canlıların olması ilə əlaqədardır. Dağlar, meşələr, çaylar və göllər canlıların yaşaması üçün əlverişli mühit yaradır* cümlələri təbiətə bağlılıq, ekoloji şüurluluq, bioloji müxtəlifliyin qorunması və canlılara qayğı kimi dəyərləri aşılayır. Şagirdlər anlayırlar ki, Yer kürəsi onlara verilmiş böyük bir nemətdir və onu qorumaq hər bir fərdin məsuliyyətidir.

*Yer kürəsini digər planetlərdən necə fərqləndirirsiniz?* sualına cavab ilə şagirdlər Yerin unikal olduğunu anladıqda onu daha çox qorumağa meyilli olurlar.

"Yaşayış yeri" mövzusu üzrə səhifə 64-dəki *Çəmənlik çoxlu ot olan yerdir. Kəpənəklər və böcəklər digər heyvanlardan qorunmaq üçün çəmənlikdə bitkilərin arasında gizlənirlər* cümləsi göstərir ki, təbii mühitdə yaşayan canlılar orada həm qorunur, həm də ehtiyaclarını təmin edirlər. Bu şagirdlərə başa salır ki, təbiət canlıların sığınacaq və yaşam məkanıdır, bu mühitləri qorumaq isə insanların vəzifəsidir.

*Heyvan fiqurlarını yaşadıqları yerə uyğunlaşdırarkən nələrə diqqət etdiniz?* Bu sual şagirdin canlıların təbiətinə, uyğunlaşma xüsusiyyətlərinə diqqət etməsini tələb edir. Uşaq düşünür: Dəvə niyə səhrada yaşayır? Balıq niyə suda yaşayır? Bu düşüncə prosesi canlıların ehtiyaclarını anlamağa, onlara qarşı empati və qayğı hissi formalaşdırmağa kömək edir.

*Səhranın da özünəməxsus canlıları var. Bitkilərdən kaktus, heyvanlardan isə dəvə bu yaşayış məkanında yaşayan canlılardandır.* Bu cümlələr vurğulayır ki, hər mühitin öz flora və faunası var və bu müxtəliflik dəyərlidir. Şagird başa düşür ki, müxtəlif mühitlərdə yaşayan canlıları qorumaq, onların mühitini pozmamaq vacibdir.

**Cədvəl 2.5.5. II sinif Həyat bilgisi dərsliyində "Canlılar" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər**

| Mövzular | Formalaşan dəyərlər |
|---|---|
| Heyvanları tanıyaq | Elmilik, təbiətə qayğı |
| Canlıların çoxalması və böyüməsi | Elmilik, canlılara qayğı, canlılara mərhəmət |
| Bitkiləri tanıyaq | Biliyin üstünlüyü, təbiətə qayğı, ictimai məsuliyyətlilik, ekoloji şüurluluq |
| Bitkilərin böyüməsi üçün nə lazımdır? | Təbiətə qayğı, ekoloji şüurluluq, ictimai məsuliyyətlilik |

"Heyvanları tanıyaq" mövzusu üzrə səhifə 71-dəki *Heyvanların qulaqları, gözləri, burnu, ağzı və digər bədən hissələri var. Bir çox heyvanların quyruğu olur. İt, pişik, inək, canavar, tülkü, şir kimi heyvanların bədəni tüklə örtülmüşdür* məlumatları şagirdlərə elmi biliklərə əsaslanan anlayışlar qazandırır. Heyvanların bədən hissələrinin və üzvlərinin adlarını öyrənməklə yanaşı, onların funksiyalarını da dərk edirlər. Bu isə elmilik dəyərinin formalaşmasına xidmət edir.

*Hansı heyvanların bədəni tüklə örtülmüşdür? Tük örtüyünün onlara faydası nədir? Heyvanların bədəni xaricdən nə ilə örtülüb?* Bu suallar şagirdlərdə heyvanlara diqqətli yanaşma, onları qoruma və anlamaya əsaslanan empatiya yaradır. Uşaqlar başa düşürlər ki, heyvanların bədən quruluşu onların yaşadığı mühitə uyğun şəkildə təkamülləşmişdir. Bu isə canlıların ehtiyaclarını və təbiətdəki rolunu anlamağa səbəb olur.

"Canlıların çoxalması və böyüməsi" mövzusu canlıların çoxalması və inkişaf proseslərini elmi şəkildə izah edir: *Canlıların əsas əlamətlərindən biri də onların çoxalması və böyüməsidir. İnsanlar, heyvanlar və digər canlılar çoxalaraq öz nəslini davam etdirirlər.* Bu cümlələrdə elmi yanaşma ilə canlıların çoxalma üsulları izah olunur.




**Şəkil 2.5.7. Həyat bilgisi dərsliyində elmilik və fərqindəlik dəyərlərinin əks olunması**

*Şəkildə verilmiş heyvanları balalarından fərqləndirin və dəftərinizə qeyd edin.* Səhifə 73-dəki şəkil və tapşırıq şagirdləri müşahidə etməyə, nəticə çıxarmağa və elmi əsaslandırma bacarığı formalaşdırmağa yönəlib.

Mövzu boyunca canlıların böyüməsi, balaların ehtiyacları və onların müdafiəsi məsələləri qeyd olunmaqla uşaqlarda canlılara qarşı məsuliyyətli münasibət formalaşdırılır.

*İt, pişik, inək, canavar, tülkü, şir və keçi kimi heyvanlar isə diri bala doğurlar.* Bu məlumatla şagirdlər anlayır ki, heyvanlar öz balalarına qayğı göstərir və onların qorunmağa ehtiyacı var.

*Heyvanlar çoxala bilməsəydi, nə baş verərdi?* Bu sual uşaqlarda canlıların yaşaması və davamlılığı haqqında düşünmək, onları qorumağın vacibliyini anlamaq kimi mərhəmət və qayğı hisslərini oyadır.

"Bitkiləri tanıyaq" mövzusunda bitkilərin əsas hissələri (kök, gövdə, yarpaq, çiçək) vizual şəkildə təqdim olunaraq onların funksiyaları sadə dildə izah edilir. Məsələn, səhifə 77-də deyilir: *Yarpaq günəş işığı və havadan istifadə edərək qida hazırlayır. Kök bitkini torpağa bərkidir. Torpaqdan su və qidalı maddələri sorur.* Bu cür elmi izahlar şagirdlərdə biliyin üstünlüyü dəyərinin formalaşmasına xidmət edir. Şagird anlayır ki, təbiətdəki hər orqanın, hər hissənin öz funksiyası, əhəmiyyəti var və bu biliklər insanın təbiətlə düzgün əlaqə qurmasına yardım edir.

Mövzuda yer alan *Bitkilərdə yarpaq olmasaydı, nə baş verərdi?* və ya *Çiçəyin bitki üçün faydası nədir?* sualları uşaqlarda təbiətə qayğı və ekoloji şüurluluq kimi dəyərlərin formalaşmasına səbəb olur. Bu suallar uşağı düşündürür və bitkilərin həyat üçün nə qədər vacib olduğunu anlamasına səbəb olur.

*Bitkiləri çoğaltmaq üçün onların toxumlarını torpağa əkirlər. Gövdə su və qidalı maddələrini daşıyır.* Bu cür məlumatlar uşaqlara göstərir ki, bitkilərin davamlılığı üçün insanın məsuliyyətli davranışı vacibdir. Bu isə ictimai məsuliyyətlilik dəyəri ilə bilavasitə bağlıdır.

*Bəzi bitkilərin kökləri daha uzun olur və torpağın dərinliklərinə gedir. Sizcə, bunun səbəbi nə ola bilər?* sualı ilə şagirdlər sadəcə informasiyanı deyil, həm də düşünməyi, araşdırmağı və nəticə çıxarmağı öyrənirlər. Bu isə ekoloji şüurluluğun əsas tərkib hissələrindən biridir.




**Şəkil 2.5.8. Həyat bilgisi dərsliyində məsuliyyət və canlılara qayğı dəyərlərinin əks olunması**

“Bitkilərin böyüməsi üçün nə lazımdır?” mövzusuna aid səhifə 79-da verilən sual: *A, B, C şəkilli bitkilər bir-birindən necə fərqlənir? Onların bu cür fərqlənmələrinə səbəb nə ola bilər?* Bu suallar şagirdləri bitkilərin qayğıya ehtiyacı olduğunu anlamağa və onların sağlam qalması üçün məsuliyyətli davranışa təşviq edir. C bitkisinin sağlam olması göstərir ki, bitkiyə düzgün qulluq edildikdə o, inkişaf edə bilər.

*Böyük dibçəyə bitki əkin. Müşahidələrinizi dəftərinizdə qeyd edin.* Bu fəaliyyət vasitəsilə şagird canlılara, bitkilərə qayğı göstərməyi öyrənir.

*Bitkilər özlərinə qida hazırlayarkən Günəş işığı, hava və sudan istifadə edir.* Bu, uşaqlarda təbiətdəki proseslərə qarşı maraq və anlayış formalaşdırır. Onlar dərk edirlər ki, hava, su, torpaq və günəş bitkilər üçün həyati əhəmiyyət daşıyır və bu təbii resursları qorumaq zəruridir.

Səhifə 80-də ağacın köklərindən su və qidalı maddələrin hərəkəti göstərilərək belə yazılıb:

*Torpaqda bitkilərin böyüməsi üçün lazım olan su və qidalı maddələr var.* Bu cümlə və vizual izahlar şagirdlərdə ekosistem haqqında ilkin anlayışların və mühitə qarşı məsuliyyətli münasibətin formalaşmasına xidmət edir.

*Kiçik dibçəkdəki bitkini zədələmədən çıxarın.* Bu tapşırıq uşaqlara məsuliyyətli davranış, canlılara zərər verməmək, təbiəti qorumaq dəyərlərini aşılayır.

**Cədvəl 2.5.6. II sinif Həyat bilgisi dərsliyində "Ehtiyatlı davranaq" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər**

| Mövzular | Formalaşan dəyərlər |
|---|---|
| Nəqliyyatda və yolda | Təhlükəsizlik şüuru, fərdi məsuliyyət, qaydalara riayət |
| Təbii fəlakətlər | Elmilik, fərqindəlik, təhlükəsizlik şüuru, özünüqoruma, ictimai məsuliyyətlilik |
| Təhlükələrdən necə qorunaq? | Elmilik, fərqindəlik, təhlükəsizlik şüuru, özünüqoruma, ictimai məsuliyyətlilik, özünütanıma |
| Qənaət | Elmilik, iqtisadi dəyərlər, qənaətcillik, ekoloji şüurluluq, ictimai məsuliyyətlilik |

"Nəqliyyatda və yolda" mövzusunda şagirdlərə həm piyadalar, həm də sərnişinlər kimi təhlükəsiz davranış qaydaları öyrədilir. Bu onların həyat və sağlamlıqlarını qorumaq üçün şüurlu şəkildə davranmalarına şərait yaradır.

*Avtobusda və digər nəqliyyat vasitələrinə minərkən yaşlılara, uşaqlı valideynlərə, əlillərə yol verin. Avtobusda, metroda musiqiyə yüksək səslə qulaq asmaq lazım deyil.* Bu cümlələr şagirdə nəqliyyatda diqqətli, təhlükəsiz və məsuliyyətli davranmağın vacibliyini öyrədir.

*Hərəkət edən nəqliyyat vasitəsinin qarşısından qaçaraq keçmək nə üçün təhlükəlidir?* Səhifə 86-dakı bu sual vasitəsilə uşaqlarda təhlükəli davranışlarla bağlı düşünmə bacarığı inkişaf etdirilir.

Mövzu boyu şagirdin təkcə öz təhlükəsizliyi deyil, ətrafındakıların rahatlığı və təhlükəsizliyi üçün də məsuliyyət daşıması vurğulanır. *Nəqliyyat vasitəsində gedərkən əlinizi, qolunuzu və başınızı pəncərədən bayıra çıxarmayın.* Bu davranış nümunəsi fərdi məsuliyyətin təzahürüdür-şagird həm özünü, həm də digərlərini təhlükədən qorumağa çalışır.

Dərslikdə yol nişanları, keçidlər və avtobusdan istifadə qaydaları göstərilir. Bu, şagirdlərdə qanunlara və qaydalara hörmət etmə vərdişini formalaşdırır. *Yol nişanlarını adları ilə uyğunlaşdırın: Yeraltı piyada keçidi, Piyada keçidi, Piyadaların hərəkəti qadağandır və s.* Bu tapşırıqlar vasitəsilə uşaqlara yol hərəkəti qaydaları həm praktik, həm də əyləncəli şəkildə öyrədilir.

Səhifə 88-də "Təbii fəlakətlər" mövzusuna aid *Zəlzələ zamanı pəncərədən uzaq durun, otağın küncündə dayanın. Stolun altına girərək qorunun. Şkafa yaxın dayanmayın, liftdən istifadə etməyin.* Bu göstərişlər uşaqlara təbii fəlakət zamanı təhlükədən qorunma yollarını öyrədir və təhlükəsizlik şüurunu formalaşdırır.

*Zəlzələ Yer səthinin titrəməsi nəticəsində baş verir. Torpağın üst qatının sürüşərək yerini dəyişməsi torpaq sürüşməsi adlanır. Sürüşmənin qarşısını almaq üçün ağac əkmək lazımdır.* Bu cür faktlar şagirdlərdə təbiət hadisələrinin elmi səbəbləri və qarşısının alınmasının mümkün yolları haqqında fərqindəlik yaradır.

"Təhlükələrdən necə qorunaq?" mövzusu üzrə səhifə 91-dəki *Yanğın zamanı 112 nömrəsinə zəng et. Elektrik cihazlarından istifadə etmə. Qapı və pəncərələri aç* kimi məlumatlar vasitəsilə yanğın zamanı texnogen təhlükələrin qarşısının alınması üçün şagirdlər konkret davranış qaydaları ilə tanış edilir və bu onların həm özlərini, həm də başqalarını qorumasına xidmət edir.

*Qaz sızması hiss edildikdə dərhal elektrik cihazlarını söndür, pəncərəni aç və böyüklərə xəbər ver.* Şagird qaz sızmasının partlayışa səbəb ola biləcəyini öyrənir və nə etməli olduğunu anlayır. Bu isə onun həyati bacarıqlarını artırır.

*Yol-nəqliyyat qəzalarında 103 nömrəsinə zəng edib təcili tibbi yardım çağır.* Şagird yalnız öz təhlükəsizliyini yox, hadisəyə şahid olarkən başqasının da həyatını qorumağın məsuliyyətini anlayır.

*Yaşadığın şəhər, küçə və ev nömrəsini əzbərlə. Fövqəladə vəziyyətdə düzgün məlumat ver.* Bu bacarıq təhlükə zamanı yardımın düzgün və tez gəlməsi üçün vacibdir. Şagird özünə aid məlumatı bilməklə öz təhlükəsizliyini təmin edir.

“Qənaət” mövzusu vasitəsilə şagirdlərə kommunal xərclərin məntiqi və iqtisadi əsasları izah edilir. *“İstifadə edilən elektrik, qaz və su üçün pul ödənilir. Bunlara kommunal xərclər deyilir.* Elektrik, su, qaz kimi mənbələrin istifadəsi və qənaət yolları izah edilərkən gündəlik həyatla elmi biliklərin əlaqəsi yaradılır.

Səhifə 95-də ailələrin kommunal xərcləri müqayisə edilərək hansı ailənin daha qənaətcil olduğu təhlil etdirilir. *Birinci ailə 12 manat suya, 18 manat işığa, 20 manat qaza pul ödəyir, ikinci ailə isə 22, 27, 20 manat.* Şagirdlərin cibxərclərinə dair planlama etməsi, hansı alışın daha vacib olduğunu seçməsi iqtisadi düşüncənin formalaşdırılmasına xidmət edir.

*Suyun, işığın və elektrik cihazlarının yalnız lazım olanda istifadəsi qənaətlə istifadə deməkdir.* Bu yanaşma eyni zamanda təbii resursların qorunması və israfın qarşısının alınması ilə bağlı ekoloji şüurluluq dəyəri daşıyır.

Şagirdlərə başa salınır ki, qənaət etmək yalnız ailə üçün deyil, ümumi cəmiyyət üçün də faydalıdır. *Qənaətlə istifadə etməyəndə kommunal xərclər artır.* Bu mesaj ictimai və iqtisadi məsuliyyət hissinin formalaşmasına şərait yaradır.

## 2.6. Məzmun xətləri üzrə formalaşmış dəyərlərin bölgüsü

Həyat bilgisi fənni üzrə ümumi təlim nəticələrinin əldə olunmasını təmin edən aşağıdakı məzmun xətləri müəyyən edilmişdir:

1. Canlılarda struktur və proseslər
2. Ətraf mühit və biz
3. Sağlamlıq və təhlükəsizlik
4. İnsan və cəmiyyət

**Canlılarda struktur və proseslər**. Bu məzmun xətti üzrə şagirdlər canlı və cansız varlıqları ayırd etməyi, canlılara xas əsas həyati prosesləri izah etməyi öyrənir, onların yaşaması və inkişafı üçün zəruri olan şəraitləri dərk edirlər. Eyni zamanda canlıların özlərinə oxşar nəsil əmələ gətirdiyini və inkişaflarının mərhələli xarakter daşıdığını müəyyənləşdirirlər. Şagirdlər müxtəlif canlıların inkişaf dövrlərini müqayisə etməklə yanaşı, insan orqanizminin quruluşunu, bədən üzvlərini və bu üzvlərin funksiyaları ilə quruluşları arasındakı əlaqəni də öyrənirlər. Bundan əlavə, heyvanların bədən hissələri və xarici örtüklərinə əsasən oxşar və fərqli cəhətlərini müqayisə etmə bacarığı formalaşır. Şagirdlər həmçinin çiçəkli bitkilərin əsas

hissələrini tanımaq və onların funksiyalarını izah etmək qabiliyyəti əldə edirlər (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2024, s. 8).

**Ətraf mühit və biz.** Bu məzmun xətti üzrə şagirdlər əşyaların hansı materiallardan hazırlandığını müəyyənləşdirmək, bu materialların əsas xüsusiyyətlərini izah etmək və onların tətbiq sahələrini bu xüsusiyyətlərlə əlaqələndirmək bacarığı əldə edirlər. Şagirdlər bərk, maye və qaz maddələrə nümunələr göstərməyi, kütlə, həcm və temperaturun ölçülməsi ilə bağlı sadə təcrübələr aparmağı öyrənirlər. Eyni zamanda qüvvə növlərini fərqləndirməyi, qüvvə ilə cismin hərəkəti arasındakı əlaqəni izah etməyi bacarırlar. Səs, işıq və istilik hadisələrinin izahı və bu hadisələrlə bağlı praktiki fəaliyyətlərin yerinə yetirilməsi, səs, istilik və işıq yaradan elektrik cihazlarının tanınması bu mərhələdəki digər əsas bacarıqlardandır. Şagirdlər maddələrin istilik, işıq, maqnit və elektrik keçiriciliyinə görə fərqləndirilməsini, hava şəraitinin müşahidəsini və bu müşahidələrin cədvəl şəklində təqdimini öyrənirlər. Onlar həmçinin Günəş sisteminin quruluşunu, Yer kürəsinin öz oxu ətrafında fırlanmasını və bu fırlanmanın coğrafi nəticələrini izah etməyi bacarırlar. Şagirdlərə üfüqün cəhətlərini, qlobus və xəritə arasındakı fərqləri anlamaq, həmçinin xəritə üzərində qitələri, okeanları, ölkələri tapmaq və göstərmək öyrədilir (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2024, s. 8).

**Sağlamlıq və təhlükəsizlik.** Bu məzmun xətti üzrə şagirdlər şəxsi gigiyena, sağlam qidalanma və fiziki fəallığın sağlam həyat tərzindəki rolunu dərk edir, günün səmərəli planlaşdırılmasını bacarır, gündəlik həyatda və məişətdə istifadə olunan cihaz və vasitələrdən təhlükəsiz istifadə qaydalarına əməl etməyi öyrənirlər. Eyni zamanda onlar təbii fəlakətlər və texnogen qəzalar zamanı həyat və sağlamlığın qorunmasına dair əsas təhlükəsizlik tədbirləri haqqında biliklərə yiyələnirlər (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2024, s. 9).

**İnsan və cəmiyyət.** Bu məzmun xətti üzrə şagirdlər insanın sosial varlıq olduğunu anlayır, şəxsiyyətin formalaşmasında fərdi xüsusiyyətlərin, bilik və bacarıqların, həmçinin mənimsənilmiş dəyərlərin əhəmiyyətini qiymətləndirirlər. Ailə, kollektiv və cəmiyyətin insanın inkişafındakı rolunu izah edirlər. Ünsiyyət və davranış normalarına riayət edir, mədəni müxtəlifliyə hörmətlə yanaşır, insanın ailə və cəmiyyətlə qarşılıqlı münasibətlərini müəyyənləşdirirlər. Bununla yanaşı, dövlət rəmzlərini tanıyır, hüquqi və iqtisadi bilikləri praktik bacarıqlarla tətbiq etməyi bacarırlar (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2024, s .9).




**Diaqram 2.6.1. “Canlılarda struktur və proseslər” məzmun xətti üzrə dəyərlərin bölgüsü**

Diaqramda “Canlılarda struktur və proseslər” məzmun xəttinə əsasən Həyat bilgisi dərsliyində əks olunan dəyərlərin tezliyi və vurğulanma səviyyəsi əks etdirilmişdir. Diaqramdan aydın görünür ki, **təbiətə qayğı** dəyəri ən yüksək göstəriciyə sahibdir (3 vahid), bu isə mövzuların təbiətin qorunması və ekologiyanın əhəmiyyətini daha çox vurğuladığını göstərir. **Elmilik** dəyəri də yüksək səviyyədə (3 vahid) təmsil olunur ki, bu da şagirdlərə elmi biliklərin çatdırılması və təbiət hadisələrinin səbəb-nəticə əlaqələrinin izahı ilə bağlıdır. **İctimai məsuliyyətlilik** və **ekoloji şüurluluq** kimi dəyərlər orta səviyyədə (2 vahid) mövcuddur və bu, şagirdlərin ətraf mühit və cəmiyyət qarşısında məsuliyyətlərinin formalaşdırılmasına yönəlmiş məzmunun olduğunu göstərir. **Canlılara qayğı və mərhəmət, biliyin üstünlüyü** (1 vahid) dəyərləri isə nisbətən zəif təmsil olunub, bu isə bu mövzularda bu dəyərlərin dolayı və ya məhdud şəkildə təqdim edildiyini göstərir.




**Diaqram 2.6.2. “Ətraf mühit və biz” məzmun xətti üzrə dəyərlərin bölgüsü**

Diaqram “Ətraf mühit və biz” məzmun xəttinin Həyat bilgisi dərsliyində hansı dəyərləri ön plana çıxardığını göstərir. **Elmilik** dəyəri (8 vahid) ilə ən yüksək səviyyədə təmsil olunub. Bu, şagirdlərə ətraf mühitlə bağlı elmi biliklərin, anlayışların və məntiqi nəticələrin verilməsinə geniş yer ayrıldığını göstərir. **İctimai məsuliyyətlilik** dəyəri (6 vahid) ilə yuxarı səviyyədədir. Bu da şagirdlərin ətraf mühitlə bağlı məsuliyyət daşımasına yönəlmiş məzmuna işarə edir. **Ekoloji şüurluluq və fərqindəlilik** dəyərləri (hər biri 5 vahid) ilə mövzuların bu aspektləri orta səviyyədə dəstəklədiyi görülür. **Biliyin üstünlüyü və təhlükəsizlik şüuru** dəyərləri (3 vahid) daha az intensivliklə özünü göstərir. **Təbiətə qayğı** (2 vahid), **bioloji müxtəlifliyin qorunması, canlılara qayğı və təbiəti qoruma** dəyərləri isə (hər biri 1 vahid) aşağı səviyyədədir. Bu dəyərlər ümumilikdə mövzularda yer alsa da, daha az vurğulanıb və dolayı şəkildə təqdim olunub.




**Diaqram 2.6.3**. **“Sağlamlıq və təhlükəsizlik” məzmun xətti üzrə dəyərlərin bölgüsü**

Bu diaqram Həyat bilgisi dərsliyində “Sağlamlıq və təhlükəsizlik” məzmun xətti üzrə hansı dəyərlərin vurğulandığını göstərir. **Təhlükəsizlik şüuru** dəyəri (8 vahid) ilə ən yüksək göstəriciyə malikdir. Bu, məzmun xəttinin əsas hədəfinin şagirdlərə təhlükəsiz həyat fəaliyyətinin vacibliyini aşılamaq olduğunu göstərir. **Fərdi məsuliyyətlilik** (5 vahid) və **özünüqoruma** (4 vahid) dəyərləri də yüksək səviyyədədir. Bu, şagirdlərin fərdi sağlamlığına və təhlükəsizliyinə cavabdeh olmalarının öyrədildiyini göstərir. **Elmilik**, **ictimai məsuliyyətlilik**, **intizamlılıq**, **fərqindəlilik**, **qaydalara riayət**, **sağlam həyat tərzi**, **özünə qayğı** və **ictimai məsuliyyətlilik** dəyərləri (2-3 vahid arası) təmsil olunub. Bu dəyərlər dərslikdə dolayı və ya tamamlayıcı şəkildə yer alır. **Qənaət** (vaxta) dəyəri isə ən az (1 vahid) səviyyədə əks olunub ki, bu da onun mövzu çərçivəsində daha az vurğulandığını göstərir.




**Diaqram 2.6.4. "İnsan və cəmiyyət" məzmun xətti üzrə dəyərlərin bölgüsü**

Bu diaqram "İnsan və cəmiyyət" məzmun xətti üzrə tədris olunan dəyərlərin dərslikdə hansı tezlikdə təzahür etdiyini göstərir. **Müxtəlifliyə hörmət** və **fərdi məsuliyyətlilik** dəyərləri **ən yüksək** (3 vahid) tezliklə təmsil olunur. Bu da göstərir ki, şagirdlərə həm ictimai müxtəlifliklərə hörmət etmək, həm də fərdi məsuliyyət daşımaq bacarıqları aşılanır. **Tolerantlıq**, **sosial və hüquqi şüurluluq**, **vətənpərvərlik** və **iqtisadi dəyərlər (qənaət)** kimi dəyərlər 2 vahid tezliklə yer alıb. Bu da mövzunun geniş sosial mənzərəni əhatə etdiyini göstərir. **Multikulturalizm və cəmiyyətə inteqrasiya**, **elmilik**, **milli mənsubiyyət və qürur**, **tarixi dəyərlərə hörmət**, **hüquqların qorunması və ədalət, ictimai məsuliyyətlilik** kimi dəyərlər nisbətən zəif-1 vahid səviyyəsində təqdim olunur. Bu isə onların daha çox dolayı şəkildə, mövzu ilə əlaqəli nümunələrdə ifadə edildiyini göstərir.

**Cədvəl 2.6.1. Kurikulum və dərslikdəki dəyərlərin müqayisəli cədvəli**

| Kurikulumdakı dəyərlər | Dərslikdəki dəyərlər | Şərhi |
|---|---|---|
| Təbiətə qayğı, ekoloji şüurluluq | Təbiəti qoruma, bioloji müxtəlifliyin qorunması | Həm kurikulumda, həm də dərslikdə təbiətin qorunması və ekoloji şüurluluq qeyd edilir. Ekoloji şüurluluqla bağlı konkret fəaliyyətlər dərslikdə təqdim olunur. |

| | | |
|---|---|---|
| Elmilik | Biliyin üstünlüyü, elmilik | Elmilik dəyəri həm kurikulumda, həm də dərslikdə vurğulanır, şagirdlərə elmin və biliyin önəmi izah olunur. |
| İctimai məsuliyyətlilik və sosial şüurluluq, iqtisadi dəyərlər | Sosial və hüquqi şüurluluq, hüquqların qorunması, qənaət | Sosial məsuliyyət və hüquqların qorunması, şəxsi və sosial məsuliyyətlə bağlı mövzular, iqtisadi dəyərlər kurikulum və dərslikdə paralel şəkildə işlənir. |
| Canlılara qayğı və mərhəmət | Canlılara qayğı və mərhəmət | Canlılara qayğı və mərhəmət hər iki sənəddə əsas dəyər kimi təqdim olunur, şagirdlərə empatiya və mərhəmət anlayışları aşılanır. |
| Fərdi məsuliyyət, özünüqoruma, intizamlılıq | Fərdi məsuliyyət, özünüqoruma, qaydalara riayət | Bu dəyərlər həm kurikulumda, həm də dərslikdə tədris edilir, şagirdlərin şəxsi məsuliyyətini artırmaq və düzgün davranışlar formalaşdırmaq məqsəd qoyulub. |
| Sağlam həyat tərzi, özünə qayğı | Sağlam həyat tərzi, özünə qayğı | Həm kurikulumda, həm də dərslikdə sağlam həyat tərzi, qənaət və özünə qayğının təşviqinə xüsusi diqqət yetirilir. |
| Tolerantlıq, multikulturalizm, mədəni | Multikulturalizm və cəmiyyətə inteqrasiya, tolerantlıq | Multikulturalizm, tolerantlıq və sosial uyğunlaşma mövzuları həm kurikulumda, |

| | | |
|---|---|---|
| müxtəliflik, sosial uyğunlaşma | | həm də dərslikdə vurğulanır, şagirdlərin müxtəlifliyə hörmət etmələri istənilir. |
| Vətənpərvərlik, milli kimlik və qürur, ailə dəyərləri | Vətənpərvərlik, milli mənsubiyyət və qürur, ailəyə hörmət və bağlılıq | Hər iki sənəddə vətənpərvərlik, milli kimlik və qürur, ailə dəyərləri vurğulanır, şagirdlərin öz milli kimliklərini qavrayıb qürur duymaları, ailəyə hörmət etmələri təşviq olunur. |
| Təhlükəsizlik şüuru, fövqəladə hallar zamanı davranış | Təhlükəsizlik şüuru, özünü mühafizə qaydalarına riayət | Təhlükəsizlik və fövqəladə hallar mövzusu həm kurikulumda, həm də dərslikdə geniş şəkildə işlənir, şagirdlərə təhlükəsiz davranış qaydaları aşılanır. |

Bu müqayisəli təhlil göstərir ki, kurikulumda nəzərdə tutulan dəyərlər ümumi şəkildə təhsil prosesinin əsas hədəfləri ilə bağlı təqdim olunmuş, dərslikdə isə bu dəyərlər daha çox konkret və praktiki nümunələr, mətn, tapşırıqlar və tətbiqi fəaliyyətlər vasitəsilə şagirdlərə aşılanmağa çalışılmışdır. Hər iki sənədin məqsədi şagirdlərin mənəvi və sosial inkişafını təmin etmək olsa da, kurikulumda dəyərlər daha geniş çərçivədə nəzərdə tutulur, dərslikdə isə bu dəyərlər daha çox şagirdlərin gündəlik həyatına tətbiq olunmağa yönəlmişdir. Nümunə olaraq, **təbiətə qayğı** və **multikulturalizm** kimi dəyərlər kurikulumda daha ümumi şəkildə işlənib, dərslikdə isə daha konkret və praktik şəkildə verilmişdir. Əksinə, **ictimai məsuliyyət** və **sosial şüurluluq** kimi dəyərlər isə dərslikdə daha konkret hüquqi və sosial norma olaraq verilmişdir, amma kurikulumda bu mövzu daha ümumi şəkildə qalır.

# NƏTİCƏ

Müasir dövrdə təhsil yalnız akademik biliklə məhdudlaşmır, həmçinin emosional baxımdan sağlam, cəmiyyətin və şəxsi dəyərlərin mahiyyətini anlayan və bu dəyərləri mənimsəmiş fərdlərin yetişdirilməsi əsas hədəf kimi qəbul edilir. Buna görə də dəyər təlimi təhsil prosesində xüsusi əhəmiyyət kəsb edir.

Bu tədqiqatın əsas məqsədi II sinif Həyat bilgisi dərsliyində təqdim olunan məzmunun dəyərlər sistemi baxımından təhlil edilməsidir. Bu məqsədlə II sinif Həyat bilgisi dərsliyində yer alan mövzular dörd əsas məzmun xətti -“Canlılarda struktur və proseslər”, “Ətraf mühit və biz”, “Sağlamlıq və təhlükəsizlik”, “İnsan və cəmiyyət” çərçivəsində araşdırılmış və hər bir xətt üzrə reallaşdırılan dəyərlər diaqramlarla təqdim olunmuşdur.

Tədqiqat zamanı sistemli məzmun analizi metodu tətbiq edilmişdir. Hər bir mövzuda təqdim olunan mətn, fəaliyyət, tapşırıq və vizual materiallar təhlil edilərək onların hansı dəyərləri təbliğ etdiyi müəyyənləşdirilmiş, bu dəyərlərin təkrarlanma tezliyi əsas götürülərək statistik diaqramlar hazırlanmışdır.

1. Canlılarda struktur və proseslər. Bu məzmun xətti üzrə təbiətə qayğı və elmilik dəyərləri ən yüksək (3 vahid) göstərici ilə təqdim olunmuşdur. Bu da dərsliyin mövzularında ekoloji biliklərin və təbiət hadisələrinin elmi əsaslarla izahına xüsusi yer verildiyini göstərir. İctimai məsuliyyətlilik və ekoloji şüurluluq dəyərləri isə orta səviyyədə (2 vahid) təmsil olunmuşdur. Bu da şagirdlərdə ətraf aləmə qarşı cavabdehlik hissinin formalaşdırılmasına yönəlmiş tərbiyəvi məqsədlərin olduğunu göstərir. Canlılara qayğı və mərhəmət, biliyin üstünlüyü kimi dəyərlər isə nisbətən zəif (1 vahid) şəkildə yer almış, bu da onların dolayı şəkildə təqdim olunduğunu göstərmişdir.

2. Ətraf mühit və biz. Bu məzmun xəttində elmilik dəyəri yüksək tezliklə (8 vahid) təqdim olunmuşdur ki, bu da təbiət hadisələrinin və materialların elmi əsaslarla öyrədilməsinə diqqət yetirildiyini göstərir. İctimai məsuliyyətlilik (6 vahid), ekoloji şüurluluq və fərqindəlik (hər biri 5 vahid) dəyərləri də yuxarı və orta səviyyədə təmsil olunmuşdur. Bu isə şagirdlərin ətraf mühitlə bağlı davranışlarının formalaşdırılması istiqamətində məqsədyönlü məzmunun olduğunu göstərir. Ən az səviyyədə (1-2 vahid) təqdim olunan dəyərlər sırasında canlılara qayğı, bioloji müxtəlifliyin qorunması, təbiəti qoruma və təbiətə qayğı kimi mühüm dəyərlərin zəif təmsil olunduğu müəyyən edilmişdir. Bu isə həmin dəyərlərin əsas deyil, tamamlayıcı komponent kimi verildiyini göstərir.

3. Sağlamlıq və təhlükəsizlik. Bu məzmun xəttində təhlükəsizlik şüuru dəyəri açıq şəkildə dominantlıq göstərmiş və 8 vahid tezliklə tədris məzmununa daxil edilmişdir. Bu isə şagirdlərə təhlükəli situasiyalardan qorunmaq, qaydalara əməl etmək və təhlükəsiz həyat tərzi

keçirmək bacarıqlarının aşılandığını göstərir. Ardınca fərdi məsuliyyətlilik (5 vahid) və özünüqoruma (4 vahid) dəyərləri gəlir ki, bu da fərdin sağlamlığına və rifahına diqqətin vacibliyini vurğulayır. İntizamlılıq, fərqindəlik, özünə qayğı, sağlam həyat tərzi kimi dəyərlər orta səviyyədə (2-3 vahid) təmsil olunmuşdur. Ən zəif (1 vahid) təmsil olunan dəyər isə vaxta qənaət olmuşdur ki, bu da zamanın idarə olunması və onun effektiv istifadəsinin mövzularda kifayət qədər vurğulanmadığını göstərir.

4. İnsan və cəmiyyət. Bu məzmun xəttində müxtəlifliyə hörmət və fərdi məsuliyyətlilik (hər biri 3 vahid) dəyərləri üstünlük təşkil etmişdir. Bu da şagirdlərdə həm ictimai fərqliliklərə dözümlü yanaşmaq, həm də öz davranışlarına görə məsuliyyət daşımaq bacarıqlarının inkişaf etdirilməsinə xidmət edir. Tolerantlıq, hüquqi şüur, vətənpərvərlik, elmilik, iqtisadi dəyərlər (qənaət) kimi dəyərlər orta səviyyədə (2 vahid) yer almışdır. Daha zəif təmsil olunan dəyərlər sırasına isə multikulturalizm, ictimai məsuliyyətlilik, milli qürur, ədalət, hüquqların qorunması, tarixi dəyərlərə hörmət (hər biri 1 vahid) daxildir. Bu isə göstərir ki, dərslikdə sosial və vətəndaşlıqla bağlı bəzi dəyərlər yalnız dolayı və ya epizodik şəkildə əks olunmuşdur.

Bununla yanaşı, bütün məzmun xətləri üzrə aparılmış ümumi təhlil göstərir ki, bəzi mühüm dəyərlərə nisbətən az yer verilir və bu onların şagirdlər tərəfindən tam mənimsənilməsinə maneə yarada bilər. Daha az yer verilmiş dəyərlər:

Qənaət dəyəri iqtisadi davranış və resurslardan düzgün istifadə baxımından vacib olsa da, yalnız bir neçə mövzuda səthi şəkildə qeyd olunmuşdur.

Multikulturalizm və cəmiyyətə inteqrasiya dəyəri cəmiyyət daxilində fərqli mədəniyyətlərə hörmət və birlik dəyəri kimi qeyd olunsa da, çox nadir hallarda vurğulanır.

Milli mənsubiyyət və qürur dəyəri yalnız "İnsan və cəmiyyət" məzmun xəttində qismən təzahür edir, lakin digər mövzularda bu dəyərlərin inteqrasiyası zəifdir.

Hüquqların qorunması, ədalət və hüquqi şüurluluq dəyərləri mövcud olsa da, hüquqların qorunması aspekti spesifik və ardıcıl vurğulanmır.

Tarixi dəyərlərə hörmət dəyəri bəzi mətnlərdə keçici şəkildə qeyd olunur, lakin müstəqil dəyər kimi dərindən işlənmir.

Canlılara qayğı və mərhəmət dəyəri xüsusilə "Canlılarda struktur və proseslər" məzmun xəttində az rast gəlinir, halbuki təbiətə münasibət baxımından əhəmiyyətlidir.

Özünə qayğı və özünüqoruma dəyəri sağlamlıq mövzusunda mövcud olsa da, digər mövzularda bu dəyərlər sistemli şəkildə geniş yer almır.

II sinif Həyat bilgisi kurikulumu üzrə dörd məzmun xəttinin emosional taksonomiya baxımından təhlili də göstərir ki, altstandartlarda əsasən aşağı səviyyələr-**məqbulsayma və reaksiyavermə** (orta hesabla 70–80%-ə yaxın) üstünlük təşkil edir. Bu isə şagirdlərdə ilkin maraq, tanıma və emosional münasibətin formalaşdırılmasına yönəlmiş məqsədyönlü fəaliyyəti

əks etdirir. **Dəyərləndirmə, təşkiletmə, dəyər və dəyərlər sistemini özündə əksetdirmə** kimi yuxarı səviyyələrin daha az təmsil olunması (ümumilikdə 20–30%) isə kurikulumun hələlik şagirdlərdə dərin düşüncə, seçim və şəxsi mövqe bildirmə bacarıqlarının inkişafı üçün geniş imkan yaratmadığını göstərir.

Ümumilikdə, dəyərlər sisteminin dərslikdə şagirdlərin yaş və inkişaf səviyyəsinə uyğun şəkildə tərtib edildiyi, lakin bəzi dəyərlərin yalnız konkret mövzularda və məhdud çərçivədə təqdim olunduğu aşkar edilmişdir. Bu isə gələcək dərslik tərtibatında həmin dəyərlərin gücləndirilməsinin zəruriliyini, tədris prosesində əlavə və məqsədyönlü izah, fəaliyyətlərin tələb olunduğunu göstərir.

## TƏKLİFLƏR

1. Həyat bilgisi fənni üzrə bütün siniflərə aid dərsliklər və fənn kurikulumlarının dəyərlər sistemi baxımından təhlil olunması, bu istiqamətdə tədqiqatların aparılması ilə dərslik məzmununun daha da zənginləşdirilməsi təklif edilir.
2. Altstandartlar hazırlanarkən emosional taksonomiyanın yüksək səviyyələrinə-dəyərləndirmə, təşkiletmə, dəyər və dəyərlər sistemini özündə əksetdirməyə üstünlük verilməsi tövsiyə olunur.
3. Fənn kurikulumu hazırlanarkən emosional taksonomiya meyarları üzrə təhlil metodikasının tətbiq olunması və bütün səviyyələrin balanslı şəkildə təmsilinə diqqət yetirilməsi təklif olunur.
4. Dəyərlərin daha yüksək səviyyədə mənimsənilməsi üçün dərslik tapşırıqları şagirdin şəxsi mövqe bildirməsinə, seçimini əsaslandırmasına və davranış nümunəsi göstərməsinə imkan verəcək şəkildə tərtib oluna bilər.
5. Qənaət, multikulturalizm, milli qürur, hüquqi şüurluluq, ədalət və tarixi dəyərlərə hörmət kimi dəyərlərin II sinif dərsliyində zəif təmsil olunduğu müəyyən olunmuşdur. Bu səbəbdən gələcək dərsliklərin hazırlanmasında bu dəyərlərin məqsədyönlü şəkildə genişləndirilməsi və kontekstə uyğun təqdimatı təmin edilə bilər.
6. Dəyərlərin yalnız konkret mövzularla məhdudlaşdırılması onların şagirdlər tərəfindən dərin mənimsənilməsinə maneə yaradır. Buna görə də dəyərlərin fənn üzrə ardıcıl şəkildə bütün mövzulara inteqrasiya olunması tövsiyə edilir.
7. Dəyərlərin praktik mənimsənilməsi üçün fəaliyyətlər, layihə tapşırıqları və oyunlaşdırma metodlarından daha geniş istifadə edilməlidir. Məsələn, canlılara qayğı və ekoloji şüurluluq dəyərlərinin təbliği məqsədilə məktəbdaxili ekoloji layihələr təşkil oluna bilər.
8. Müxtəlifliyə hörmət, multikulturalizm və hüquqların qorunması kimi dəyərlər cəmiyyətə inteqrasiya və vətəndaş mövqeyinin formalaşması üçün vacibdir. Bu dəyərlərin həm mətnlərdə, həm də tapşırıqlarda daha açıq və praktik nümunələrlə təqdim olunması zəruridir.
9. Bəzi dəyərlər dərslikdə dolayı şəkildə verilsə də, onların şagirdlər tərəfindən aydın dərk olunması üçün müəllimyönümlü metodik izahatlara və bələdçi suallara ehtiyac vardır.
10. Dəyərlərin şagirdlərdə nə dərəcədə formalaşdığını qiymətləndirmək üçün monitorinq mexanizmləri və qiymətləndirmə vasitələri hazırlana bilər.

11. Dəyərlərin mənimsədilməsi prosesinin daha səmərəli həyata keçirilməsi üçün ailələrin də məktəbdə aparılan dəyərlər təlimini fəal şəkildə dəstəkləməsi və bu istiqamətdə övladlarına ardıcıl və nümunəvi davranış təqdim etmələri təklif olunur.

# İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR

## Azərbaycan dilində


1. Abbasov, Ə. M., Cavadov, İ. A., İbadova, B. O., Quliyeva, K. R., Sultanova, İ. H., & Cavadova, S. E. (2019). *Kurikulum bələdçisi: İzahlar və tətbiqlər.* Bakı: Elm və təhsil.
2. Azadlı, L. (2011). *Gənclərin tərbiyəsində ailə, məktəb və ictimaiyyətin rolu*. Azərbaycan müəllimi, 21 fevral, s.4
3. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu (2024). *Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Həyat bilgisi fənni üzrə təhsil proqramı (kurikulum) (I–IV siniflər).* Bakı.
4. Azərbaycan Respublikası Nazirlər Kabineti (2020). *"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarda dəyişiklik edilməsi barədə Qərar* (29.09.2020, № 361). https://e-qanun.az/framework/46052 (əldə olunma tarixi: 09.04.2025)
5. Azərbaycan Respublikası Təhsil İnstitutu (2020). *Həyat bilgisi fənninin tədrisi metodikası: Oxu materialı (ixtisasartırma proqramı üçün).* https://www.tipii.edu.az/noduploads/document/5991_hayat-bilgisi-fanninin-tadrisi-metodikasi-oxu-materiali-28-06.pdf
6. Azərbaycan Respublikası Təhsil İnstitutu (2020, 20 noyabr). *Dərsliklərin təkmilləşdirilməsi üzrə Sinqapur şirkəti ilə əməkdaşlıq*. https://arti.edu.az/2020/11/20/d%c9%99rslikl%c9%99rin-t%c9%99kmill%c9%99sdirilm%c9%99si-uzr%c9%99-sinqapur-sirk%c9%99ti-il%c9%99-%c9%99m%c9%99kdasliq/ (əldə olunma tarixi: 09.04.2025)
7. Azərbaycan Respublikası Təhsil İnstitutu (2022). *Blum taksonomiyasının affektiv (emosional) sahəsi. Oxu materialı.*
8. Azərbaycan Respublikası Təhsil İnstitutu (2023). *Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili.* Bakı: CN Poliqrafiya.
9. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu (2013). *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Həyat bilgisi fənni üzrə təhsil proqramı (kurikulumu) (I–IX siniflər).* Bakı.
10. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası* (2013). https://president.az/az/articles/view/9779

11. *Azərbaycan Respublikasının Konstitusiyası* (1995). 12 noyabr 1995-ci il tarixli ümumxalq səsverməsi ilə qəbul edilmiş; 2002, 2009 və 2016-cı illərdə edilmiş dəyişikliklərlə. https://e-qanun.az/framework/897
12. *Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası* (2014). https://e-qanun.az/framework/27056
13. *Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi* (2018). https://e-qanun.az/framework/39622
14. *Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu* (2009). https://e-qanun.az/framework/18343
15. Bayramov Ə. S. (1981). *Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri*. Bakı: Azərnəşr
16. Əliyev, A.P. (2023). *Ümumtəhsil müəssisələrində tərbiyə işinin təşkili nəzəriyyəsi və metodikası*. Bakı: "CN Poliqrafiya".
17. Əliyev, S., Əzizova, Z., Hüseynzadə, R. və Verdiyeva, Ü. (2021). *Pedaqogika (dərslik)*. Bakı: Mütərcim.
18. Əliyeva, Z. (2004). *Pedaqogika: Mədəniyyət və İncəsənət təmayüllü ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələr üçün dərslik.* Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi.
19. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. (2008). *Əsrin meqameylləri: psixopedaqoji problemlər.* Bakı, ADPU nəşri.
20. Hüseynzadə, R. (2010). *Tərbiyə işinin metodikası: Proqram.* Bakı: Azərbaycan Müəllimlər İnstitutu.
21. İbrahimov, F. N. və Hüseynzadə, R. L. (2012). *Pedaqogika* (II cild). Bakı: Mütərcim nəşriyyatı.
22. İsmixanov, M., İmamverdiyeva, N., Kərimova, G. (2022). *Təlim məqsədləri və onların taksonomiyası*. Sosial və humanitar elmlərin müasir problemləri, 29(1), 125–129.
23. Qurbanov, R. (2020). *Dəyərlər milli maraqlar kontekstində: Fərd, cəmiyyət və dövlət*. Dövlət və Din jurnalı, (1) 64, 17–24.
24. Məmmədov, E. (2021). *Dəyərlər: Mahiyyəti, fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları.* Dövlət və Din jurnalı, 4(71), 64–72.
25. Paşayev, Ə. X., & Rüstəmov, F. A. (2010). *Pedaqogika. Yeni kurs* (İşlənilmiş və əlavələr edilmiş 3-cü nəşr). Bakı: Elm və Təhsil.
26. Rüstəmov, F. (2001). *Məhəmməd Peyğəmbər (s) tərbiyə haqqında.* Pedaqoji tədqiqatlar, № 3, Bakı: ADPU

27. Rüstəmov, F. (2006). *Pedaqogika tarixi*, *dərslik*. Bakı: Nurlan.
28. Salmanova, K. (2022). *İnsanın fəaliyyətində dəyərlər sisteminin rolu*. Əmək və sosial münasibətlər, 2(18), 90–96.
29. Yunusov, E., Mehdiyeva, G., Kazımzada, E., İslamzada, Y., İmanov, E., Ələkbərov, F., Tağıyeva, İ. (2024). *Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Həyat bilgisi fənni üzrə dərsliyin metodik vəsaiti* (Qrif № 2024-014). Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi.
30. Yunusov, E., Mehdiyeva, G., Kazımzada, E., İslamzadə, Y., İmanov, E., Ələkbərov, F., Tağıyeva, İ. (2024). *Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Həyat bilgisi fənni üzrə dərslik* (qrif №: 2024-008). Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi.

**Türk dilində**

31. Akbaş, O. (2004). *Türk milli eğitim sisteminin duyuşsal amaçlarının ilköğretim II. kademede gerçekleşme derecesinin değerlendirilmesi* [Doktora tezi]. Gazi Üniversitesi Eğitim Bilimleri Enstitüsü
32. Akbaş, O. (2008). *Değer eğitimi akımlarına genel bir bakış*. Değerler Eğitimi Dergisi, 6(16), 9-27.
33. Aktepe, V. (2014). *Etkinlik temelli değer eğitiminin öğrencilerin yardımseverlik tutumlarına etkisi*. Social Science Studies, 2(2), 17-49.
34. Aktepe, V. ve Tahiroğlu, M. (2016). *Değerler eğitimi yaklaşımları ve etkinlik örnekleri*. The Journal of Academic Social Science Studies, 42, 361-384.
35. Aladağ, S. (2012). *İlköğretim sosyal bilgiler öğretiminde değer eğitimi yaklaşımlarının öğrencilerin sorumluluk değerini bilişşel düzeyde kazanmalarına etkisi*. Türkiye Sosyal Araştırmalar Dergisi, 16 (1), 123-146.
36. Altıntaş, M.E. (2019). *İlköğretim din kültürü ve ahlak bilgisi dersi öğretmenlerinin değer öğretiminde gerçekleştirdikleri ders dışı etkinlikler üzerine nitel bir araştırma*. Türkiye Din Eğitimi Araştırmaları Dergisi, 7, 83-99.
37. Alver, M., & Kesicioğlu, O. S. (2019). *Karakter ve değer eğitimi yaklaşımları ve uygulamaları*. Kağan ve Yılmaz (Ed.), *Karakter ve değer eğitimi* (1. baskı, s. 155-174). Ankara: Pegem Akademi.
38. Arıkan, A. (2011). *Değerler Eğitiminin Tanımı, Önemi ve Kapsamı*. Arıkan (Ed.), *Okulöncesi Dönemde Değerler Eğitimi* (1. Baskı. s.1-28). Eskişehir: Anadolu Üniversitesi Açıköğretim Fakültesi.

39. Aydın, M. Z. (2011). *Değerler, işlevleri ve ahlak*. Eğitime Bakış Dergisi, 7(19), 39-45.
40. Ayvacı, H. Ş., & Türkdoğan, A. (2010). *Yeniden yapılandırılan Bloom taksonomisine göre fen ve teknoloji dersi yazılı sorularının incelenmesi*. Türk Fen Eğitimi Dergisi, 7(1), 13-25.
41. Beldağ, A., Özdemir, Ü., & Nalçacı, A. (2017). *Sosyal bilgiler dersi öğretim programinda yer alan değerlerin kazandirilmasina ilişkin veli görüşleri*. Kırıkkale Üniversitesi Sosyal Bilimler Dergisi, 7(2), 317-328.
42. Bilir, E., & Genç, S. Z. (2023). *Sınıf öğretmenlerinin değer eğitiminde kullandıkları yöntem, teknik ve materyaller üzerine bir araştırma*. Akdeniz Eğitim Araştırmaları Dergisi, 17(44), 1–24.
43. Birgin, O. (2016). *Bloom taksonomisi. Matematik Eğitiminde Teoriler* (s. 839-860). Ankara: Pegem Akademi
44. Deveci, H., ve Ay, T. S. (2009). *İlköğretim öğrencilerinin günlüklerine göre günlük yaşamda değerler.* Uluslararası Sosyal Araştırmalar Dergisi, 2 (6). 167-181.
45. Dilmaç, B. (2007). *Bir grup fen lisesi öğrencisine verilen insani değerler eğitiminin insani değerler ölçeği ile sınanması* [Doktora tezi]. Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü.
46. Doğanay, D. D. A. ve Sarı, A. M. (2004). *İlköğretim ikinci kademe öğrencilerine temel demokratik değerlerin kazandırılma düzeyi ve bu değerlerin kazandırılması sürecinde açık ve örtük programın etkilerinin karşılaştırılması*. Kuram ve Uygulamada Eğitim Yönetimi, 39(39), 356-383.
47. Emirhan, T. (2019). *Milli değerlerin öğretiminde rol model olarak öğretmen*. Arıcı ve Başaran (Ed.), *Milli eğitim üzerine yazılar* (s. 1-7). İstanbul: Efe Akademi Yayıncılık.
48. Emre, Y. & Yapıcı, A. (2015). *Kıbrıs Türk Cumhuriyeti vatandaşlarının değer yönelimleri*. Turkish Studies, 10(2), 329-350.
49. Hatay Uçar, F., & Çetinkaya, S. (2021). *İlkokul Hayat Bilgisi ders kitaplarında değerler eğitimi*. Oltu Beşeri ve Sosyal Bilimler Fakültesi Dergisi, 2(2), 275–291.
50. Kağıtçıbaşı, Ç. ve Kuşdil, M. E. (2000). *Türk Öğretmenlerinin Değer Yönelimleri ve Schwartz Değer Kuramı*. Türk Psikoloji Dergisi, 15(45). (59–76).
51. Kale, M. (2015). *Hayat bilgisi ders kitaplarında yer alan değerlerin içerik analizi* (1948–2012) [Yüksek Lisans Tezi]. Gazi Üniversitesi Eğitim Bilimleri Enstitüsü.

52. Karataş, Z. (2015). *Sosyal bilimlerde nitel araştırma yöntemleri*. Manevi Temelli Sosyal Hizmet Araştırmaları Dergisi, 1(1), 62-180.
53. Karatay, H. (2011). *Karakter eğitiminde edebi eserlerin kullanımı*.Turkish Studies, 6(1), 1439-1454.
54. Kaya, M. (1996). *Örnek olay incelenmesi yönteminin ahlak eğitiminde kullanılması*. Ondokuz Mayıs Üniversitesi İlahiyat Fakültesi Dergisi, 8(8), 135–155.
55. Kesgin, S. (2015). *Amerika Birleşik Devletleri'ndeki karakter eğitimi programları üzerine bir değerlendirme (Georgia ve Florida örneği).* Değerler Eğitimi Dergisi, 13(29), 117-148.
56. Koca, A. İ. (2009). *Üniversite öğrencilerinin değerleri ve bireysel özellikleri ile kariyer tercihleri arasındaki ilişki: Çukurova Üniversitesi'nde bir araştırma* [Yüksek Lisans Tezi]. Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü.
57. Kocaman, K. (2020). *Değerler eğitiminin öğretim yöntemleriyle ilişkisi*. Kıroğlu (Ed.), *İlahiyat alanında akademik çalışmalar*–II (s. 40–54). Ankara: Gece Kitaplığı.
58. Köksal Akyol, A. (2003). *Drama ve dramanın önemi*. Türk Eğitim Bilimleri Dergisi, 1(2), 179–192.
59. Metin, O., Ünal, Ş. (2022*). İçerik analizi tekniği: İletişim bilimlerinde ve sosyolojide doktora tezlerinde kullanımı*. Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi, 22 (Özel Sayı 2), 273–294.
60. Şenel, A. (2018). *Eğitimin temel kavramları*. Gültekin (Ed.), *Eğitim bilimine giriş* (1. baskı, s. 1-17). Eskişehir: Anadolu Üniversitesi Yayınları.
61. Sünbül, A. M. (2011). *Öğretim ilke ve yöntemleri*. Konya: Eğitim Kitabevi Yayınları.
62. Türk, E. (2020). *Değerler ve eğitimi*. D. Demirbulak, Yiğit (Ed.), *Eğitim bilimlerinde akademik çalışmalar* (1. baskı, s. 185–200). France: Lyon
63. Topal, Y. (2019). *Değerler eğitimi ve on kök değer*. Mavi Atlas, 7(1), 245–254.
64. Ülger, M., & Dombaycı, M. A. (2015, Aprel 16–18). *Değer eğitiminin durumsallık boyutu.* Eğitimde gelecek arayışları: Dünden bugüne Türkiye'de beceri, ahlak ve değerler eğitimi. Uluslararası Sempozyumu (Cild 1). Bartın Üniversitesi.
65. Ulusoy, K. (2010). *Değer eğitimi: Davranışçı ve yapılandırmacı yaklaşıma göre hazırlanan tarih programlarında değer aktarımı*. Trakya Üniversitesi Sosyal Bilimler Dergisi, 12(1), 32–51.

66. Uyanık Balat, G. (2012). *Okul öncesinde özel öğretim yöntemleri*, Rengin (Ed.), *Okul öncesi eğitimde anlatım, tartışma, soru cevap, örnek olay, gezi, gözlem ve gösteri öğretim yöntemleri* (s. 255-284), Ankara, Anı Yayıncılık.
67. Uzunöz, A., Aktepe, V. ve Köybaşı E. (2018). *Değer analizi yaklaşımı yoluyla dürüstlük değerine dönük öğrenci cevaplarının incelenmesi*. Kuramsal Eğitim bilim Dergisi, 11(3), 606-626.
68. Yarar Kaptan, S. (2015). *İlkokul 4. sınıf sosyal bilgiler dersinde hoşgörü değerinin karma yaklaşıma dayalı bilgisayar destekli etkinliklerle öğretimi* [Doktora tezi]. Gazi Üniversitesi Eğitim Bilimleri Enstitüsü.
69. Yavuz, S. (2006). *Proje tabanlı öğrenme modelinin kimya eğitimi öğrencilerinin çevre bilgisi ile çevreye karşı tutumlarına olan etkisinin değerlendirilmesi* [Doktora Tezi]. Hacettepe Üniversitesi Fen Bilimleri Enstitüsü.
70. Yazıcı, K. (2006). *Değerler eğitimine genel bir bakış*. Türklük Bilimi Araştırmaları, 19, 499–522.
71. Yeşilyurt, E. (2019). *Değerler eğitimine uygunluğu açısından öğretim yöntem ve tekniklerinin incelenmesi: Bir derleme çalışması*. Ekev Akademi Dergisi, 23(77), 121–146.
72. Yılmaz, B., & Tortop, H. S. (2018). *Değerler eğitimi ve üstün yetenekliler*. Üstün Zekâlılar Eğitimi ve Yaratıcılık Dergisi, 5(2), 10–27.

**İngilis dilində**

73. Anderson, L. and Krathwohl, D. R (2001). *Taxonomy for learning, teaching, and assessing: A revision of Bloom's taxonomy of educational objectives*. Needham Heights, MA: Allyn and Bacon.
74. Berkowitz, M. W., & Puka, B. (2009). *Dissent and character education*. Gordon (Ed.), *Reclaiming dissent: Civic education for the 21st century* (ss. 107-130). Amsterdam: Sense Publishers.
75. Bilsky, W., & Schwartz, S. H. (1994). *Values and personality*. European Journal of Personality, Vol 8, 163–181.
76. Bloom, B.S. and Krathwohl, D. R. (1956). *Taxonomy of Educational Objectives: The Classification of Educational Goals, by a committee of college and university examiners. Handbook I: Cognitive Domain*. New York: Longmans, Green
77. Gronland N. *Writing instructional objectives for teaching and assessment*. (2004), Pearson Prentice Hall.

78. Halstead, J. M., & Taylor, M. J. (2000). *Learning and teaching about values: A review of recent research*. Cambridge Journal of Education, 30(2), 169–202.
79. Hoque, M. E. (2016). *Three domains of learning: cognitive, affective and psychomotor.* The Journal of EFL Education and Research, 2(2), 45-52.
80. Krathwohl, D. R. (2002). *A revision of Bloom's taxonomy: An overview.* Theory into Practice, 41(4), 212–218.
81. Moore, K. D. (1992). *Classification of teaching skills* (2nd ed.). New York: McGraw-Hill.
82. UNESCO, *Living Values: an Educational Program*. (2000). *Framework for action on values education in early childhood.* International Workshop on Integrating Values in Early Childhood Programmes/Services, Paris, France, November 20–22. Paris: UNESCO.
83. UNESCO. (2015*). Education 2030: Incheon Declaration and Framework for Action for the implementation of Sustainable Development Goal 4: Ensure inclusive and equitable quality education and promote lifelong learning opportunities for all*. Paris: UNESCO.

## ƏLAVƏLƏR

Əlavə 1

### Cədvəllər, diaqramlar, şəkillər

**Cədvəl 1.** R.Nelsona görə dəyərlərin təsnifatı.........16
**Cədvəl 2.** E.Sprangerə görə dəyərlərin təsnifatı.........17
**Cədvəl 3.** S.Schwartza görə dəyərlərin təsnifatı.........17
**Cədvəl 4.** M.Rokeacha görə dəyərlərin təsnifatı.........18
**Cədvəl 5.** Azərbaycan Respublikasının əsas normativ sənədlərində vurğulanan dəyərlər.......24
**Cədvəl 6.** II sinif Həyat bilgisi fənn kurikulumunda "Canlılarda struktur və proseslər" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu.........37
**Cədvəl 7.** II sinif Həyat bilgisi fənn kurikulumunda "Ətraf mühit və biz" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu.........38
**Cədvəl 8.** II sinif Həyat bilgisi fənn kurikulumunda "Sağlamlıq və təhlükəsizlik" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu.........40
**Cədvəl 9.** II sinif Həyat bilgisi fənn kurikulumunda "İnsan və cəmiyyət" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların emosional taksonomiyanın səviyyələrinə uyğunluğu.........42
**Cədvəl 10.** II sinif Həyat bilgisi fənn kurikulumunda "Canlılarda struktur və proseslər" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər.........47
**Cədvəl 11.** II sinif Həyat bilgisi fənn kurikulumunda "Ətraf mühit və biz" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər.........48
**Cədvəl 12.** II sinif Həyat bilgisi fənn kurikulumunda "Sağlamlıq və təhlükəsizlik" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər.........51
**Cədvəl 13.** II sinif Həyat bilgisi fənn kurikulumunda "İnsan və cəmiyyət" məzmun xəttində göstərilən əsas və altstandartlar və həmin standartların tələblərinin reallaşması ilə formalaşan dəyərlər.........54

**Cədvəl 14.** II sinif Həyat bilgisi dərsliyində "Mən və məktəbim" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər....................................................................58
**Cədvəl 15.** II sinif Həyat bilgisi dərsliyində "Dəyərlər və sağlamlıq" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər.....................................................61
**Cədvəl 16.** II sinif Həyat bilgisi dərsliyində "Materiallar və təhlükəsizlik" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər.....................................................64
**Cədvəl 17.** II sinif Həyat bilgisi dərsliyində "Yer kürəsi" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər....................................................................67
**Cədvəl 18.** II sinif Həyat bilgisi dərsliyində "Canlılar" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər .........................................................................70
**Cədvəl 19.** II sinif Həyat bilgisi dərsliyində "Ehtiyatlı davranaq" bölməsində verilmiş mövzular əsasında formalaşması nəzərdə tutulan dəyərlər....................................................................73
**Cədvəl 20.** Kurikulum və dərslikdəki dəyərlərin müqayisəli cədvəli .....................................79

**Diaqram 1.** "Canlılarda struktur və proseslər" məzmun xətti üzrə dəyərlərin bölgüsü...........77
**Diaqram 2.** "Ətraf mühit və biz" məzmun xətti üzrə dəyərlərin bölgüsü ...............................77
**Diaqram 3.** "Sağlamlıq və təhlükəsizlik" məzmun xətti üzrə dəyərlərin bölgüsü .................78
**Diaqram 4.** "İnsan və cəmiyyət" məzmun xətti üzrə dəyərlərin bölgüsü...............................79

**Şəkil 1.** Affektiv sahənin təsnifatı..........................................................................................36
**Şəkil 2.** Həyat bilgisi dərsliyində əməkdaşlıq dəyərinin əks olunması ..................................60
**Şəkil 3.** Həyat bilgisi dərsliyində müxtəlifliyə hörmət dəyərinin əks olunması.......................62
**Şəkil 4.** Həyat bilgisi dərsliyində sağlamlığın qorunması dəyərinin əks olunması.................63
**Şəkil 5.** Həyat bilgisi dərsliyində fərqindəlik dəyərinin əks olunması ...................................65
**Şəkil 6.** Həyat bilgisi dərsliyində təhlükəsizlik şüuru dəyərinin əks olunması .......................66
**Şəkil 7.** Həyat bilgisi dərsliyində elmilik dəyərinin əks olunması ..........................................69
**Şəkil 8.** Həyat bilgisi dərsliyində elmilik və fərqindəlik dəyərlərinin əks olunması...............71
**Şəkil 9.** Həyat bilgisi dərsliyində məsuliyyət və canlılara qayğı dəyərlərinin əks olunması ...72

## İxtisarlar

Əlavə 2

**ARTİ** – Azərbaycan Respublikası Təhsil İnstitutu

**AzMKÇ** – Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi

**UNESCO** – United Nations Educational, Scientific and Cultural Organization (Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı)